QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 240 (8833) CÜMƏ 5 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# ŞANLI QƏLƏBƏ

## Müstəqilliyin yeni erasının başlandığı gün

*"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq.*

*Hər gün biz bu günü yaxınlaşdırırdıq. Qarabağ məsələsi Prezident kimi hər gün mənim gündəliyimdə birinci məsələ idi. Hər gün. Hər gün fikirləşirdim ki, bu Qələbəni əldə etmək, torpaqlarımızı azad etmək üçün əlavə nə etmək lazımdır.*

*Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfıra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil. Biz istədiyimizə nail olmuşuq və bizim üçün indi yeni dövr - quruculuq dövrü, torpaqlarımızın bərpası dövrü başlanmışdır".*

***İlham ƏLİYEV***

### Qürur və sevinc doğuran söz

Qələbə - altı hərflik bu söz insana nə qədər qürur və sevinc bəxş edir!

Mənən ucalırsan, ruhən dəyişirsən, sanki başqa cür olursan!

Qalib ölkənin qalib vətəndaşı kimi təkcə digərlərinin nəzərində deyil, öz gözündə də yüksəlirsən!

Düşməni məğlub və məhv etdiyinə, torpaqlarını murdar ləpirlərdən təmizlədiyinə, şəhid balalarının qisasını aldığına görə özündən razı qalırsan!

Həm də bu qələbəni sənə bəxş edən qüdrətli Sərkərdəyə, qalib ordunun Müzəffər Ali Baş Komandanına dərin təşəkkür və minnətdarlıq hissi duyursan:

- Səni məğlub xalqdan qalib dövlətin alnıaçıq, üzügülər vətəndaşına çevirdiyinə görə!
- Səni dil qısalığından, göz kölgəliyindən, tənə və töhmətdən birdəfəlik qurtardığına görə!
- Səni dünyanın gözündə dəyişdiyinə, qalib, qürurlu və məğrur millət olduğunu hərb meydanında təsdiq etdiyinə görə!

Eşq olsun belə Sərkərdəyə!

Ardı 5-ci səh.



## İlham Əliyevin Zəfər salnaməsi

Qüdrətli Azərbaycanın ən yeni tarixinin - şanlı Zəfər salnaməsinin təntənəsini yaşayırıq. Bütövlüyümüzün, birliyimizin sevincini 60 milyonluq Azərbaycan xalqı olaraq bölüşürük.

44 günlük Vətən müharibəsinin böyük Qələbəsinin ildönümünü alnımız açıq, başımız dik, iftixarla qeyd edirik və əminliklə söyləyə bilərik ki, müstəqilliyimiz tarixində heç vaxt indiki kimi güclü, qüdrətli, vüqarlı, istiqrarlı olmamışıq.

### Qətiyyət, cəsarət və siyasi iradə

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev xilaskar liderdir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü.

Ardı 6-cı səh.

## Böyük Qələbənin qızıl amnistiyası

### İlham Əliyevin bu təşəbbüsü 15 mindən çox insana şamil olunacaq

Bütün dövrlərdə insan haqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına xidmət edən əfv və amnistiya aktları cəmiyyətdə olduqca yüksək qiymətləndirilib.

Hər bir fərdin mənafeyinin əsas götürüldüyü hüquqi dövlət quruculuğu prinsiplərinə həssas münasibətin əyani təcəssümü olaraq Azərbaycanda məhkumların əfv edilməsi - bağışlanması artıq ənənəyə çevrilib.

Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının müdafiəsinə böyük sayğı göstərən Azərbaycan dövləti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşıb. Elə bu səbəbdəndir ki, Şərqdə ölüm hökmünü ləğv edən ölkə kimi adı tarixə düşüb.

### Humanizm, insan hüquqlarına hörmətin təzahürü

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu humanizm ənənələrini davam etdirən Prezident İlham Əliyev hər zaman mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri əldə rəhbər tutaraq bayramlar ərəfəsində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır.

Ardı 11-ci səh.



# Qlobal Bakı Forumu qlobal siyasətə aid təxirəsalınmaz və vacib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də "COVİD-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu işə başlayıb.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış mərasimində iştirak edib.*

*VİİI Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail SERAGELDİN** dedi: Cənab Prezident, cənab prezidentlər, zati-aliləri, xanımlar və cənablar. Böyük şərəf hissi ilə sizi bu açılış mərasimində salamlayıram. Biz bir daha məmnunluqla Prezident, zati-aliləri cənab İlham Əliyevi Qlobal Bakı Forumunda salamlayırıq.*

*Bu il biz bu tədbiri noyabr ayında keçiririk. Adətən, Bakıda bu forum yaz aylarında keçirilir. Məhz Prezidentin xeyirxahlığı sayəsində pandemiya səbəbindən bu gün biz bu dövrdə tədbiri keçiririk. Bu il keçirilən forum bir sıra mövzulara yönəlib. Biz pandemiyanın üzə çıxardığı təcrübədən öyrənmək istəyirik, çalışırıq müəyyən edək ki, necə mübarizə aparmalıyıq. Lakin hələ görüləcək işlər çoxdur. Bu mərhələyə qədər bəzi məsələləri müzakirə etmək fürsətimiz oldu. Bununla belə, biz müqavimətlə bağlı olan bəzi səsləri eşidirik, gələcəklə bağlı olan bəzi fikirlərin şahidi oluruq. Əlbəttə ki, bununla bağlı qadınların müxtəlif hüquqları uğrunda mübarizə aparmış mühüm şəxslərin təcrübəsini də nəzərdən keçirəcəyik.*

*Bu gün biz öz müdrikliyi, xüsusi bağlılığı ilə seçilən şəxsiyyətin burada olmasını qeyd edirik. Azərbaycan Prezidenti cənab İlham Əliyev buradadır. Böyük məmnuniyyətlə sözü Sizə veririk. Buyurun, cənab Prezident. Cənab Prezident, Sizin çıxışınızı səbirsizliklə eşitmək istəyirik.*

*Prezident İlham Əliyev forumun açılış mərasimində çıxış etdi.*

## Prezident İlham Əliyevin çıxışı






- Hörmətli dostlar, hörmətli xanımlar və cənablar, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin hörmətli həmsədrləri, hörmətli iştirakçılar. Sizin hamınızı salamlayıram. Bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirmək istəyirəm.

Mərkəzin həmsədrləri ilə 2021-ci ildə keçiriləcək illik Qlobal Bakı Forumunu müzakirə edəndə biz burada - Bakıda belə geniş təqdimatların olacağını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, birinci növbədə onu göstərir ki, COVID ilə bağlı vəziyyət yaxşılaşır. İkinci növbədə isə, əlbəttə ki, həmçinin onu göstərir ki, siz bu tədbirə böyük əhəmiyyət verirsiniz. Çünki Qlobal Bakı Forumu qlobal siyasətə aid təxirəsalınmaz və vacib məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan birinə çevrilib.

Əvvəlcə, mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, xanım Prezident Vayra Vike-Freyberqaya və cənab Serageldinə mərkəzə mükəmməl rəhbərlik etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hətta pandemiya dövründə onların fəaliyyəti çox nəzərə çarpırdı. Məhz onların rəhbərliyi, mərkəzə və onun ideallarına sadiqliyi sayəsində bu mərkəz, qeyd etdiyim kimi, aparıcı beynəlxalq təsisatlardan birinə çevrildi. Mən həmçinin İdarə Heyətinin üzvlərinə onların verdiyi töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin daimi üzvlərə və iştirakçılara da təşəkkür edirəm.

İdarə Heyətinin üzvləri ilə dünən müzakirə etdiyimiz kimi, bura sanki böyük və mehriban ailədir. Hesab edirəm ki, bu da bizim uğurumuzun səbəblərindən biridir. Sadəcə, bu gün olan iştirakçıların, çıxışçıların, foruma müraciət edəcək mötəbər şəxslərin siyahısına baxmaq kifayət edər ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nisbətən qısa müddətdə ziyalıların, dövlət məmurlarının, siyasətçilərin, jurnalistlərin, dövlət xadimlərinin və vətəndaş cəmiyyəti üzvlərinin biliklərini, təcrübəsini və baxışını toplayan, böyük potensialı olan çox azsaylı aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyini deyək. Beləliklə, bugünkü Qlobal Bakı Forumunda gündəlikdə duran təxirəsalınmaz məsələlər müzakirə olunacaq.

Lakin bu məsələlərin müzakirəsindən öncə məmnunluq hissi ilə bildirmək istəyirəm ki, dünən mənə bu il 880-ci ildönümünü qeyd etdiyimiz Nizamiyə həsr olunmuş iki kitab təqdim edilmişdir və mənim Prezident fərmanıma əsasən bu dahi Azərbaycan şairinin xatirəsini uca tutmaq üçün bu il Azərbaycanda "Nizami Gəncəvi ili" elan olunub. Bugünkü forumun gündəliyi çox genişdir. Lakin mən, əvvəlcə, bir neçə məsələyə toxunmaq istərdim.

Birincisi, əlbəttə ki, pandemiya ilə bağlıdır. Çünki bu indi qlobal gündəlikdə birnömrəli məsələdir. Biz pandemiya, bəziləri isə postpandemiya dövrü haqqında danışır. Bizim artıq postpandemiya dövründə olduğumuz aydın deyil. Çünki müxtəlif ölkələr bu məsələyə fərqli yanaşır. Sizə məlumat vermək istəyirəm ki, Azərbaycan bu xəstəliyin, böhranın baş qaldırdığı vaxtdan, lap əvvəldən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə çox fəal addımlar atmışdır. Biz bu ilin yanvarın 18-dən regionda ilk ölkələrdən biri olaraq peyvəndləməyə başladıq. Bu vaxta qədər yaşı 18-dən yuxarı olan əhalinin 60 faizindən çoxu iki dozanı alıb. Nisbətən qısa müddət ərzində biz ümumi çarpayı sayı demək olar ki, 4 min olan 13 yeni dövlət xəstəxanası açdıq və ümumilikdə pandemiya ilə mübarizə aparmaq üçün 46 dövlət xəstəxanası ayrılmışdır. İndi bizdə qapanma yoxdur. Vəziyyət nəzarət altındadır. Yeganə məhdudiyyət ondan ibarətdir ki, biz daxili məkanlarda maska taxmaq məcburiyyətindəyik. Ümidvaram ki, biz vəziyyəti nəzarət altında saxlaya biləcəyik.

Eyni zamanda biz həmçinin əvvəllər olan qapanmaların yükünü azaltmaq üçün ciddi tədbirlər gördük. Biz işini itirmiş, qapanmalardan əziyyət çəkmiş insanlar üçün 2020-ci və 2021-ci illərdə sosial-iqtisadi yardım paketini ayırdıq və paketin ümumi dəyəri 2,9 milyard ABŞ dolları idi. Bu vəsait dövlət büdcəsindən maliyyələşmişdir. Biz bunu etməyə davam edəcəyik, çünki biz özlərini tamamilə yeni bir vəziyyətdə görən insanların üzərinə düşmüş yükü azaltmalıyıq. Biz əsasən iki peyvənddən istifadə edirik. "Sinovac" və "Pfizer"dən. Qeyd etdiyim kimi, peyvəndləmə səviyyəsi yüksəkdir. Bu, əlbəttə ki, dövlət siyasəti sayəsində mümkün olmuşdur. Eyni zamanda bildirmək istərdim ki, əhalimizin bu məsələyə çox məsuliyyətlə yanaşması bizdə məmnunluq doğurur və peyvəndləmə məcburi deyil. Bizdə hər hansı bir antipeyvəndləmə kampaniyası və ya hətta antipeyvəndləmə tendensiyası yoxdur. Azərbaycan xalqı peyvəndləmənin vacibliyini anlayır və bu, bizim işimizi xeyli asanlaşdırır. Qlobal miqyasda Azərbaycan həmçinin çox fəal addımlar atıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının hazırkı sədri olaraq ötən il bizim təşəbbüsümüzlə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirildi.

Qoşulmama Hərəkatının Sammitində biz BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdik və bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəklənmişdir və bu xüsusi sessiya keçən ilin 3 və 4 dekabr tarixlərində baş tutdu.

Bu, bizim qlobal məsələlərin müzakirəsinə olan töhfəmiz idi. Eyni zamanda biz BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bərabər və universal çıxış və peyvəndlərin ədalətli bölgüsünə dair təşəbbüs irəli sürdük. Biz qlobal səviyyədə "peyvənd millətçiliyi" və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ölkələrdənik. Bəzi ölkələr artıq peyvəndin üçüncü dozasının tətbiqini planlaşdırır. Digər ölkələrdə isə vaksinasiyanın səviyyəsi aşağıdır. Beləliklə, biz bərabər imkanların yaradılması üçün bu məsələni müzakirə etməliyik.

Bununla yanaşı, qeyd etmək istəyirəm ki, bizim təşəbbüsümüzlə COVID-19-un müalicəsi ilə bağlı məlumat bazası yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv ölkələrdə həmin məlumat bazasından istifadə edir. Bu isə öz növbəsində ÜST-ə öz dəstəyini düzgün planlaşdırmağa və proqnozlaşdırmağa kömək edir. Qoşulmama Hərəkatının sədri qismində biz 30-dan artıq ölkəyə maliyyə və humanitar yardımı etmişik. Biz təmənnasız olaraq bir neçə ölkəni peyvənd dozaları ilə təmin etmişik. Eyni zamanda biz yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə töhfəsi etmişik. Bunlar bizim qlobal səviyyədə atdığımız addımlardır. Əlbəttə, beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi və dünyanın aparıcı dövlətlərinin məsuliyyətli yanaşma nümayiş etdirməsi bu xəstəliyin öhdəsindən gəlməyə yardım edəcək.

Toxunmaq istədiyim digər bir mövzu, I Bakı Qlobal Forumundan başlayaraq hər yeddi forumda haqqında danışdığım mövzudur - Ermənistan-Azərbaycan münaqişəsi. Bu gün isə demək istəyirəm ki, münaqişə həll edilib. Azərbaycan özü münaqişəni həll etdi. Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri özü yerinə yetirdi. Təəssüflər olsun ki, həmin qətnamələr 27 il ərzində kağız üzərində qaldı və özünümüdafiə hüququnu ehtiva edən BMT Nizamnaməsinin 51-ci maddəsindən istifadə edən Azərbaycan özü ərazi bütövlüyünü bərpa etməsə idi, həmin qətnamələr növbəti 27 il ərzində də kağız üzərində qalacaqdı. Azərbaycan beynəlxalq hüquqi çərçivəni də istifadə etdi, çünki yalnız BMT Təhlükəsizlik Şurası deyil, digər aparıcı beynəlxalq təsisatlar Azərbaycanın ərazilərinin işğalı ilə bağlı bənzər qətnamə və qərarlar qəbul edib. BMT-nin Baş Assambleyası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası münaqişə ilə bağlı müxtəlif dövrlərdə buna bənzər qərar və qətnamələr qəbul edib ki, ötən il ərazilərimizi azad edərkən gördüyümüz işlər buna tam uyğun idi.

Təəssüf ki, Ermənistan yalnız status-kvonu möhkəmləndirmək, danışıqlar formatını yalnız münaqişənin əbədi dondurulması aləti kimi istifadə etməyə cəhd edirdi. Əvvəlki illərdə Ermənistan hakimiyyəti ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin işğal edilmiş ərazilərin boşaldılması yolu ilə həllinə nail olmaq istiqamətində işləmək görüntüsü yaradırdısa, son bir neçə ildə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqların bir qarışını belə qaytarmayacağını artıq açıq şəkildə bəyan edirdi. Bununla bağlı kifayət qədər sübut var. Təkcə Ermənistanın hazırkı baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərində iki il əvvəl verdiyi bəyanatı qeyd etmək kifayət edər - "Qarabağ Ermənistandır və nöqtə". Bu, əslində, danışıqların sonu idi. Birincisi, bu, ziddiyyətli və yalan bəyanat idi, çünki Ermənistan rəhbərliyi iddia edirdi ki, Qarabağ "müstəqil dövlətdir". Halbuki Ermənistan da daxil olmaqla, dünyanın heç bir ölkəsi onu tanımamışdı. Digər tərəfdən isə, onlar deyirdilər ki, "Qarabağ Ermənistandır". Yəni bu ziddiyyət Ermənistanın ötən il üzləşdiyi rüsvayçı məğlubiyyətlə nəticələnən təzadlı siyasətinin göstəricisi idi.

Beləliklə, bu qəbildən olan bəyanatlar danışıqların sonu oldu. Mənim təəssüratıma əsasən, ATƏT-in Minsk qrupunun həmsədrləri də bu bəyanatdan təəccüblənmiş və pərt olmuşdular, çünki artıq onların görə biləcəyi bir iş qalmamışdı.

Digər bir bəyanat Ermənistanın ozamankı müdafiə naziri tərəfindən verilmişdir. O, açıq şəkildə bəyan edirdi ki, Ermənistan "yeni ərazilər uğrunda yeni müharibə"yə hazırlaşır. Yəni Azərbaycanın daha çox ərazisini işğal etməklə bağlı aşkar hədələmə. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri səssiz qaldılar, bunu pisləmədilər və bunun qəbuledilməz olması ilə bağlı hətta mesaj belə vermədilər. Ermənistan rəhbərliyinin atdığı bir sıra digər addımlar və verdiyi bəyanatlar Azərbaycanı təhrik etməyə yönəlmişdi. Mən separatçıların qondarma "prezidenti"nin Şuşada keçirilən dırnaqarası "inauqurasiyası"nı qeyd edə bilərəm. Bu, azərbaycanlıların hisslərinin açıq şəkildə təhqiri idi.

Mən həmçinin separatçıların dırnaqarası "parlamenti"nin Xankəndidən Şuşaya keçirilməsi haqqında Ermənistanın qərarı barədə deyə bilərəm. Bu, azərbaycanlıların hisslərinə növbəti təhqir idi. Ermənistan rəhbərliyi başa düşməli idi ki, xalqımızın hisslərini təhqir etmək iqtidarında deyillər. Hər səbrin hüdudu var.

Sonra 2020-ci ilin iyulunda onlar sərhəddə açıq hərbi təxribata əl ataraq, mülki şəxslərimizi və hərbçilərimizi qətlə yetirdilər. 2020-ci ilin avqustunda diversiya qrupu göndərdilər ki, terror aktı törətsinlər. O qrup zərərsizləşdirildi. Son olaraq sentyabrda onlar Azərbaycanın dinc kəndlərini atəşə tutmağa başladılar.

Vətən müharibəsi adlandırdığımız İkinci Qarabağ müharibəsi 44 gün çəkdi və Ermənistan ordusunun tam məğlubiyyəti ilə bitdi. Ermənistan bizim şərtlərimizi qəbul etməyə məcbur edildi. Müharibənin ilk günlərində deyirdim ki, Ermənistanın baş naziri mənə işğal olunmuş ərazilərdən çıxmaq tarixlərini verəndən sonra biz dayanmağa hazırıq.

Ermənistan rəhbərliyinə təxminən 7000 qurban və 44 gün lazım gəldi ki, özünün tam acınacaqlı vəziyyətdə olduğunu başa düşsün. Noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə bitdi. Biz öz sözümüzü yerinə yetirdik. İşğal olunmuş qalan ərazilərdən çıxmaq cədvəli verildikdə müharibə dayandı. Dörd gün sonra Azərbaycan xalqı tarixi Qələbəmizin birinci ildönümünü qeyd edəcək.

Azad edilmiş ərazilərdə biz nəyi gördük? Tam dağıntılar baş verib, bir dənə olsun bina salamat qalmayıb. İşğal illəri ərzində onlar bütün tarixi abidələri, 67 məsciddən 65-ni dağıdıblar. Evləri, həyətləri, ictimai binaları və sair tikililəri yerləyeksan ediblər. Bu, barbarlığın sübutudur.

Hazırda biz azad edilmiş əraziləri fəal şəkildə bərpa edirik. Genişmiqyaslı bərpa proqramına başlanılıb. Əminəm ki, qısa müddət ərzində biz Ermənistanın işğalından əziyyət çəkmiş məcburi köçkünləri, bir milyondan çox insanı həmin yerlərə qaytara biləcəyik. Müharibə və onun nəticələri onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalır. Siz öz məqsədinizə sadiq olmalısınız, yaxşı hazırlaşmalısınız, beynəlxalq hüquq çərçivəsinə malik olmalısınız və insanların yüksək səviyyədə iradəli olmasına nail olmalısınız. Bütün həmin meyarlar, o cümlədən hərbi imkanlarımız münaqişənin həllində əsas amil oldu. Hazırda münaqişə bitib və qeyd etdiyim kimi, yenidənqurma başlayıb. İndi biz postmünaqişə vəziyyətindəyik və biz Ermənistana bir sıra təkliflər etmişik ki, sülh müqaviləsi üzərində işləməyə başlayaq, çünki biz müharibə deyil, sülh, gələcək haqqında danışmaq istəyirik.

Əfsuslar olsun ki, bu təklifə hələ də cavab verilməyib. Eyni zamanda biz hər iki ölkənin ərazi bütövlüyünü tanımaqla, dövlət sərhədlərimizin delimitasiyası və demarkasiyası üzərində işə başlamağı təklif etdik. Bu həmçinin beynəlxalq hüquq normalarına və normal davranışa uyğundur. Bu təklifə də hələ baxılmayıb.

Təxminən 30 illik işğalın əziyyətlərinə, azad edilmiş ərazilərdə vandalizm və barbarlığa baxmayaraq, Azərbaycan maksimal konstruktivlik nümayiş etdirir. Biz gələcəyə nəzər salmalıyıq. Biz regionun təhlükəsiz, proqnozlaşdırılan və genişmiqyaslı əməkdaşlığa hazır olmasını təmin etməliyik. Bu barədə müxtəlif təkliflər var. Ola bilsin, siz onlar haqqında eşitmisiniz. Hesab edirəm ki, hər şey Ermənistanın mövqeyindən asılı olacaq, çünki bizim mövqeyimiz tam aydındır. Bu gün bir daha deyirəm ki, biz hazırıq sülh danışıqlarına başlamağa, sülh razılaşması üzərində çalışmağa, səhifəni çevirməyə və sərhədin delimitasiyasına hazırıq. Görəcəksiniz ki, Ermənistandan cavab gəlməyəcək. Demək olar ki, bir ildir susurlar. Hesab etmirəm ki, hazırda onlar Azərbaycanın konstruktiv təklifinə qarşı çıxmaq mövqeyində deyillər. Əgər, onlar əvvəlki danışıqlar illərində bizi dinləsəydilər, özlərini normal insan kimi aparsaydılar, bugünkü vəziyyətə düşməzdilər.

Vaxtınızı çox almayaraq, digər sonuncu məsələni də qeyd etmək istərdim, çünki o, ötən ilin kölgəsində qalan məsələ oldu. Lakin o, tək bizim üçün deyil, bütün region üçün əhəmiyyətlidir. Bu, "Cənub qaz dəhlizi"nin tikintisinin başa çatdırılmasıdır. 2020-ci il dekabrın 31-də həmin layihənin sonuncu hissəsi - Trans-Adriatik boru kəməri istismara verilmişdir. Bu, Azərbaycan, qonşularımız və Avropa üçün, həqiqətən, tarixi nailiyyətdir, çünki o, Avropanın enerji təhlükəsizliyinin mühüm meyarıdır. O, şaxələndirmənin mühüm alətidir. "Cənub qaz dəhlizi"nə gəldikdə isə, söhbət nəinki marşrutların, o cümlədən mənbələrin şaxələndirilməsindən gedir. Azərbaycanın böyük qaz ehtiyatlarına söykənən təbii qazın yeni mənbəyi artıq Avropa bazarındadır. Bu il yanvarın 1-dən etibarən oktyabrın 31-dək, yəni on ay ərzində Azərbaycan bu marşrutla 14 milyard kubmetrdən çox təbii qazı beş ölkəyə ixrac edib - Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan və Bolqarıstan. Bu həcmin təxminən yarısı Avropa İttifaqının istehlakçıları tərəfindən istifadə edilmişdir. Azərbaycan qazı ilə təchiz edilən ölkələrdə nə qaz böhranı, nə qiymət böhranı və nə də soyuqdan donma var. Bu, göstərir ki, "Cənub qaz dəhlizi" Avropa üçün əsl enerji təhlükəsizliyi layihəsidir. Azərbaycan məsuliyyətli ölkə, hasilatçı və ixracatçı kimi, - hazırda tək nefti deyil, qazı da ixrac edirik, - gələcəkdə enerji təhlükəsizliyi məsələlərində çox mühüm rol oynayacaq.

Bununla mən çıxışımı bitirmək istəyirəm və çox vaxt almamaq məqsədilə sizə bizimlə olduğunuza görə bir daha təşəkkürümü bildirirəm və foruma uğurlar arzulayıram.

Sağ olun.

# məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan birinə çevrilib














Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri **Şefik CAFEROVİÇ** forumda iştirak etməkdən məmnun olduğunu bildirərək dedi: Cənab Prezident Əliyev, Sizə, Azərbaycan xalqına öz minnətdarlığımı bildirirəm. Bir daha Sizi ötən il Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı Bəyanatın imzalanması münasibətilə təbrik edirəm. Hesab edirəm ki, bu, Azərbaycanın həmin ərazilərinin reinteqrasiyasında böyük rol oynayan bəyanat olacaq.

Şefik Caferoviç diqqəti 5 milyon insanın ölümünə səbəb olan COVID-19 pandemiyasına çəkdi, bu vəziyyətin dünyanın gələcəyi ilə bağlı qarşıda yeni vəzifələr qoyduğunu qeyd etdi. "Vəziyyət heç vaxt əvvəlki kimi olmayacaq, artıq dünya dəyişdi", - deyən Şefik Caferoviç vurğuladı ki, COVID-19 hamıdan ümumi səylərin göstərilməsini tələb edir. Çünki bu böhran təkbaşına aradan qaldırıla bilməz.

Latviya Prezidenti Eglis Levits videomüraciətində bildirdi ki, dünyanın hazırkı vəziyyəti dəqiq nizam-intizam və qlobal səfərbərlik tələb edir. Latviya Prezidenti bu istiqamətdə Azərbaycanın təşəbbüslərini yüksək qiymətləndirərək dedi: Bu baxımdan mən koronavirusa cavab olaraq 2020-ci ilin dekabrında BMT-nin Baş Assambleyasında xüsusi sessiya təşəbbüsü ilə çıxış etmiş Azərbaycanı alqışlamaq istərdim. Bu tədbir pandemiyaya qarşı qlobal səylərin səfərbər olunması məqsədilə BMT platformasının idarə olunmasına çox gözəl nümunə oldu. Ötən il Latviyanın COVID-19 şəraitində yalan məlumata qarşı mübarizə ilə bağlı BMT daxilində irəli sürdüyü regionlararası bəyanata verdiyi dəstəyə görə Azərbaycana bir daha təşəkkür etmək istəyirəm.

Prezident Eglis Levits Qlobal Bakı Forumunu dünyanı narahat edən vacib məsələlərin həll variantlarını bölüşmək üçün mühüm platforma adlandırdı.

Tədbir iştirakçılarını salamlayan Böyük Britaniyanın Azərbaycandakı səfiri **Filip BARKLEY** Böyük Britaniya hökuməti və öz adından Qlobal Bakı Forumuna uğurlar arzuladı.

Səfir Böyük Britaniyanın Baş naziri Boris Consonun foruma ünvanladığı müraciətin mətnini oxudu:

"Hörmətli Prezident İlham Əliyev.

Sizə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin builki Qlobal Bakı Forumunun bütün iştirakçılarına ən xoş arzularımı çatdırmaqdan məmnunam. Ümid edirəm ki, builki tədbir əvvəlkilər qədər uğurlu olacaq.

Gələn il Birləşmiş Krallıq ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd ediləcək. Son 30 il ərzində əlaqələrimiz inkişaf edib və Birləşmiş Krallıq-Azərbaycan əməkdaşlığı hazırda yüksəliş dövrünü yaşayır.

Biz Sizin ən böyük investorunuz olaraq qalırıq, lakin bizim əlaqələrimiz bundan da uzağa gedir.

Birləşmiş Krallıq Azərbaycanın beynəlxalq məsələlərdə artan rolunu, həmçinin kimyəvi silahların istifadə olunmasına qarşı mübarizədə və narkotik vasitələr qaçaqmalçılığının qarşısının alınmasında dəstəyini, Qoşulmama Hərəkatında sədrliyini və son təxliyələr zamanı Kabil Hava Limanının təhlükəsizliyinin təmin olunmasında Azərbaycan hərbçilərinin göstərdiyi köməyi alqışlayır.

Birlikdə üzləşdiyimiz ən böyük beynəlxalq çağırış iqlim dəyişikliyidir. Bu forum qlobal istiləşməni məhdudlaşdırmaq kimi ümumi məqsədimizə çatmaq üçün mühüm imkan yaradan COP26 ilə eyni vaxtda keçirilir. Ümid edirəm ki, COP26 davam etdiyi bir vaxtda Azərbaycan çox uğurlu nəticələr əldə etmək istiqamətində öz rolunu oynayacaq. Mən Sizin "yaşıl enerjiyə" verdiyiniz xüsusi dəyəri və Azərbaycanda bərpa olunan enerjinin rolunun artırılması planlarınızı alqışlayıram. Sizin son 27 il ərzində strateji tərəfdaşınız olan BP Azərbaycanda bu keçidi daha çox dəstəkləmək istəyir.

Birləşmiş Krallıq Qafqaz regionunda sülh və sabitliyi, eləcə də postmünaqişə problemlərinin həllini dəstəkləməyə davam edir. Mən minalar və partlamamış silah-sursatlardan həlak olanlar və yaralananlar barədə xəbərlərdən dəhşətə gəlirəm. Biz Birləşmiş Krallıqda - həm hökumət, həm də Britaniya şirkətləri olaraq - bu problemlərin həlli üçün Azərbaycanın milli minatəmizləmə proqramına və BMT İnkişaf Proqramının minatəmizləmə fəaliyyətinə dəstək göstərməklə mina riskləri barədə məlumatlandırmaya və dünya səviyyəli təcrübəmizi təklif edərək töhfə veririk.

Birləşmiş Krallıq bütün region dövlətlərini, ilk növbədə, Piyada Əleyhinə Mina Qadağası Konvensiyası olmaqla, müvafiq sazişlər imzalamaq istiqamətində də addımlar atmağa çağırır.

Mən həmçinin bütün ölkələri Qadınlar, sülh və təhlükəsizlik üzrə Milli Fəaliyyət Planının qəbul olunması ilə qadınların sülh quruculuğunda xüsusi rolunun formalaşdırılmasını təşviq edirəm. Fürsətdən istifadə edərək Azərbaycan cəmiyyətində xüsusi rol oynayan qadınlara, "British Council" Məzunları Mükafatının qaliblərinə, Azərbaycanda qadınların rolunu dəstəkləyən və ölkələrimizin, bütün vətəndaşlarımızın mənafeyi üçün səmərəli şəkildə birgə işləməsinə təkan verən Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri Vendi Mortonun fəaliyyətinə hörmətimi bildirirəm.

Birləşmiş Krallıq Azərbaycanın etibarlı tərəfdaşıdır və bu belə də qalacaq. Gələcək illərdə tərəfdaşlığımızın davamlı inkişafına ümid edirəm".




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından çıxış edən Türkiyənin sabiq Baş naziri **Binəli YILDIRIM** da forumun əhəmiyyətini vurğulayaraq dedi: Bakı Forumunun mövzusunun "COVID-19-dan sonrakı dünya" olaraq müəyyənləşdirilməsini də vaxtında və tam yerində olan düşüncə olaraq görürəm. Forumun həmsədrlərini və bütün heyətini bu gözəl mövzuda toplantı təşkil etdikləri üçün təbrik edirəm.

Binəli Yıldırım çıxışında pandemiya dövründə Türkiyədə həyata keçirilən qabaqlayıcı tədbirlərdən danışdı, səhiyyə sektorunda görülən işlərə diqqət çəkdi. O, regionumuzda sabitliyin bərqərar olmasının vacibliyini vurğuladı və Vətən müharibəsində qazanılan Qələbənin əhəmiyyətinə toxunaraq dedi: Azərbaycan illərdir səbirlə Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Minsk qrupu tərəfindən həll yolu gözləyərkən bir nəticə əldə etmədikdə öz torpaqlarında öz qərarını verdi və haqlı mübarizəsini 44 günün içərisində Zəfərlə başa çatdırdı. Bu günlərdə o Zəfərin birinci ildönümüdür. Təbii ki, şəhidlər oldu, onlara Allahdan rəhmət diləyirəm. Həyatını itirən insanlar oldu, acılar yaşandı. Amma nəticədə bir haqsızlıq tamamilə ortadan qalxmış oldu.

Artıq önümüzə baxmalıyıq. Bu, nədir? Qafqazda daha çox rəqabət yerinə, daha çox əməkdaşlıq. Bu məsələdə də Türkiyə olaraq bizim təklifimiz var. Türkiyə ilə Ermənistanın əlaqələri də uzun illərdən bəri yaxşı sayılmaz, dondurulmuş vəziyyətdədir. Qarabağ problemi aradan qalxdığına görə müraciətimiz budur: Ermənistan, Gürcüstan, Azərbaycan, Türkiyə, Rusiya və İran başda olmaqla, Xəzərin şərqindəki ölkələri də əlavə etməklə regional əməkdaşlığımızı daha da inkişaf etdirə bilərik. Bunun üçün fürsətlər və infrastruktur mövcuddur. Xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan boru kəməri və "Cənub qaz dəhlizi", TANAP, TAP kimi layihələr bu baxımdan hazırlanmış layihələrdir. Bunlar bir ölkəyə aid deyil, həm Qafqazın, həm Avropanın, həm də Orta Asiyanın birlikdə istifadə edəcəyi layihələrdir. Bu baxımdan məqsədimiz başlanğıcda bölgəmizdəki ölkələrin insanlarının rifahını daha da yüksəltmək, dostluqları artırıb, düşmənçilikləri azaltmaq olmalıdır.

Sonra Roma **Papası FRANSİSKİN** xüsusi müraciəti tədbir iştirakçılarına çatdırıldı. VIII Qlobal Bakı Forumunun iştirakçılarına xeyir-duasını yetirən Fransisk Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə təsadüf edən bu mühüm tədbiri beynəlxalq birlik rəmzi kimi dəyərləndirib. COVID 19-un forumun gündəliyinin əsas mövzularından biri olmasının əhəmiyyətini xüsusi vurğulayan Roma Papası tədbir iştirakçılarına uğurlar arzulayıb.

Daha sonra Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom GEBREYESUS** videobağlantı vasitəsilə çıxış edərək dedi: Hamı üçün bərabər səhiyyə imkanlarının təmin olunması ilə bağlı razılığa gəldik və mən Azərbaycan Prezidentinə öz minnətdarlığımı bildirirəm ki, Ümumdünya Səhiyyə Təşkilatına maliyyə yardımı göstərmişdir və Qoşulmama Hərəkatının sədri kimi təşəbbüslə çıxış etmişdir ki, peyvənd digər ölkələrlə bölüşdürülsün. Bizim multinaturalizm qlobal çağırışlarla mübarizənin aparılması üçün vacib bir məqamdır. Lakin çoxtərəfli səylərimizə və bərabərliyi təmin etmək üçün gördüyümüz işlərə baxmayaraq, bəzi məsələlər bizdən daha çox həmrəylik tələb edir.

Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri COVID-19-la mübarizə çərçivəsində cari ilin sonuna qədər planetin əhalisinin ən azı 40 faizinin peyvəndlənməsinin vacibliyini diqqətə çatdırdı. Bunun üçün dünya dövlətlərinin həmrəyliyinin güclənməsinin başlıca vəzifə olduğunu bildirdi. Tedros Adhanom Gebreyesus COVID-lə mübarizədə beynəlxalq səviyyədə səylərini əsirgəməyən Azərbaycana səfərini də məmnunluqla xatırlayaraq dedi: 2018-ci ildə mən məmnunluq hissi ilə Azərbaycana səfər etdim. Azərbaycan Prezidenti zati-aliləri cənab İlham Əliyev tərəfindən qəbul olundum və universal səhiyyə paketi məsələsini müzakirə etdik. Biz bu növbəti addıma hazırlaşmalıyıq. Gəlin, bu pandemiyaya bizim gələcəyimizlə bağlı vacib məsələ kimi yanaşaq. Bu, bizim iqtisadi sabitliyimizə aparan yoldur.

BMT-nin Cenevrə ofisinin baş direktoru **Tatyana VALOVAYA** planeti narahat edən məsələlərin müzakirəsinə xüsusi həssaslıqla yanaşdığına görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə minnətdarlıq etdi. O, COVID-19-un dünyadakı sosial bərabərsizliyi daha qabarıq üzə çıxardığını və bu problemin öhdəsindən uğurla gəlmək üçün beynəlxalq ictimaiyyətin səylərini gücləndirməsinin vacibliyini bildirdi. Bu istiqamətdə BMT-nin üzərinə düşən vəzifələrin öhdəsindən gəlmək üçün həyata keçirilən tədbirlərdən danışdı.

Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri Tomas Baxın tapşırığı ilə foruma qatılan Xorvatiyanın sabiq Prezidenti **Kolinda Qrabar-KİTAROVİÇ** çıxış edərək dedi: Zati-aliləri Prezident Əliyev, səmimi qonaqpərvərliyə görə və bizə ünvanladığınız xoş sözlərə görə təşəkkür edirəm. Mən həmçinin Sizi təbrik edirəm. Sizin regionunuzda sülh bərqərar olunub.

Pandemiyanın beynəlxalq olimpiya hərəkatına da təsir göstərdiyini deyən Kolinda Qrabar-Kitaroviç vurğuladı ki, cəmiyyətlərin böhranlara qarşı daha müqavimətli olması üçün beynəlxalq əməkdaşlıq vacibdir və həmrəylik heç vaxt arxa plana keçməməli, səhiyyə və peyvəndlər siyasiləşdirilməməlidir. "Beynəlxalq Olimpiya Komitəsi hesab edir ki, COVID-19-a qarşı peyvəndlər bütün ölkələr arasında bərabər paylanmalıdır", - deyə xanım Kitaroviç qeyd etdi.

Beynəlxalq Valyuta Fondunun direktoru **Kristalina GEORGİYEVA** videomüraciətində bildirdi ki, pandemiya ilə əlaqədar dünya iqtisadiyyatı böyük böhranla üzləşib. 2021-ci ildə iqtisadiyyatların bərpası ilə bağlı müəyyən işlər görülsə də, hələ qarşıda həllini gözləyən vəzifələr var. Dünya əhalisinin 40 faizinin peyvənd olunmasının bu prosesə töhfə verəcəyinə əminliyini bildirən Kristalina Georgiyeva bununla bağlı birgə səylərin göstərilməsinin əhəmiyyətinə toxundu, bunun gələcək iqtisadi şoklara qarşı müqavimətin yaradılması baxımından vacib olduğunu diqqətə çatdırdı. Bununla yanaşı, o, iqlim dəyişikliyi prosesindən danışaraq daha təhlükəsiz dünyanın qurulması yolunda vacib addımların atılmasının zəruri olduğunu vurğuladı.

BMT-nin qlobal təhsil üzrə xüsusi elçisi, Ümumdünya Səhiyyə Təşkilatının Qlobal sağlamlığın maliyyələşdirilməsi üzrə səfiri **Qordon BRAUN** da videomüraciətində COVID-19-a, həmçinin iqlim dəyişikliyinə qarşı birgə mübarizənin əhəmiyyətindən danışdı. "Pandemiya səhvlərdən nəticə çıxarmaq üçün mühüm hadisədir", - deyən Qordon Braun ÜST-ün dünya əhalisinin ən azı 40 faizinin peyvənd olunması ilə bağlı təşəbbüsünün bütün ölkələr və ictimai təşkilatlar tərəfindən dəstəklənməsinin, peyvəndlərin bərabər paylanmasının vacibliyini diqqətə çatdırdı.

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **Vayra Vike-FREYBERQA** COVID-19-dan sonra dünyanın dəyişəcəyini, bu baxımdan Bakı Forumunun budəfəki mövzusunun gələcəyi müzakirə etmək baxımından əhəmiyyətli olduğunu bildirdi. O, Azərbaycan Prezidentinə Qlobal Bakı Forumuna davamlı dəstəyinə görə minnətdarlıq etdi.

Vayra Vike-Freyberqa vurğuladı ki, dünyanın problemi təkcə COVID-19 deyil, qlobal iqlim dəyişikliyi də bu sırada az narahatlıq doğurmur. Amma bütün mövcud olan problemlərin qarşısının alınması birgə müzakirələrdən, birgə səylərdən keçir.

Həmsədr **Vayra Vike-FREYBERQA** dedi: Çalışırıq həll variantlarını tapaq. Cənab Prezident, biz, sadəcə, bir məsələdə əmin ola bilərik ki, Siz bizə burada, Bakıda çox möhtəşəm, gözəl məkan verdiniz. Tədbirimizin keçirilməsi üçün bu məkanı ayırdınız. Bu, beynəlxalq səylərin rəmzinə çevrildi. İdarə Heyətimiz adından Sizə ən səmimi təşəkkürümüzü çatdırırıq. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Sizə təşəkkür edir. Bu foruma, müzakirələrin keçirilməsinə dəstək verdiyinizə görə minnətdarlığımızı bildiririk. Biz həmçinin Sizin qərarınızı alqışlayırıq ki, ciddi problemlərin olmasına baxmayaraq, Siz bu ili "Nizami Gəncəvi ili" elan etmisiniz. Siz bu ili dahi şairinizə ithaf etdiniz. Biz bilirik ki, o, böyük mütəfəkkir, şair idi. O da öz dövründə dünyaya töhfə verirdi.

Sonra 2021-ci il üçün "Nizami Gəncəvi beynəlxalq mükafatı"nın təqdimatı oldu.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin bu il bu mükafata Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesusun və BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovayanın layiq görüldüyünü bildirdi.

Tedros Adhanom Gebreyesus bu mükafatı qəbul etməkdən şərəf hissi duyduğunu, bu mükafatı COVID-19-a qarşı ön sırada mübarizə aparan insanlara həsr etdiyini bildirərək dedi: Cənab Prezident, bu mükafatı, əslində, həmçinin Azərbaycanın dahi şairi Nizami Gəncəvinin tolerantlıq, müxtəliflik və insansevərlik hisslərinin ifadə olunduğu fikirlərinə bağlılıq kimi qəbul edirəm. Təbii, hər zaman müraciət edirəm ki, Siz Ümumdünya Səhiyyə Təşkilatının məramını dəstəkləyəsiniz.

Tatyana Valovaya da mükafata görə təşəkkürünü bildirərək dedi: Bu mühüm medalı qəbul etmək mənim üçün böyük şərəfdir. Dahi şair Nizami Gəncəvi uzaqgörənliyi ilə seçilən bir şəxs olub. Onun dəyərli fikirləri artıq çoxdan öz ana vətənindən kənara çıxıb. O, dünya mədəni irsinin bir hissəsidir. Nizami Gəncəvinin "Xəmsə"sində yazdığı fikirlər BMT-nin də ideyalarına uyğundur.

Sonra VIII Qlobal Bakı Forumu öz işini müxtəlif mövzularda müzakirələrlə davam etdirdi.

* * *

Qeyd edək ki, sayca 8-ci olan və noyabrın 6-dək davam edəcək Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirlər. Hibrid formatda təşkil edilən tədbirə 300-ə yaxın qonaq canlı və onlayn qaydada qoşulub.

# Prezident İlham Əliyev Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenkonu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenkonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə "COVID-19-dan sonrakı dünya" adı altında VIII Qlobal Bakı Forumunun yüksək səviyyədə keçirilməsinin önəmi vurğulandı. Pandemiyaya baxmayaraq, Bakıda yenidən təşkil olunan bu tədbirdə xeyli sayda nüfuzlu qonaqların iştirak etməsi foruma və ölkəmizə olan marağın təzahürü kimi qiymətləndirildi.

Söhbət zamanı tədbir iştirakçıları arasında səmərəli əməkdaşlığın həyata keçirilməsi də məmnunluqla qeyd edildi.

# Prezident İlham Əliyev İsrailin sabiq xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İsrailin sabiq xarici işlər naziri Tzipi Livnini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumunun önəminə toxunuldu, Prezident İlham Əliyevin forumun açılış mərasimindəki çıxışının böyük maraqla qarşılandığı bildirildi. Vurğulandı ki, tədbirdə çox sayda mötəbər qonağın iştirak etməsi Qlobal Bakı Forumunun əhəmiyyətini bir daha nümayiş etdirir.

Söhbət zamanı bu forumun pandemiyadan sonrakı dövrdə beynəlxalq birliyin üzləşdiyi məsələlərin müzakirə edildiyi ilk tədbirlərdən biri olduğu məmnunluqla qeyd edildi.

## K.S.İmanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Kamran Sultan oğlu İmanov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2021-ci il*

## M.M.Ələkbərova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında yol-nəqliyyat infrastrukturunun inkişafında uzunmüddətli və səmərəli xidmətlərinə görə Mair Manaf oğlu Ələkbərova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2021-ci il*

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 51; 2014, № 5, maddə 477; 2016, № 5, maddə 861; 2018, № 12 (I kitab), maddə 2611; 2019, № 7, maddə 1245; 2020, № 1, maddə 17, № 5, maddə 565; 2021, № 6 (I kitab), maddə 591; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 iyul tarixli 797 nömrəli Fərmanı) 2.9-cu bəndindən "17.3-cü," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2021-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Kamboca Xalq Partiyası adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda Azərbaycan xalqını 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə Yeni Azərbaycan Partiyası və Azərbaycan davamlı şəkildə inkişaf edəcək, qarşıdakı illərdə qonşu ölkələrlə dayanıqlı sülh əsasında yaxşı əməkdaşlıq əlaqələrinə malik olacaq.

Mən Yeni Azərbaycan Partiyası ilə Kamboca Xalq Partiyası arasında xüsusilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) və Mərkəzçi Demokrat İnternasionalı (CDI) çərçivəsində uzunmüddətli əlaqələrdən, eləcə də ölkələrimizin hökumətlərinin son zamanlar davamlı olaraq inkişaf edən yaxın əməkdaşlığından məmnunam.

İnanıram ki, qarşılıqlı səylərimiz sayəsində partiyalarımız və ölkələrimiz arasındakı dostluq, faydalı əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı, habelə regionumuzda və onun hüdudlarından kənarda sülh və tərəqqi naminə bundan sonra da möhkəmlənəcək və dərinləşəcəkdir.

Zati-aliləri, xahiş edirəm, Sizə olan ən yüksək ehtiramımı, möhkəm cansağlığı və nəcib işlərinizdə böyük uğurlar arzularımı qəbul edin.

*Hörmətlə,*

***Hun SEN,***
***Kamboca Xalq Partiyasının sədri,***
***Kamboca Krallığının Baş naziri***

# 37 məktəb və liseyə Milli Qəhrəman və Vətən müharibəsi qəhrəmanlarının adı verilib

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq, Baş nazir Əli Əsədov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının adlarının əbədiləşdirilməsi barədə müvafiq Qərar imzalayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qərara əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının və Azərbaycanın Milli qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə respublikanın müxtəlif şəhər və rayonlarındakı 37 məktəb və liseyə Azərbaycan Respublikasının Milli Qəhrəmanı və Vətən müharibəsi qəhrəmanlarının adları verilib.

Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanlarına bu Qərardan irəli gələn məsələlərin həll edilməsinə dair tapşırıq verilib.

**Siyahı**

1. Sumqayıt şəhəri 28 nömrəli tam orta məktəbə Azərbaycanın Milli Qəhrəmanı Polad İsrayıl oğlu Həşimovun adı verilsin.
2. Bakı şəhəri 98 nömrəli tam orta məktəbə Azərbaycanın Milli Qəhrəmanı İlqar Anzor oğlu Mirzəyevin adı verilsin.
3. Qubadlı rayonu Xanlıq kənd 3 nömrəli tam orta məktəbə (müvəqqəti olaraq Abşeron rayonunda yerləşir) Azərbaycanın Milli Qəhrəmanı Şükür Nəriman oğlu Həmidovun adı verilsin.
4. Bakı şəhəri 47 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Zaur İsmayıl oğlu Nudirəliyevin adı verilsin.
5. Qəbələ şəhəri 3 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Əfqan Ağasəf oğlu Abdurahmanovun adı verilsin.
6. Masallı şəhəri 6 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Ramiz Sübhan oğlu Cəfərovun adı verilsin.
7. Biləsuvar şəhəri Uşaq İncəsənət Məktəbinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Orxan Nadir oğlu Əkbərovun adı verilsin.
8. Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbə (müvəqqəti olaraq Gəncə şəhəri, Gülüstan qəsəbəsində yerləşir) Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Anar Vaqif oğlu Əliyevin adı verilsin.
9. Qubadlı rayonu Mahmudlu kənd tam orta məktəbinə (müvəqqəti olaraq Sumqayıt şəhərində yerləşir) Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Faiq Qaçay oğlu Qasımovun adı verilsin.
10. Bakı şəhəri 216 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Ramiz Vaqif oğlu Qasımovun adı verilsin.
11. Qubadlı rayonu Xanlıq kənd ümumi orta məktəbinə (müvəqqəti olaraq Bakı şəhəri, Ramana qəsəbəsində yerləşir) Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Vüqar Əhməd oğlu Ağayevin adı verilsin.
12. Beyləqan şəhəri Təbiət və Humanitar Fənlər Təmayüllü Liseyə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Elbrus Eyvaz oğlu Bayramovun adı verilsin.
13. Lerik şəhəri 2 saylı Körpələr evi-uşaq bağçasına Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Amid Rəbbil oğlu Heydərovun adı verilsin.
14. Zaqatala şəhəri Humanitar Fənlər Gimnaziyasına Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Şixamir Oruc oğlu Qaflanovun adı verilsin.
15. Bakı şəhəri 88 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Elçin Elşən oğlu Mansurovun adı verilsin.
16. Sumqayıt şəhəri 25 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Anar Mehman oğlu Şükürovun adı verilsin.
17. Cəlilabad şəhəri 2 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Rəşad Arif oğlu Abdullayevin adı verilsin.
18. Biləsuvar rayonu Xırmandalı kənd Uşaq İncəsənət Məktəbinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Nihad Akif oğlu Babayevin adı verilsin.
19. Bakı şəhəri 48 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Aydın oğlu Həsənovun adı verilsin.
20. Biləsuvar rayonu Uşaq-Gənclər İdman-Şahmat məktəbinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Cavid Hilal oğlu Mahmudovun adı verilsin.
21. Abşeron rayonu Xırdalan şəhəri 5 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Veysəl Yadullayeviç Musibovun adı verilsin.
22. Zəngilan rayonu 1 nömrəli tam orta məktəbə (müvəqqəti olaraq Bakı şəhəri, Binəqədi rayonunda yerləşir) Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Surxay Əbdül oğlu Noçuyevin adı verilsin.
23. Zaqatala şəhəri 5 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı İsmayıl Məhəmməd oğlu Səmədovun adı verilsin.
24. Zaqatala rayonu Aşağı Tala kənd 1 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Valeh Vahid oğlu Bədəlovun adı verilsin.
25. Bakı şəhəri 291 nömrəli Ekologiya liseyinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Azad Arif oğlu Hümbətovun adı verilsin.
26. Sumqayıt şəhəri 14 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Adil Asəm oğlu İbrahimlinin adı verilsin.
27. Quba rayonu İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Şahin Hüseynbala oğlu Allahyarovun adı verilsin.
28. Salyan Peşə Liseyinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Sübhan Rahim oğlu Cəbrayılovun adı verilsin.
29. Neftçala şəhər Uşaq İncəsənət Məktəbinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Camal Vidadi oğlu İsmayılovun adı verilsin.
30. Quba şəhəri Texniki Təmayüllü Liseyə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Mehrab Söhrab oğlu Niftəliyevin adı verilsin.
31. Ağstafa rayonu Böyük Kəsik kənd tam orta məktəbinə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Azər Nazim oğlu Yusiflinin adı verilsin.
32. Masallı şəhəri 3 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı İntiqam Bayram oğlu Əsgərlinin adı verilsin.
33. Qobustan şəhəri 2 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Elyar Arif oğlu Vəliyevin adı verilsin.
34. Tovuz rayonu Qovlar şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyaya Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Orxan Rövşən oğlu Cabbarovun adı verilsin.
35. Oğuz şəhəri 3 nömrəli Məktəb-Liseyə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Nail Nəriman oğlu İbrahimlinin adı verilsin.
36. Balakən şəhəri Humanitar və Texniki Təmayüllü Liseyə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Amin Tacəddin oğlu Novruzovun adı verilsin.
37. Füzuli rayonu Horadiz şəhəri 3 nömrəli tam orta məktəbə Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı Fəqan Amil oğlu Zalovun adı verilsin.

# Milli Məclisin Sədri Sahibə Qafarova TBMM-in qadın deputatları ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 4-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin qadın deputatları - TBMM-in Qadınlara qarşı zorakılıqla mübarizədə araşdırma və monitorinq komissiyasının sədri Öznur Çalık və komissiya sədrinin müavini Tuba Vural Çokal ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin Sədri Türkiyə Böyük Millət Məclisinin üzvlərini salamlayaraq bildirib ki, Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin kökü xalqlarımız arasında mövcud olan əsl qardaşlıq ruhuna söykənir. Dünya Azərbaycanın 44 günlük Vətən müharibəsində bir daha bu qardaşlığın şahidi oldu. Bu gün Azərbaycan ilə Türkiyə arasında əlaqələr özünün ən yüksək zirvəsinə çatıb.

Sahibə Qafarova bildirib ki, iki qardaş ölkə "Bir millət, iki dövlət" olaraq çox sıx münasibətlər qurub. Dövlət başçılarımız cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri dövlətlərimiz arasındakı birliyin yüksək səviyyəyə çatmasında mühüm rol oynayır.

Parlamentin Sədri deyib ki, Azərbaycan Milli Məclisi və Türkiyə Böyük Millət Məclisi xalqlarımız arasında münasibətlərin ruhuna uyğun olaraq, əlaqələrimizi uğurla inkişaf etdirirlər. Bu əlaqələr parlamentlər arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqda özünü göstərir. Parlamentlərimizdə qarşılıqlı fəaliyyət göstərən böyük dostluq qrupları vardır və onların fəaliyyəti təqdirəlayiqdir.

Sahibə Qafarova qeyd edib ki, parlamentlərimiz arasında qarşılıqlı səfərlərin və görüşlərin artırılması olduqca mühümdür. Çünki bu təmasların intensivləşməsi ölkələr arasında əlaqələrin daha da dərinləşdirilməsinə mühüm töhfədir.

Söhbət zamanı Milli Məclisin Sədri qonaqlara Azərbaycanda həyata keçirilən qadın siyasəti, qadınların parlamentdə təmsilçiliyi, gender bərabərliyinin təmin olunması və qadın hüquqlarının qorunması istiqamətində həyata keçirilən işlər barədə məlumat verib. Diqqətə çatdırıb ki, Azərbaycan XX əsrin əvvəllərində Şərqdə qadınlara seçki hüququ verən ilk ölkədir və bu hadisə Azərbaycanda bir çox Avropa ölkələrindən əvvəl baş verib.

O bildirib ki, bu gün Azərbaycanda qadınlar dövlət idarəçiliyində və ölkə həyatının müxtəlif sahələrində aparıcı mövqelər tuturlar. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti, ölkəmizdə və ölkədən kənarda həyata keçirdiyi nəhəng işlər hər bir qadın üçün böyük nümunədir.

Görüşdə çıxış edən TBMM-in Qadınlara qarşı zorakılıqla mübarizədə araşdırma və monitorinq komissiyasının sədri Öznur Çalık bildirib ki, Türkiyə və Azərbaycan əsrlər boyu dərin tarixi dostluq və qardaşlıq kökləri ilə bağlı olan iki dövlət, tək millətdir. Biz bir-birimizin acısını öz acımız, sevincini isə öz sevincimiz hesab etmişik.

Söhbət zamanı TBMM-in deputatı Türkiyədə səhiyyə, qadın siyasəti, qadınların hüquqlarının qorunması, gender bərabərliyi, qadınların cəmiyyətdə rolu, parlamentdə təmsilçiliyi barədə danışıb, bu məsələlərlə bağlı Türkiyə dövlətinin həyata keçirdiyi siyasət barədə məlumat verib.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin komitə sədrləri Hicran Hüseynova, Qənirə Paşayeva və Milli Məclisin deputatı Məlahət İbrahimqızı da iştirak ediblər.

# Azərbaycan və Türkiyə arasında münasibətlər bu gün ən yüksək səviyyədədir

Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 4-də VIII Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan BMT Baş Assambleyasının sabiq prezidenti Volkan Bozkırla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qonağı salamlayan S.Qafarova bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə işə başlamış "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumunun əhəmiyyətindən danışıb. Bildirib ki, bu forum pandemiyadan sonrakı dövrdə beynəlxalq birliyin üzləşdiyi məsələlərin müzakirə edildiyi ilk tədbirlərdən biridir. Tədbirdə dünyanın 40-dan çox ölkəsindən 300-ə yaxın nüfuzlu qonağın iştirak etməsi də bu tədbirin əhəmiyyətini nümayiş etdirir.

Görüşdə Azərbaycan-Türkiyə münasibətlərinə də toxunan spiker bildirib ki, iki dost və qardaş dövlətlərimiz arasında münasibətlər bu gün ən yüksək səviyyədədir. Milli Məclisin Sədri qeyd edib ki, dövlət başçılarımızın şəxsi dostluq münasibətləri ölkələrimiz arasındakı birliyin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynayır.

S.Qafarova qonağa Ermənistanla Azərbaycan arasında mövcud olmuş və 2020-ci ilin payızında son qoyulmuş münaqişədən sonra bölgədə yaranmış yeni reallıqlar barədə də məlumat verib. Milli Məclisin Sədri qeyd edib ki, münaqişə artıq keçmişdə qalıb. Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlayıb və regionda daimi sülh və əmin-amanlığın təmin olunmasına çalışır.

Sahibə Qafarova qonağın BMT Baş Assambleyasının prezidenti olduğu dövrdə Azərbaycanın bu təşkilatla uğurlu əməkdaşlığının bu gün də davam etməsindən razılığını ifadə edib. Səmimi qəbul üçün təşəkkürünü bildirən BMT Baş Assambleyasının sabiq prezidenti Volkan Bozkır Azərbaycanın regiondakı aparıcı rolundan məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi regionda yeni reallıqlar yaradıb. Türkiyə də azərbaycanlı qardaşlarına işğaldan azad edilmiş ərazilərin bərpası, bölgənin yenidən dirçəldilməsi, rifahın yüksəlməsi, əmin-amanlığın kök salması üçün üzərinə düşən köməkliyi göstərməyə hazırdır.

Sonra görüşdə digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



**“...Biz heç nəyi unutmamışıq. Biz bunu unuda bilmərik. Biz şəhidlərimizi unuda bilmərik, Xocalı qurbanlarını unuda bilmərik, dağılmış şəhərlərimizi unuda bilmərik. Dağılmış qəbirləri, təhqir edilmiş məscidləri biz necə unuda bilərik? Biz heç vaxt unutmamalıyıq. Azərbaycan xalqı bunu öz yaddaşında daim saxlamalıdır”.**

**İlham ƏLİYEV**



**“Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi - öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq”.**

**İlham ƏLİYEV**

# ŞANLI QƏLƏBƏ

## Müstəqilliyin yeni erasının başlandığı gün

*Əvvəli 1-ci səh.*

### Şərəfə çatdıran 44 gün

**Qələbənin dəyərini məğlubiyyət acısını uzun müddət çəkənlər daha yaxşı bilər!**

**Qələbənin dəyərini onun hansı zəhmət, əziyyət, çabalar hesabına, qurbanlar bahasına qazanıldığını dərindən anlayanlar daha yaxşı bilər!**

**Qələbənin dəyərini qəhrəmanlar, şəhidlər, qazilər yetişdirənlər, onların adını, əməlini və xatirəsini daim yüksək tutanlar daha yaxşı bilər!**

- 44 gün ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı qalib və vüqarlı dövlətə çevirdi!
- 44 gün ərzində Azərbaycan əsgər və zabiti ölkənin ərazi bütövlüyünü əbədilik bərpa etdi!
- 44 gün ərzində cənab İlham Əliyev və qüdrətli Azərbaycan Ordusu azğın düşmənin başını dəmir yumruqla əzərək ordusunu məhv etdi, qorxaqlar və fərarilər yığnağına çevirdi!

Eşq olsun belə Orduya, belə əsgər və zabitlərə!

### Mükəmməl hazırlıq, dəqiq hesablamalar, yeni taktika

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu qələbəyə Azərbaycan rəhbərliyinə gəldiyi ilk gündən hazırlaşmışdı!**

**Hər il, hər ay deyil, hər gün hazırlaşmışdı!**

*Yüksək peşəkarlıqla, dəqiqliklə, məsuliyyətlə və hərtərəfli tədbirlər görməklə!*

*Yeni ordu qurmuşdu!*

*Yeni vətənpərvər gənclər nəsli yetişdirmişdi!*

*Yeni, ölkəmizin və xarici dövlətlərin hərbi məktəblərində mükəmməl təhsil alan zabitlər və hərbi mütəxəssislər heyəti formalaşdırmışdı!*

*Yeni, ən müasir silahlarla ordumuzu təchiz etmişdi!*

XXI əsrin müharibəsinin ən yeni taktika və strategiyasının tətbiqinə hazırlıq görmüşdü!

Həm də bütün bu işləri elə formada, elə bir məxfiliklə aparmışdı ki, Ermənistana yaxın dövlətlərin kəşfiyyat xidmətləri belə bundan xəbər tutmamış, yeni tipli hərbi əməliyyatların keçiriləcəyini ağıllarına belə gətirməmişdilər!

Yoxsa məsələnin hərbi müstəvidə həllinə keçilməsinə əsla yol verilməzdi!

**Cənab İlham Əliyev hər şeyi irəlicədən görməyi, incəliklə nəzərə almağı və yüksək dəqiqliklə ölçüb-biçməyi, ən düzgün və ən optimal qərarlar qəbul etməyi məharətlə bacarır!**

Eşq olsun belə Prezidentə!

### Deklorativ müstəqillikdən real müstəqilliyə

SSRİ adlı nəhəng imperiya zahirən kommunizm ideologiyasına əsaslanan dövlət olsa da, əslində zorakılıqla, silah gücünə yaradılmışdı!

Azərbaycanın Sovet Rusiyasının tərkibinə qatılması XI Qızıl ordunun real hədəsi və hücumu nəticəsində baş vermişdi.

Bu “qatılmada” əsas hədəf isə Bakı neftinə sahib çıxmaq, onun sərəncamçısı olmaq istəyi idi.

Ziyalılarımız arasında sosializm ideyasının tərəfdarları olsa da, onların heç biri birləşmənin belə nəticələnəcəyini gözləmirdi və sovetləşmənin tərəfdarlarının böyük əksəriyyəti qırmızı repressiyanın qurbanına çevrildilər, sonrakı illərdə nəsibləri həbsxana, sürgün, güllələnmə və digər zorakılıqlar oldu!

Həm də bu faciələr təkcə özlərinin yox, ailələrinin də başına gətirildi!

*Yetmiş illik SSRİ dövründə Azərbaycan bütün sərvətləri və imkanları ilə qırmızı imperiyanın xidmətində durdu!*

*Başqa yolu da yox idi!*

**Amma sonda, imperiya parçalananda ziyalılarımızın başına gətirilən müsibətlər xalqımızın və bütövlükdə müstəqil olmaq istəyən dövlətimizin də başına gətirildi.**

Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi niyyətinə xidmət edən köhnə, “tarixi münaqişə” yenidən alovlandırıldı, son günlərini yaşayan mərkəzi hakimiyyəti ənənəvi ermənipərəst mövqe nümayiş etdirərək tarixi torpaqlarımızın bizdən qoparılmasına rəvac verdi.

Bu prosesin başında isə SSRİ-nin birinci və axırıncı prezidenti, qırmızı imperiyanın dağıdılmasının müəllifi olan Sov.İKP MK-nın baş katibi M.Qorbaçov və arvadı dayanırdı.

18 oktyabr 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin sessiyasında Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı qəbul edilsə də, əslində, bu, deklorativ müstəqillik idi.

Çünki müstəqil dövlət kimi yaşamaq üçün hələ dövlət qurumları və təsisatları yaradılmalı, müstəqil daxili və xarici siyasət müəyyənləşdirilməli, iqtisadiyyat böhrandan çıxarılmalı və digər zəruri tədbirlər görülməli idi.

Qırmızı imperiyanın parçalanması və müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik edənlər isə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz olmaqla bərabər, şəxsi maraqlarını da ümumi mənafedən yüksək tuturdular.

Biri ermənilərin geri qayıtması ilə bağlı xalqdan “muştuluq” istəyir, başqası SSRİ-nin yaşaması üçün ölkə ərazisində referendum keçirir, digəri isə məsuliyyətsiz bəyanat və addımları ilə böyük problemlər yaradır, ölkəni vətəndaş müharibəsinə sürükləyirdi.

**Əgər xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtmasaydı, Azərbaycanın nəinki müstəqilliyi, hətta bir dövlət kimi mövcudluğu da sual altında idi.**

Ulu Öndər Heydər Əliyev çox qısa bir zaman kəsiyində vətəndaş müharibəsinin alovlarını söndürdü, ölkəni xaos və anarxiya bataqlığından qurtardı, əhalidəki külli miqdarda silah-sursatı yığdırdı, möhkəm və dönməz sabitlik yaratdı. Bazar iqtisadiyyatı münasibətlərinə keçmək üçün yeni Konstitusiya qəbul edilərək zəruri islahatlar aparıldı.

*Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini təmin edib onu əbədiliyə və dönməzliyə çevirsə də, artıq ərazilərimizin 20 faizi düşmən işğalında idi və 1 milyondan çox qaçqın və məcburi köçkünümüz vardı.*

Müstəqilliyin sonrakı illərində bu itki və yük daim özünü büruzə verirdi.

Ömür vəfa etmədi, Ulu Öndərimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədən əbədiyyətə qovuşdu, bu çətin və şərəfli missiyanın icrasını siyasi varisi cənab İlham Əliyevə vəsiyyət etdi.

**Xalqın və Ümummilli Liderimizin etimadını layiqincə doğruldan cənab İlham Əliyev müstəqil dövlətimizi yeni inkişaf mərhələsinə çıxardı, tarixinin ən qüdrətli Azərbaycanını yaratdı.**

Lakin ən mühüm və ən ağrılı məsələ - ərazi bütövlüyünün bərpası problemi hələ də qalırdı!

### Vahid hədəf, gərgin və çoxcəhətli fəaliyyət

**Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən qarşısına vahid hədəf qoymuşdu:**

**İqtisadi cəhətdən qüdrətli, siyasi cəhətdən nüfuzlu, ərazicə bütöv müstəqil Azərbaycan yaratmaq, onu inkişaf etdirmək və xalqın yüksək rifahına nail olmaq!**

*Belə bir hədəfə çatmaq üçün çoxsaylı məsələlər və problemlər həllini tapmalı idi!*

Üstəlik, dayanmadan çalışmaq, gərgin və çoxcəhətli fəaliyyət göstərmək, düşmənləri zərərsizləşdirərək yeni dostlar tapmaq, daxili və xarici siyasət sahəsində dəqiq hesablamalara əsaslanan qərarlar qəbul edərək addımlar atmaq tələb olunurdu!

**İlham Əliyev zəkası və xarizması uğurların əsası oldu!**

**Ölkəyə rəhbərlik etdiyi on səkkiz il ərzində cənab İlham Əliyevin gördüyü işlərin, gerçəkləşdirdiyi layihələrin siyahısı belə heyrət doğurur!**

Onları yada salmağa çalışaq:

- Prezident seçkilərinin növbəti günündə ölkədə hakimiyyət dəyişikliyinə nail olmaq, müstəqil Azərbaycanı Heydər Əliyev siyasi kursundan çıxarmaq cəhdinin qarşısı alındı;
- Bütün sahələrdə milli və dövləti maraqlara əsaslanan siyasətin dönmədən həyata keçirilməsi təmin olundu;
- Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı hazırlanaraq uğurla, əlavələrlə həyata keçirildi;
- Qeyri-neft sektorunun inkişafı üçün təsirli tədbirlər görüldü;
- Sahibkarlığın inkişafına daim dəstək verildi;
- Turizmin inkişafı yeni mərhələyə qaldırıldı;
- Azərbaycan bütün maneələri dəf edərək öz maliyyəsi hesabına Bakı-Tbilisi-Qars beynəlxalq layihəsini gerçəkləşdirdi;
- “Şərq-Qərb”, “Şimal-Cənub” nəqliyyat dəhlizləri işə salındı;
- Okeana çıxışı olmayan Azərbaycan logistika mərkəzinə çevrildi;
- Enerji təhlükəsizliyi təmin edildi;
- Nəqliyyat və qismən də ərzaq təhlükəsizliyinə nail olundu;
- Azərbaycan elektrik enerjisi idxalçısından ixracatçısına çevrildi;
- “Cənub qaz dəhlizi” nəhəng layihəsi işə salındı;
- Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçildi;
- Dövlət başçısı cənab İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclaslarına, İslam Əməkdaşlıq Təşkilatına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına, Qoşulmama Hərəkatına uğurla sədrlik edərək Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi, ölkəyə çoxsaylı dostlar qazandırdı;
- Azərbaycan həm də idman dövlətinə, beynəlxalq yarışlar məkanına çevrildi;
- Azərbaycan I Avropa Oyunlarına və IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi;
- Neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində uğurlu addımlar atıldı;
- Azərbaycanın Multikulturalizm modeli dünya tərəfindən bəyənilərək qəbul olundu;
- Azərbaycan beynəlxalq humanitar tədbirlərin, dünyanı düşündürən qlobal problemlərin müzakirə edildiyi və səmərəli təkliflərin verildiyi məkan statusu qazandı;
- Yeni ordu quraraq onu ən müasir silahlarla silahlandıran, yeni taktika və strategiya ilə XXI əsrin yeni nəsil müharibəsini aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqları işğaldan azad etdi, müharibənin hamı tərəfindən öyrənilən Azərbaycan modelini yaratdı!

### Üç cəbhənin qəhrəmanı

**Müharibə aparan ordu öz Sərkərdəsinə baxıb düzlənir!**

**Döyüşən əsgər və zabitlər Sərkərdədən nümunə götürür!**

**Ordunu qələbəyə onun düşünən beyni və vuran əli sayılan Sərkərdə çatdırır!**

Lakin indiki müharibələr XX əsrin müharibələrinə bənzəmir.

Bu gün hibrid müharibələr gedir!

Odur ki, bir neçə istiqamətdə döyüşmək lazım gəlir!

Həm də qalib gəlmək üçün bütün savaş meydanında üstün gəlməyi bacarmalısan!

II Qarabağ müharibəsində olduğu kimi!

❖ ❖ ❖

İkili standartların mövcudluğu və dünya erməniliyinin diasporları vasitəsilə bir sıra aparıcı dövlətlərin siyasətinə, dövlət başçılarına təsir imkanlarının olduğunu nəzərə almadan, hadisələri qabaqlamağı bacarmadan müvəffəqiyyətə bel bağlamaq mümkünsüzdür.

**Bütün bunları gözəl bilən Prezident İlham Əliyev Vətən müharibəsinə hazırlıq və hərbi əməliyyatların davam etdiyi dövrdə daim ayaqda oldu, müdriklik və uzaqgörənliklə çarpışdı.**

Başda ATƏT-in Minsk qrupu olmaqla bütün beynəlxalq qurum və təşkilatlar Qarabağ münaqişəsinin yalnız sülh yolu ilə həllinin mümkünlüyünü söyləyir və müharibənin əleyhinə çıxırdılar!

Faktiki olaraq nə münaqişənin sülh yolu ilə həllinə kömək göstərir, nə də Ermənistana təzyiq göstərərək onu sülh danışıqlarında real nəticələrə sövq edirdilər.

Əksinə, bütün şıltaqlıqlarına dözərək məsələnin uzadılmasına göz yumurdular!

**İlham Əliyev mahir və uzaqgörən diplomat kimi Paşinyanın səriştəsizliyindən, lovğalığından bacarıqla istifadə etdi!**

Müharibə dövründə Ermənistanı müdafiə edərək hərbi əməliyyatların dayandırılmasını, yenidən sülh danışıqlarına başlanılmasını xahiş edən dövlət başçılarının çağırışına isə Müzəffər Ali Baş Komandanımız yalnız irəli sürdüyü şərtin - erməni ordusunun ərazilərimizi tərketmə qrafiki təqdim edildikdən və üç dövlət başçısı tərəfindən üçtərəfli bəyanat imzalandıqdan sonra əməl etdi.

❖ ❖ ❖

Antiazərbaycançı şəbəkə tərəfindən ölkəmizə qarşı dayanmadan aparılan informasiya mübarizəsi hərbi əməliyyatlar başlayan gündən müharibəyə çevrildi!

Bu müharibənin önündə erməni diasporlarının güclü olduğu ölkələrin KİV-i gedirdi.

Hamısı da Azərbaycanı müharibə tərəfdarı, danışıqları pozan, hərbi əməliyyatları dayandırmaq istəməyən, öz ordusunda muzdlulardan istifadə edən tərəf kimi təqdim edirdi.

**Müharibə dövründə cənab İlham Əliyev otuzdan çox dünya KİV-inə, məşhur telekanallara, informasiya agentliklərinə və tanınmış qəzetlərə müsahibələr verdi!**

*Qərəzli, məkrli, bəzən hikkəli sualları səbirlə cavablandırdı, feyk xəbərləri ifşa etdi, əsl həqiqətləri söylədi, müharibənin başlanma səbəbləri, Ermənistanın təhrikçi hərəkətləri barədə dünya ictimaiyyətini məlumatlandırdı, ən nəhayət, cızığından çıxan, jurnalistin etik davranış qaydalarını pozan jurnalistləri yerində oturdaraq qeyri-obyektiv mövqelərinə görə şiddətlə qınadı.*

Beləliklə, dünya KİV-ini də döyüş meydanına çevirərək bu cəbhədə də qəhrəmanlıq və şücaət göstərməklə qalib gəldi.

❖ ❖ ❖

Döyüş əməliyyatları meydanının bütün ağırlıqları cənab İlham Əliyevin üzərində idi.

**Ali Baş Komandan kimi əməliyyat planlarını təsdiq edir, gündəlik tapşırıqları müəyyənləşdirir, ən məsuliyyətli və gərgin anlarda son söz sahibi olaraq qərarlar verirdi!**

*Müharibənin ilk günlərindən sonuna kimi Azərbaycan Ordusu düşməni darmadağın edərək irəli getdi, bircə gün də olsa, nə ləngimə, nə də geriyə çəkilmə halı olmadı!*

**Orduya yüksək bacarıq və peşəkarlıqla rəhbərlik edən cənab İlham Əliyev dəmir yumruğu ilə düşmənin belini sındıraraq başını əzdi!**

44 gün ərzində erməni ordusu məhv edilərək ərazilərin böyük hissəsi azad edildi, Ağdam, Laçın və Kəlbəcər rayonları isə bir güllə belə atılmadan təslim sənədinə qol çəkən düşmən tərəfindən geri qaytarıldı!

❖ ❖ ❖

**İlham Əliyev müharibələr tarixində yeni səhifə açaraq yeni müharibə nümunəsi nümayiş etdirdi!**

Elə bir nümunə ki, bu gün də başda NATO olmaqla dünyanın ən güclü ordularına sahib dövlətlər həmin nümunədən öyrənərək öz ordularında islahatlar aparırlar!

*Azərbaycan hərb tarixinin ən şərəfli səhifəsini yazan Müzəffər Ali Baş Komandan İlham Əliyev beş əsr ərzində itirilmiş torpaqları qaytaran ən qüdrətli Sərkərdə statusunu qazandı.*

*İlham Əliyev həm də ikiəsrlik Qarabağ münaqişəsinə uğurla son qoyan, ərazi bütövlüyünü birdəfəlik bərpa edən görkəmli dövlət başçısıdır!*

**Zəfər müharibəsindəki qələbə həm də müstəqilliyimizin yeni erasının başlandığı gün sayılır.**

**Artıq Azərbaycanın dövlət müstəqilliyi onun bütün ərazisinə şamil edilir!**

İşğaldan azad edilən ərazilərin iqtisadi potensialından quldur Ermənistan və onun çapqınçı ortaqları yox, Azərbaycan xalqı istifadə edəcəkdir!

*Prezident İlham Əliyevin layihələri əsasında yenidən dirçəldilən Qarabağ az müddətdə cənnətə, dünya turizminin mərkəzlərindən birinə çevriləcək, geri dönən məcburi köçkünlər əvvəlkindən daha firavan və xoşbəxt yaşayacaqlar!*

Bütövləşmiş müstəqil Azərbaycan isə daha qüdrətli və daha nüfuzlu olacaqdır!

### Torpaqlar da alındı, qisasımız da

Ermənilər işğalın ilk günlərindən torpaqlarımızdan rədd olub gedəcəklərini gözəl bilirdilər!

Həm də nəinki bilirdilər, həmin günə öz xislətlərinə məxsus tərzdə hazırlaşırdılar:

- Bütün evləri və binaları söküb dağıdır, ələ keçən inşaat materiallarını “müştərisinə” satırdılar;
- Özlərindən sonra insanların normal yaşaya bilməyəcəkləri xarabalıqlar yaradırdılar;
- Hər tərəfdə mina tələləri qururdular ki, torpağın əsl sahibləri geri dönəndə daha çox tələfat versinlər.

Biabırçı məğlubiyyətlərinin əvəzini sanki qabaqcadan çıxmağa çalışırdılar!

**Erməni həm də bununla son sözünü də söyləyirdi:**

- Bilirdi ki, Azərbaycan xalqı dağıdılmış yaşayış məntəqələrinin qisasını onlarda qoymayacaq!
- Bilirdi ki, Azərbaycan xalqı təhqir edilmiş, qaramal, donuz saxlanılmış məscidlərin hayıfını alacaqdır!
- Bilirdi ki, dağıdılmış qəbiristanlıqların, sökülmüş qəbirlərin qisasını hökmən çıxacaqdır!
- Bilirdi ki, işğal dövründə törətdiyi vəhşiliklərin, Xocalı soyqırımının, əsir və girovlara verdikləri işgəncə və məşəqqətlərin əvəzi hökmən qaytarılacaqdır!
- Bilirdi ki, qonşuya, dosta xəyanəti, özgələrinə arxalanaraq su içdiyi quyuya tüpürənləri Azərbaycan xalqı heç zaman bağışlamır!

*Bütün bunları irəlicədən bildiyinə görə təkcə dinc sakinlərdən - qoca, qadın və uşaqlardan deyil, daşdan-torpaqdan, ağacdan-meşədən, dağdan-dərədən, çaydan-göldən də qisas almağa çalışırdı!*

Amma itkiləri qazandıqlarından qat-qat çox oldu!

Özgə torpağında xoş gün, firavan yaşayış tapmadı!

Bayquş kimi özünü xarabalıqlarda yaşamağa məhkum etdi!

Baiskarı olduğu müharibədə ərini, oğlunu, qardaşını, gələcəyini itirdi!

Yenidən qaçqına çevrildi, Ermənistanın ərazisində “ikinci sort”, arzuolunmaz vətəndaş sayıldı!

Ömrü boyu məğlub millət damğasını daşımalı, boş xülyaların ağrı-acısını çəkməli oldu!

**Layiq olduğu cəzanı həm Tanrıdan, həm də Azərbaycan Ordusundan artıqlaması ilə aldı!**

### Erməni mifləri də darmadağın edildi

Ermənilər həmişə özlərini dünyaya başqa cürə, olmadıqları kimi təqdim etməyə, dünyanı erməni mifləri ilə aldatmağa çalışıblar.

**Möhtəşəm zəfərimiz erməninin əsl simasını da tam çılpaqlığı ilə dünyaya göstərdi!**

Erməni heç vaxt məğrur xalq olmayıb!

Məğrur xalq başqasına forpostluq edib, özgə qoltuğuna sığınmaz!

Erməni heç vaxt döyüşgən xalq olmayıb!

Daim terrorla məşğul olmuş, başqaları isə onların əvəzinə vuruşaraq hazır torpağa sahib etmişlər!

Erməni heç vaxt qalib olmayıb!

Özgə torpaqlarına özgələri hesabına yiyələnəndə də bunun müvəqqəti olduğunu gözəl anlayıb.

Erməni qədim xalq da deyil!

Qədim xalqın ərazisi - vətəni, sərkərdəsi - dövlət başçısı, mədəni abidələri - qalaları, kilsə və dini inanc yerləri, musiqisi, mətbəxi, qədim sənət nümunələri olar, başqalarından oğurlamaqla özünə qədimlik, “mədəniyyət” görüntüsü yaratmağa ehtiyac duymaz!

Erməni “məzlum və zavallı” xalq da deyil!

Terroru özünə mübarizə vasitəsi, faşizmi ideologiya seçən, terrorçuya və faşistlərə xidmət göstərənlərə abidə ucaldıb sitayiş edənlər məzlum yox, yırtıcıdırlar!

Erməni ağıllı da deyil!

Ağıllı millət bütün qonşularına qarşı sərsəm iddialar irəli sürməz, özündən güclülərlə savaşmaz, heç zaman isti aşına soyuq su qatmaz!

### Qalib sərkərdə, qalib xalq, qalib ordu

**Bu gün Qələbənin 1 ili tamam olur:**

**Bu bir ildə şanlı Qələbəyə layiq çoxsaylı işlər görülüb, uzaqgörən addımlar atılıb!**

**Ən əsası Azərbaycan 44 günlük döyüş meydanında qazandığı zəfəri artırıb, möhkəmləndirib.**

Qəhrəmanları fərqləndirib, təltif və təbliğ edib!

Şəhidlərin xatirəsini ehtiramla anıb, şəhid ailələrinə, şəhid övladlarına maddi və mənəvi yardım göstərib, diqqətdə saxlayıb!

Əlilləri ölkədə və xaricdə müalicə edib, ən müasir protezlərlə təchizatına şərait yaradıb.

Dağıdılan yaşayış məntəqələrinin bərpası istiqamətində möhtəşəm işlər görülüb, yollar çəkilib, layihələr hazırlanıb və sürətli icrasına başlanılıb!

**İlham Əliyevin Qarabağı cənnətə çevirmək niyyəti və ideyası hər gün, hər ay daha da vüsətlənir!**

*Azərbaycan yenə də diktə edən tərəfdir!*

*Türkiyə ilə qardaşlığımız sarsılmaz və əbədidir!*

*Dostlarla bərabər işləyir, birgə tikib qururuq!*

*Düşmənlər bizimlə hesablaşmaq zorundadır!*

*Azərbaycan daha özünəəmin, daha inamlıdır!*

**Torpaqların xilaskarı, xalqın sevgi və minnətdarlıq ünvanı olan Müzəffər Ali Baş Komandan İlham Əliyev hər şeyi vədəsində, uzaqgörənliklə və ən yüksək səviyyədə görməklə uğurların sayını durmadan artırır!**

**Azərbaycanı qalib dövlətə, xalqımızı qalib xalqa, ordumuzu qalib orduya çevirən İlham Əliyev quruculuq sahəsinin də ən böyük qəhrəmanıdır!**

**Bəxtiyar SADIQOV**

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# İlham Əliyevin Zəfər salnaməsi

*Əvvəli 1-ci səh.*

Azərbaycan xalqı qədimlərə söykənən şərəflə yazılmış tarixi ərzində zaman-zaman müdrik qərarlar qəbul edib. Seçimində heç vaxt yanılmayıb, qurub yaratdığı dövlətlər, seçdiyi liderlər qədim dünyanın, orta əsrlərin, müasir tarixin qəhrəmanlıq salnaməsinə, ədalət rəmzinə çevrilib. Bu gün də yaşadığımız parlaq tarix məhz xalqımızın sərrast seçimidir. Arzuladığımız xoşbəxt gələcəyi yaşayırıq, həmin gələcək bax, bu gündür, xalqımızın əzəmətli təfəkkürünün məhsuludur.

Birinci ildönümünü qeyd etdiyimiz şanlı Zəfərimizin memarı Ulu Öndər Heydər Əliyevin layiqli varisi, onun yarımçıq qalan arzularını gerçəkliyə çevirən cənab İlham Əliyevdir. Bu Zəfər 18 illik müstəqil, qətiyyətli, prinsipial siyasətin bariz təcəssümüdür. Məhz cənab İlham Əliyevin siyasi iradəsi, düşünülmüş və hərtərəfli təhlildən keçmiş siyasi strategiyası, sərkərdəlik məharəti sayəsində Azərbaycanın bütün ərazisində suveren hüquqlarımız bərpa edildi, qalib dövlətə çevrildik, müzəffər xalq olduq, ölkəmiz bütün dünyaya yeni imicdə göründü, beynəlxalq aləm Azərbaycanı qüdrətli dövlət kimi yenidən kəşf etdi. Bu şanlı Zəfərlə cənab İlham Əliyev hər bir azərbaycanlının qəlbində əbədi heykəlini ucaltdı və bir daha alternativsiz Lider olduğunu təsdiqlədi.

Ancaq torpaqlarımızın illərlə işğal altında olmasına baxmayaraq, Azərbaycan Prezidenti yürütdüyü siyasətlə hər zaman sülh tərəfdarı olduğunu dünyaya bəyan etdi. Dəvət olunduğu bütün beynəlxalq ali kürsülərdə, konfrans və forumlarda cənab İlham Əliyev xalqın səsini bəyan edərək münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmasını istədi. Amma ikili standartlar prinsipi heç zaman Azərbaycandan yan keçmədi. Bu cəzasızlıq mühitindən yararlanan Ermənistan Qarabağda daşı daş üstə qoymadı. Bu azmış kimi Ermənistanın indiki rəhbərliyinin tutduğu azğın yol, həyasızcasına səsləndirdiyi bəyanatlar Azərbaycanın və şəxsən cənab İlham Əliyevin səbir kasasını daşdırmaya bilməzdi. Məhz buna görə də Azərbaycana müxtəlif güc mərkəzlərindən göstərilən təzyiqlərə baxmayaraq, Ali Baş Komandan böyük qətiyyət, cəsarət və siyasi iradə nümayiş etdirdi, ərazi bütövlüyümüzün bərpası kimi əsas vəzifənin öhdəsindən layiqincə gəldi.

## Əsl Sərkərdə qətiyyəti

Sentyabrın 27-də xalqa müraciətində Ali Baş Komandan hər kəsi birliyə çağırdı və dövlət-xalq-ordu vəhdəti milli həmrəyliyin bəhrəsi oldu. Cənab İlham Əliyevin xalqa müraciətindəki mətinlik, qətiyyət onu göstərdi ki, qüdrətli Sərkərdə güclü ordusuna və arxasında dayanan Azərbaycan xalqına güvənir. Xalq isə hər zaman olduğu kimi, öz liderinə arxalanır və qələbə müjdəsini səbirsizliklə gözləyirdi.

Bu dövrdə Azərbaycana beynəlxalq təzyiqlər daha da gücləndi. Amma Ali Baş Komandan qətiyyətlə vurğuladı: "Danışıqlar heç bir nəticə vermədi. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu qələbəni qazandıq. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!"

Haqq savaşına başlayan Azərbaycana digər tərəfdən dəstəklər də artırdı. Təkcə 120 üzv və 17 müşahidəçi dövləti, eyni zamanda 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatından Azərbaycana verilən dəstəyi göstərmək yetərlidir. Müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm platformaya sədrlik edən Azərbaycana göstərilən dəstək çox mühüm dəyərləndirilməlidir. Çünki Prezident İlham Əliyevin sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv ölkələrin Azərbaycana dəstəyi ölkəmizi istəməyən qüvvələrə tərs sillə oldu. Çünki həmin dövlətlər BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrə istinad etməyən birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər. Bununla da həmin ölkələr Qoşulmama Hərəkatının sənədlərindən qaynaqlanan təşkilatın prinsipial mövqeyinə möhkəm sadiqliklərini nümayiş etdirdilər.

Vətən müharibəsi dövründə Prezident İlham Əliyev bütün cəbhələrdə öndə idi. Cənab İlham Əliyev Ali Baş Komandan kimi hərbi fəaliyyətindən tutmuş informasiya cəbhəsində apardığı mübarizəyə qədər hamısından qalib çıxdı. Tutarlı, sərrast cavabları, dəmir məntiqə əsaslanan arqumentləri ilə dünyanın aparıcı media mənsublarına verdiyi müsahiblərində Ermənistanın bu sahədə apardığı yalan, heç bir həqiqətə əsaslanmayan böhtan dolu təbliğatını alt-üst etdi. Təkcə Vətən müharibəsi dövründə 30-dan artıq xarici KİV-ə müsahibə verən dövlət başçımız Azərbaycan həqiqətlərini çatdırmaqla ölkəmiz haqqında dünya ictimaiyyətində müsbət rəy formalaşdırmağı bacardı. Artıq mövcud olmayan Qarabağ münaqişəsi, müharibənin başlama səbəbləri, gedişi barədə analitik şərhləri, diplomatik cavabları ilə Ermənistanın işğalçı, təcavüzkar mahiyyətini açıb göstərdi, terrorun bu ölkə tərəfindən dövlət səviyyəsində dəstəkləndiyini sübut etdi. Qərəzli, təxribat xarakterli suallara verdiyi təmkinli, səbirli, həmçinin əsaslandırılmış cavablarla hər kəsə öz yerini göstərdi.

Müzəffər Komandanın "dəmir yumruq" əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu cəmi 44 günə düşməni diz çökdürdü. Azərbaycan Ordusunun hər bir addımı qəhrəmanlıq dastanına çevrildi. 30 ilə yaxın bir müddətdə Azərbaycan xalqının qəlbindən ağır daş kimi asılan torpaq həsrətinə son qoyulması, işğal altında olan ərazilərin azad edilməsi uğrunda 44 gün davam edən Vətən müharibəsi məhz əsl sərkərdə olduğunu sübuta yetirən cənab İlham Əliyevin gərgin və yorulmaz əməyi, vaxtında yaradılmış güclü iqtisadiyyat, mükəmməl ordu quruculuğu, Azərbaycana münasibəti köklü şəkildə dəyişmiş beynəlxalq siyasət və özünü dəmir yumruq kimi göstərmiş xalq-iqtidar birliyi əsasında şanlı qələbə ilə başa çatdı.

Sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən savaşı müddətində Azərbaycan Ordusu tərəfindən 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun 3 qəsəbəsi və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində strateji yüksəkliklər azad olundu. Noyabrın 20-də Ağdam rayonunun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri Azərbaycana təhvil verildi. Noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın şəhəri və 126 yaşayış məntəqəsi Azərbaycana qaytarıldı.

Məhz qalib Sərkərdənin diplomatik məharətinin nəticəsində Ermənistan onilliklərlə möhkəmləndiyi, "keçilməz" istehkamlar qurduğu Ağdamı, Laçını, Kəlbəcəri bir güllə atılmadan Azərbaycana qaytardı. Bu, Baş Komandan və qətiyyətli Lider prinsipiallığının, cəsarətinin təntənəsi idi.

Təbii ki, qələbənin əldə edilməsində müasir ordumuzla yanaşı, güclü iqtisadiyyatımız, milli həmrəylik, iqtidar-xalq birliyi mühüm rol oynadı. Azərbaycan Prezidentinin dediyi kimi, daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi. Həmçinin imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Respublika rəhbəri böyük siyasi iradə və birlik göstərərək bu qüvvələrin ölkəni parçalamaq cəhdlərini, planlarını dəf etdi. Azərbaycan xalqı isə bir millət olaraq öz varlığını müdafiə etdi.

Prezident İlham Əliyev qələbənin əldə edilməsində bu birliyin əhəmiyyətini xalqa son müraciətlərində xüsusi vurğulayıb: "Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".

Prezidentin həyata keçirdiyi siyasət yalnız ölkə daxilində deyil, eyni zamanda bütün dünyada yaşayan azərbaycanlıların sıx birliyini, həmrəyliyini təmin etdi. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları, ayrı-ayrı soydaşlarımız Azərbaycan dövləti ətrafında bir yumruq kimi birləşərək möhtəşəm qələbənin əldə olunmasına öz töhfələrini verdilər.

## Tarixi ədalətin bərpası, Şuşa Bəyannaməsi və yenidən qurulan Qarabağ

Qarabağı "Dəmir yumruq"la azad edən Ali Baş Komandan regionda yeni reallıqlar yaratdı və proseslər göstərdi ki, artıq diktəni cənab İlham Əliyev edir.

Torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən Vətən müharibəsinin başa çatmasından ötən bir il uzun zaman kəsiyi sayıla bilməz. Amma bu müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası onilliklərə bərabərdir. Döyüşlərin getdiyi ötən ilin bu vaxtlarında təsəvvür belə edə bilməzdik ki, cəmi bir neçə aya Qarabağ və Şərqi Zəngəzur möhtəşəm tikinti meydanına çevrilərək qələbəmizi və dövlətimizin gücünü bütün dünyaya bəyan edəcək. İşğaldan azad olunmuş torpaqlarımızın bərpası ilk olaraq infrastrukturun yaradılmasından, vaxtilə mövcud olmuş avtomobil yollarının yenidən qurulmasından və yeni yolların çəkilməsindən başladı. Çünki yol inkişaf deməkdir və yollar olmadan heç bir şəhərin və rayonun, kənd və qəsəbənin bərpasını və gələcəkdə sosial iqtisadi inkişafını təmin etmək mümkün deyil.

Vətən müharibəsinin başa çatmasından 6 gün sonra - noyabrın 16-da Ali Baş Komandan qalib Sərkərdə kimi Qarabağa səfər etdi. Bu, tarixi bir gün idi. Həmin gün cənab İlham Əliyev savaş dövründə Azərbaycanın qəhrəman oğullarının döyüşə-döyüşə Şuşaya qədər getdikləri cığırları "Zəfər yolu" adlandırdı və həmin traektoriya ilə Füzulidən Şuşaya aparacaq yeni avtomobil yolunun təməlini qoydu.

Bu il yanvar ayının 14-də isə Prezident Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu, "Zəfər yolu" ilə Şuşaya qalib Sərkərdə kimi ayaq basdı və qədim qalamızdan dünyaya sülh mesajı verdi.

Bir gün sonra - iyunun 15-i Qurtuluş Günündə yeni tariximiz yazıldı. Tariximizdə ilk dəfə olaraq Azərbaycan lideri xarici dövlətin başçısını Qarabağda, Şuşada qarşıladı.

Şuşa şəhərində iki qardaş ölkənin liderləri - cənab İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan Şuşa Bəyannaməsi imzaladılar. Bu bəyannamənin bağlanmasının məhz Azərbaycan xalqının Qurtuluş Günü - 15 İyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Çünki biz tarixin təkrarlanmasının və oxşar hadisələrin yenidən baş verməsinin şahidiyik. İndi də bölgə uğrunda böyük dövlətlərin açıq mübarizəsi müşahidə olunmaqdadır. Lakin bu dəfə fərq ondan ibarətdir ki, hadisələr Azərbaycanın xeyrinə və maraqlarına uyğun cərəyan edir. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə bəyannamə imzalayarkən Azərbaycanın dövlət başçısı hər kəsin yadına Qars müqaviləsini saldı: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir".

Təbii ki, Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar indi də təkrarlanmaqdadır. Sadəcə bir fərq var. Əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyrinə başa çatmışdısa, bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Cənab İlham Əliyevin yürütdüyü uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi.

İndi Qarabağın hər tərəfi böyük tikinti-quruculuq meydanına çevrilib. Prezident İlham Əliyevin tapşırığına uyğun bu ərazidə şəhər və qəsəbələrin, kəndlərin baş planı təsdiq edilir və sürətli tikinti işləri aparılır. Vətən müharibəsinin başa çatmasının heç bir ili tamam olmamış Qarabağda möhtəşəm layihələr reallaşıb.

Füzulidən Zəfərimizin zirvəsi olan Şuşaya "Zəfər yolu" çəkilib. Qarabağın hava qapısı adlandırdığımız Füzuli Beynəlxalq Hava Limanı açılıb. Bu hava limanının tikintisi Azərbaycanda yeni rekord kimi tarixə düşüb. İlin əvvəlində Prezident İlham Əliyevin təməlini qoyduğu hava limanı oktyabr ayında fəaliyyətə başlayıb.

Oktyabrın 26-sı Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Həmin gün iki mühüm hadisə baş verib. Prezident İlham Əliyev qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Füzuli Hava Limanının açılışını edib, Zəngəzur dəhlizinin təməlini qoyublar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağa səfəri, açılış və təməlqoyma mərasimində iştirak etməsi bu hadisənin nə qədər əhəmiyyətli və tarixi xarakter daşıdığını göstərdi.

Ümumiyyətlə, Türkiyə və Azərbaycan hər zaman bir-birinin yanında olub. Bu gün qardaş ölkə ilə bütün sahələrdə əlaqələr davamlı yüksələn xətt üzrə inkişaf edir və demək olar ki, keyfiyyətcə yeni müstəviyə keçib.

Vətən müharibəsi başlayan ilk saatlardan Türkiyə Prezidenti Azərbaycanla həmrəyliyini ifadə etdi. Bu, Azərbaycanın haqq işinə müdaxilə etmək iddiasında olan Ermənistanın havadarlarına bir mesaj oldu. Qardaş ölkənin dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər, beynəlxalq təzyiqlərə baxmayaraq, qardaşlıq mövqeyindən geri çəkilmədilər.

Zəngəzur dəhlizinin təməlqoyma mərasimindən sonra iki qardaş ölkənin liderlərinin verdiyi bəyanatlar bu möhtəşəm həmrəyliyin məntiqi davamı kimi qiymətləndirilməlidir. Həmin gün Qarabağda möhtəşəm yeni tarix yazıldı. Azərbaycan və Türkiyə liderləri - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan əzəli torpaqlarımızda əl-ələ verərək dünyaya mühüm mesajlar ünvanladılar. Prezidentlər bir daha bəyan etdilər ki, biz hər zaman bir yerdəyik, birliyimiz sarsılmazdır, əbədidir. Biz bir millət, iki dövlət olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edirik, birliyimiz gücümüzdə, əməlimizdədir. Hər zaman çiyin-çiyinə bir yerdə irəliləyirik və ən yeni tarixi birlikdə yazırıq.

Təməli qoyulan Zəngəzur dəhlizi isə bütün Türk dünyasını birləşdirib yeni imkanlar açacaq. Bu dəhliz bölgə ilə yanaşı, bütün region ölkələri üçün də əhəmiyyətli olacaq, iqtisadi əlaqələrin inkişafına mühüm töhfələr verəcək. Asiyanı Avropaya birləşdirəcək bu avtomobil yolu ilə Azərbaycan yeni nəqliyyat damarı açacaq.

Bu gün Qarabağda sürətlə davam edən proseslərdən biri məhz yol-nəqliyyat infrastrukturudur. Prezident İlham Əliyevin hərbi əməliyyatların başa çatmasından sonra işğaldan azad olunmuş rayonlara etdiyi bütün səfərləri yeni avtomobil yollarının təməlinin qoyulması ilə yadda qaldı.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda uzunluğu 700 km-ə yaxın 10 yol infrastrukturu layihəsi icra olunur. Bunlar Füzuli-Şuşa - "Zəfər yolu", yeni Əhmədbəyli-Füzuli-Şuşa, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Talış-Tapqaraqoyunlu-Qaşaltı, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Füzuli-Hadrut, Bərdə-Ağdam yollarıdır. Füzuli-Ağdam avtomobil yolu isə hələlik təməli qoyulan sonuncu layihədir. Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yolun inşası Bərdədən Füzuliyədək insanların rahat gediş-gəlişini təmin edəcək.

Yeni avtomobil yollarının çəkilməsi elektrik və su təchizatı ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzura qayıdışın əsas mərhələlərindən biridir və təsadüfi deyil ki, bu istiqamətlərdə bütün layihələr paralel şəkildə həyata keçirilir. Eyni zamanda bu yolların bir qismi Zəngəzur dəhlizinin tərkib hissəsini təşkil edəcək.

## Prezident qayğısı, dövlət dəstəyi

Ölkəmizdə həmişə şəhidlərə ən ali hörmət və ehtiram göstərilib, onların ailələri dövlətin diqqət və qayğısı ilə hərtərəfli əhatə olunub. Hələ Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Birinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman oğullarımızın adları əbədiləşdirilirdi, onların ailələrinə, həmçinin qazilərə, müharibə iştirakçılarına xüsusi diqqət göstərilirdi, sosial şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülürdü.

Bu ənənə Ulu Öndərin müzəffər davamçısı Prezident İlham Əliyev tərəfindən də ən ali səviyyədə uğurla davam etdirilir. Dövlət başçımızın rəhbərliyi ilə istər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinin, haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinin, qazilərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi üçün ardıcıl və planlı şəkildə kompleks tədbirlər həyata keçirilib. Bu, dövlətin həmin kateqoriyadan olan insanlara xüsusi münasibətinin təzahürüdür. Buna 27 sentyabr - Anım günündə də bir daha şahidlik etdik. Həmin gün xalqımız böyük həmrəylik nümayiş etdirdi, şəhidlərimizin unudulmaz xatirəsi hörmətlə yad edildi, ruhlarına dualar oxundu. Yenə də öndə Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva gedirdi. Prezidentin və birinci xanımın bu tədbirlərə qatılması şəhid ruhlarına göstərilən ehtiramın, sayğının göstəricisi idi.

Bizlər bu Vətəni qanı, canı bahasına azadlığa qovuşduran, əzəli torpaqlarımızı işğaldan azad edən şəhidlərimizə, qazilərimizə, veteranlarımıza hər zaman borcluyuq. Şəhid ailələrinin, qazilərin, veteranların sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olub. Dövlət tərəfindən qısa zaman ərzində yüzlərlə şəhid ailəsi yeni mənzillərlə təmin edilib. Şəhid ailələri və qazilərlə bağlı genişmiqyaslı dəstək tədbirləri həyata keçirilir. Artıq 31 min şəxs bu dəstək tədbirləri ilə əhatə olunub. Zəfəri bizə yaşadan qəhrəman şəhidlərimizin ailələrinə və qazilərimizə növbəti mənzillərin təqdim edilməsi dövlətimizin həm də sosial sahədə güclü, uğurlu siyasətini göstərir.

Ümumiyyətlə, ötən dövrdə 11 min şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi ev verilib. Dövlət başçısının sərəncamı ilə 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulur. 2021-ci il üzrə 3 min mənzil və fərdi evin verilməsi işləri davam etdirilir və onlardan artıq 1850 mənzil verilib. Vətən Müharibəsi Qəhrəmanlarının, onlardan şəhid olanların ailələrinin, həmçinin gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələri məzunlarının da mənzillə təminatı işləri davam etdirilir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da dövlətin belə sosial təşəbbüslərində yaxından iştirak edir. AHİK və onun üzv təşkilatları tərəfindən indiyədək minlərlə şəhid ailəsinə və qazilərə birdəfəlik yardım edilib, 161 şəhidin 269 övladı 18 yaşa çatanadək himayəyə götürülüb, hər ay onlara müxtəlif məbləğlərdə müavinət ödənilməkdədir. AHİK və onun üzv təşkilatları tərəfindən Vətən müharibəsi və sonrakı dövrdə 5 milyon manatdan artıq vəsait xərclənib. O cümlədən Vətən müharibəsi dövründə AHİK-in İcraiyyə Komitəsinin qərarları ilə Silahlı Qüvvələrə Yardım Fonduna 1 022 605 manat ianə edilib, Naxçıvan Muxtar Respublikasında yaşayan, döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin ailələrinə kömək göstərilməsi məqsədilə muxtar respublikanın Həmkarlar İttifaqları Şurasına 150 000 manat köçürülüb. Qarabağ Dirçəliş Fonduna 600 000 manat, Silahlı Qüvvələrə və cəbhə bölgəsinə 1 494 858 manat, "YAŞAT" Fonduna isə 586 510 manat ianə edilib.

Vətən müharibəsi iştirakçılarının, qazilərin və şəhid ailəsi üzvlərinin sağlamlıqlarının bərpa olunması məqsədilə onlar istəkləri əsasında sanatoriya-kurort yollayışları ilə güzəştli şərtlərlə təmin olunurlar. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bu qəbildən olan sosial tədbirləri davam etdirir.

## Şanlı Zəfərə müəlliflik edən ölkə

Bu gün Prezident İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində müstəqil Azərbaycan daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. Dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümünü möhtəşəm nailiyyətlər, böyük uğurlarla qeyd edən Azərbaycan yalnız müstəqilliyinin bərpasının deyil, ümumiyyətlə, tarixinin ən qüdrətli dövrünü yaşamaqla bərabər, həm də ən möhtəşəm zəfərinə müəlliflik edir. Bu zəfərin memarı, böyük nailiyyətlərin səbəbkarı isə cənab İlham Əliyevdir.

Bir xalq olaraq bundan sonra da cənab Prezidentin ətrafında sıx birləşməklə bütün gələcək uğurlarımıza şahidlik edəcəyik. Çünki dövlət başçımız xalqa verdiyi bütün vədləri ləyaqətlə yerinə yetirib. Bu bir həqiqətdir ki, cənab İlham Əliyev Prezident seçildiyi ilk gündən Azərbaycanın işğalla barışmayacağını dəfələrlə bəyan etdi və vədinə sadiq qalaraq xalqımızı qalib xalqa çevirdi, bütün dünyaya Azərbaycanın gücünü göstərdi, düşmənlərimizi rəzil etdi. Belə liderə malik olan xalq, dövlət xariqələr yaratmağa qadirdir.

*Əgər Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın memarıdırsa, Prezident İlham Əliyev Qarabağımızı bizlərə qaytaran və onu yenidən gülüstana döndərəcək qətiyyətli Lider kimi tarixdə əbədi qalacaq.*

**Səttar MÖHBALIYEV,**

***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# YAP Mərkəzi Aparatında "Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri" mövzusunda konfrans keçirilib










Noyabrın 4-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə "Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbirdə "44 günlük zəfər salnaməsi" filmi nümayiş etdirilib.

Sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, tarixi Zəfəri bizə bəxş edərək öz həyatlarını qurban vermiş igid zabit və əsgərlərimizin, ümumilikdə Vətən uğrunda, onun müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün bacı və qardaşlarımızın, bütün mənalı həyatını bu yolda fəda etmiş, Azərbaycan xalqı və dövlətinin rifahına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin xatirəsini hər zaman böyük ehtiramla anırıq. O, qeyd edib ki, Azərbaycan xalqı tarixə öz adını qalib, qurucu və qürurlu xalq kimi yazmağı bacarıb: "2020-ci ildə baş vermiş 44 günlük İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Vətən müharibəsində Azərbaycan xalqı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz gücünü səfərbər edərək milli qürur və ləyaqətin bərpasına, işğal faktının, tarixi ədalətsizliyin aradan qaldırılmasına və separatizmin məhv edilməsinə nail oldu. Şübhəsiz ki, bu Zəfər salnaməsinin yaradılması - Qələbə dastanının yazılması, yeni mürəkkəb geosiyasi şəraitdə, dünya siyasətində toqquşan və kəsişən strateji maraqların fonunda Azərbaycanın torpaqlarının işğaldan azad edilməsinə müvəffəq olması sadə və sıradan məsələ deyil.

Biz qürurla və iftixarla qeyd edirik ki, torpaqlarımız döyüş meydanında Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun erməni faşizmini məhv etməsi, işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunub. Bu, XXI əsrin müharibəsini aparan Azərbaycan Silahlı Qüvvələrinin gücünü, əzmini və peşəkarlığını əks etdirən çox mühüm faktdır. Eyni zamanda xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara müvafiq strateji kursun real məntiqi nəticəsidir".

YAP Sədrinin müavini deyib ki, Ümummilli Lider Heydər Əliyevin siyasətini dövrün tələblərinə uyğun keyfiyyətcə yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə atılan addımlar, həyata keçirilən tədbirlər Azərbaycanın milli gücünün artmasını, strateji hədəflərə və qələbəyə doğru əmin addımlarla irəliləməsini təmin edib. Prezident İlham Əliyevin inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasəti sayəsində Azərbaycanın iqtisadi müstəqilliyi tam təmin edilib, ölkənin maliyyə imkanları genişlənib. Yeni güclü iqtisadiyyat quruculuğu, iqtisadi inkişaf bizi tarixi Zəfərə aparan çox mühüm - həlledici amillərdən biri olub.

Onun sözlərinə görə, son 18 ilin göstəriciləri makroiqtisadi sabitliyə nail olan Azərbaycanın innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan əsas hədəfləri uğurla reallaşdırdığını təsdiqləyir: "Ümumi daxili məhsul istehsalının artım göstəriciləri də bu reallığın ifadəsidir. Belə ki, Azərbaycanda sözügedən dövrdə müşahidə olunan ÜDM-in 3,2 dəfəlik artımı dünya üzrə ən yaxşı göstəricilərdəndir. Digər əhəmiyyətli faktor Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli olmasıdır. Son 18 ildə Azərbaycana daxili və xarici mənbələrdən 274 milyard dollar investisiya yönəldilməsi isə iqtisadi inkişafın davamlılığını təmin edən mühüm amillərdən biridir. Azərbaycanın nümunəvi iqtisadi inkişaf modelinin mühüm komponentləri sırasında respublikamızın strateji valyuta ehtiyatlarının mütəmadi olaraq artması, son olaraq 53 milyard ABŞ dollarını üstələməsi də xüsusi yer tutur. Adambaşına düşən valyuta ehtiyatlarına görə, Azərbaycanın MDB məkanında birinci yerdə olması və digər faktlar, nailiyyətlər iqtisadi müstəqilliyi gücləndirən və beləliklə də, siyasi suverenliyin əsaslarını möhkəmləndirən amillərdəndir. Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi illər ərzində iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir.

Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır".

Vurğulanıb ki, iqtisadi müstəqilliyin və milli inkişafın təmin olunmasına paralel olaraq ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra olunması, müasir standartlar və yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi Azərbaycanın öz milli maraqlarını, suverenliyini döyüş meydanında - hərb səhnəsində təmin etməsini mümkün edib. Dövlət başçısının qeyd etdiyi kimi, əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. Azərbaycanın öz milli gücü vasitəsilə işğal faktını aradan qaldırması ilə artıq münaqişə tarixə qovuşub - müharibə geridə qalıb. İndi Avrasiyanın çox mühüm geostrateji məntəqələrindən olan Cənubi Qafqaz regionu postkonflikt mərhələsindədir. Azərbaycan isə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə start verib, Böyük qayıdışın ən yüksək səviyyədə və qısa müddət ərzində təmin olunması üçün ardıcıl, məqsədyönlü işlər görülməkdədir. Bu, postmüharibə dövründə də Azərbaycan iqtisadiyyatının gücünü, yaxud ölkəmizin güclü iqtisadi potensialını əks etdirir. Xüsusən, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanından irəli gələn vəzifələrin icrası, iqtisadi potensialdan istifadə olunması milli inkişafın sürətlənməsinə təkan verəcək. Yeni bölgüyə əsasən, 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının olması isə həm tarixi, həm mənəvi, həm iqtisadi, həm də siyasi baxımdan olduqca əhəmiyyətlidir.

Tahir Budaqov diqqətə çatdırıb ki, postmüharibə dövrünün mühüm hədəflərindən biri Azərbaycanın yaratdığı reallıqlar əsasında Cənubi Qafqaz regionunda yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşmasıdır: "Bu, siyasi, hərbi-strateji cəhətdən mühüm əhəmiyyətə malik olmaqla yanaşı, iqtisadi cəhətdən də faydalı və perspektivlidir. Yeni şəraitdə geosiyasi və geoiqtisadi işbirliyi imkanları təkcə bölgə xalqları və dövlətləri üçün deyil, bir çox dövlətlər, o cümlədən regional və beynəlxalq güc mərkəzləri üçün mühüm dividendlər vəd edir. Xüsusilə də Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş formatda əməkdaşlıq imkanlarının formalaşması, Azərbaycan başda olmaqla çoxşaxəli işbirliyində maraqlı olan dövlətlərin mühüm iqtisadi mənfəət qazanması deməkdir. Bütün bunlar isə Zəfər iqtisadiyyatımızın inkişafı, Azərbaycanın milli tərəqqisində yeni mərhələnin başlanmasıdır.

Nəticə etibarilə, milli maraqlara əsaslanan xarici siyasət kursunun, güclü iqtisadiyyat və ordu quruculuğunun həyata keçirilməsi, milli həmrəyliyin, xalq-Lider birliyinin təmin olunması və Azərbaycanın imkanlarının milli hədəflər uğrunda məqsədyönlü şəkildə səfərbər olunması nəticəsində qazanılan Böyük Qələbə ölkəmizi yeni strateji nailiyyətlərə və zirvələrə aparır. Şübhəsiz ki, postmüharibə mərhələsində həyata keçirilən strateji kurs Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini, o cümlədən yeni iqtisadi nailiyyətlər qazanaraq milli gücünü daha da artırmasını təmin edəcək! Hər birinizi qarşıdan gələn Zəfər və Dövlət Bayrağı günləri ilə əlaqədar təbrik edir, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizə sülh və əmin-amanlıq, xalqımıza rifah və xoşbəxtlik arzu edirəm".

Tədbirdə "Rəqəmsal transformasiya və iqtisadi inkişaf" mövzusunda çıxış edən Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, müasir iqtisadiyyatın aparıcı qüvvəsi innovasiya və biliklərdir. Onun sözlərinə görə, Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində də prioritetlərdən biri yaradıcı və innovativ cəmiyyət quruculuğudur.

Nazir qeyd edib ki, keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur: "Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olublar. İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası son illərdə Azərbaycanın qarşısında duran prioritet məsələlərdən birinə çevrilib. Ölkədə rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyaları sahəsində yeni infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sahəsində mühüm işlər görülüb. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır. Rəqəmsal transformasiya sahəsində həyata keçirilən dövlət siyasəti üzrə idarəetmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, kommersiya fəaliyyəti ilə yanaşı, dövlət və ictimai əhəmiyyət daşıyan funksiyaların effektiv həyata keçirilməsi tələb olunur".

R.Nəbiyev söyləyib ki, bu gün Azərbaycan hökuməti rəqəmsal transformasiyanı innovasiya mühitinin aparıcı qüvvəsi kimi görməkdədir: "Əgər Azərbaycanın iqtisadiyyatı güclü olmasaydı, güclü texnologiyalar da əldə edə bilməzdik. Bütün dünyanın aparıcı ölkələrində ümumi daxili məhsulun 2,3 faizi elmi tədqiqatlara həsr olunur. Ancaq təəssüf ki, bu gün Azərbaycanda bu rəqəm istədiyimiz səviyyədə deyil. Qarşıya qoyulan məqsəd odur ki, elmi tədqiqatlara ayrılan vəsaitlərin həcmi iqtisadiyyatımızın potensialına xidmət etməsi üçün bir neçə dəfə artırılsın. Bizim baxışımız ondan ibarətdir ki, rəqəmsal transformasiya ilk öncə effektiv dövlət xidmətlərinin əhaliyə təqdim edilməsidir. Bunu "ASAN xidmət"in timsalında görürük. Növbəti mərhələdə bu xidmətin virtual mühitə keçirilməsi, yəni rəqəmsallaşmasıdır ki, biz qısa müddətdə bu vəzifənin öhdəsindən gələcəyimizə inanırıq. Eyni zamanda dövlət qurumları arasında olan münasibətlərin virtual məkana keçirilməsi də qarşıda dayanan vəzifələrdən biridir. Prezident İlham Əliyev tərəfindən Azərbaycanda rəqəmsal transformasiyanın konsepsiyasının hazırlanması ilə bağlı tapşırıq verilib. Tapşırığa uyğun olaraq müvafiq dövlət qurumları ilə birgə bu sənədi hazırlamışıq. Yəqin ki, bu sənədin yaxın vaxtlarda təsdiqlənəcəyi gözlənilir. Onu da qeyd edim ki, 2024-cü ilin sonuna qədər Azərbaycanda genişzolaqlı internetlə təmin edilməmiş kənd qalmayacaq. Digər məqam isə insan resurslarının mövcudluğudur. Burada diqqət universitetlərimizin elmi-tədqiqat yönümlü olmasına yönəlməlidir".

R.Nəbiyev kibertəhlükəsizlik məsələlərinin də konsepsiyada öz əksini tapdığını diqqətə çatdırıb. Onun sözlərinə görə, görülən bütün işlər ölkə vətəndaşlarının rifahına xidmət edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə "Milli təhlükəsizlik və iqtisadi inkişaf" mövzusunda çıxış edib. V.Qasımlı çıxışında müstəqillik illərində milli iqtisadiyyatımızın keçdiyi mərhələlər haqqında ətraflı məlumat verib. O, qeyd edib ki, ötən dövr ərzində ölkə iqtisadiyyatı 3 dəfədən çox artıb: "2016-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Strateji Yol Xəritələrinin uğurla icra olunması sosial-iqtisadi gücümüzü daha da artırır. Artıq Azərbaycan Avrasiya məkanında önəmli rola malik dövlətə çevrilib. Bütün bunlara Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasətin Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində nail olmuşuq".

İcraçı direktor deyib ki, Azərbaycan tarixi Zəfərin qazanılması üçün 30 il ərzində böyük işlər görüb. Müharibənin başa çatması regionda yeni reallıqlar yaradıb və Azərbaycanın təşəbbüsləri ilə regionda güc mərkəzi yaranır. Bu, gələcəkdə qlobal gücə çevrilə bilər.

Maliyyə təhlükəsizliyi ilə bağlı məlumat verən V.Qasımlı diqqətə çatdırıb ki, Azərbaycanın xarici borcu ÜDM-in 18,2 faizi həcmindədir: "Bu, yaxşı göstəricidir. Çünki dünya üzrə normativ göstərici 40 faizdir. Hazırda ölkəmizin strateji valyuta ehtiyatları 55 milyard dollara yaxınlaşıb. Bu fakt da ölkəmizin iqtisadi gücündən xəbər verir. Bütövlükdə, Azərbaycanın maliyyə-iqtisadi təhlükəsizliyi tam təmin olunub".

Tədbirdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində milli iqtisadiyyatın rolu" mövzusunda çıxış edərək Azərbaycanın müstəqilliyinin əsaslarının hələ 1970-ci illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib: "1969-cu ilə qədər keçmiş ittifaq miqyasında Azərbaycan ən geridə qalan respublikalardan biri idi. Amma Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyə gəldikdən sonra qısa müddət ərzində Azərbaycan iqtisadi inkişaf baxımından keçmiş sovetlər birliyində öncül sıraya çıxdı. Məhz o dövrdə Azərbaycanın müstəqilliyinin təməlləri atıldı. Təəssüf ki, yaradılmış güclü iqtisadi baza müstəqilliyin ilk illərində dağıdıldı. 1992-ci ildə respublikada inflyasiyanın 1700 faiz olması acı mənzərənin göstəricisi idi. Lakin Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan inkişaf və tərəqqi yoluna qədəm qoydu. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması tarixi hadisə oldu".

Komitə sədri xatırladıb ki, İlham Əliyevin Prezident kimi ilk fərmanı ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı idi. Bu, bir daha onu göstərir ki, dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun fikrincə, iqtisadi müstəqillik olmasa, hər hansı dövlətin müstəqilliyi mümkün deyil: "44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərin qazanılmasında iqtisadi gücümüz əsas rol oynadı. Bu müharibənin iqtisadiyyatımıza mənfi təsirini hiss etmədik. Qazanılan Zəfər Azərbaycanın iqtisadi inkişafı üçün yeni perspektivlər açır. Biz qarşıya qoyulan yeni hədəflərə nail olacağıq. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq".

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov isə "İqtisadi inkişaf perspektivləri" mövzusunda çıxış edərək söyləyib ki, 44 günlük müharibədə Azərbaycan hərb tarixində yeni model tətbiq etdi və hazırda dünya ölkələri tərəfindən bu model təhlil olunur: "Müharibədən sonra Prezident İlham Əliyev yeni inkişaf modelləri təqdim etdi. "Ağıllı kənd", "ağıllı şəhər", "yaşıl enerji" konsepsiyası irəli sürülüb. Bu onu göstərir ki, Qarabağ müasir innovasiya mərkəzinə çevrilir".

Azərbaycan iqtisadiyyatında neft amilinin böyük rolu olduğunu deyən rektorun fikrincə, neft tükənən sərvət olduğu üçün iqtisadiyyatda müasir innovasiyalar tətbiq olunur: "Bu baxımdan rəqəmsal iqtisadiyyat çox önəmlidir". Ə.Muradov çıxışında işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialı barədə fikirlərini bildirib. O, Qarabağın regional innovasiya mərkəzinə çevrilməsi ilə bağlı əsas hədəf və məqsədləri açıqlayıb, bu istiqamətdə infrastruktur, institusional və elm-təhsil istiqamətləri üzrə təkliflərini səsləndirib.

Konfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, postkonflikt dövründə ölkə iqtisadiyyatının inkişaf perspektivləri ilə bağlı bu tipli müzakirələrin aparılması faydalıdır. Konfransda ölkə iqtisadiyyatının dünəninə, bu gününə və gələcəyinə nəzər salındığını deyən Tahir Budaqov bir sıra təkliflərə də münasibət bildirib. Qeyd edib ki, rəqəmsal inkişafın qiymətləndirilməsi üçün Azərbaycanda yeni göstəricilər sistemi yaradılmalıdır: "Dövlət Statistika Komitəsinin sədri kimi bununla bağlı rəqəmsal inkişaf və nəqliyyat nazirinə rəsmi müraciət etmişəm. Cəmi bir neçə ölkə bu sahədə addımlar atıb. Azərbaycan da bu prosesdə öndə olmalıdır".

YAP Sədrinin müavini vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük Zəfər Azərbaycan dövləti və xalqı qarşısında yeni üfüqlər açdı: "Azərbaycan möhkəm təməllər üzərində dayanaraq gələcəkdə də yeni zəfərlər qazanmağa qadir olan ölkədir. Bu gün biz milli maraqlarımızın qorunmasına, müstəqil ölkəmizin daha da güclənməsinə xidmət edən yol ilə gedirik. Bu yolu Ulu Öndər Heydər Əliyev bizə ərməğan edib. Prezident İlham Əliyevin ətrafında sıx birləşərək bu yolla inamla irəliləyirik. Bu yol Azərbaycan üçün alternativi olmayan yeganə yoldur".

Sonda konfrans iştirakçıları adından 8 Noyabr - Zəfər Günü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət qəbul olunub.

## *Tahir BUDAQOV:* "İşğaldan azad edilmiş ərazilərin iqtisadiyyatımıza inteqrasiyası ölkəmizin daha sürətli inkişafında mühüm rol oynayacaq"

"Ölkəmiz, o cümlədən dünyada yaşayan azərbaycanlılar çoxəsrlik tariximizdə mühüm yer tutan 8 Noyabr - Zəfər Gününün qeyd edilməsinə hazırlaşır".



AZƏRTAC xəbər verir ki, bu fikri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, ərazilərimizin işğaldan azad edilməsi təkcə ərazi bütövlüyümüzün təmin olunması, tarixi ədalətin bərpa edilməsi deyil, eyni zamanda Azərbaycan iqtisadiyyatına əlavə güc deməkdir. Həmin ərazilərin də ölkə iqtisadiyyatına inteqrasiya edilməsi ölkəmizin daha sürətli inkişafında mühüm rol oynayacaq.

"Bilirsiniz ki, Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. Amma Prezident İlham Əliyevin uzaqgörən və çoxşaxəli fəaliyyəti sayəsində Azərbaycan bu gün bir logistika mərkəzi kimi dünya ticarət əlaqələrində önəmli yer tutan ölkə kimi özünü təsdiq edib. Zəngəzur dəhlizinin açılması ilə ölkəmizin tranzit potensialı daha da yüksələcək və düşünürəm ki, bu proses də Azərbaycanın bundan sonra daha sürətli inkişafına, regionda, ümumiyyətlə, dünyadakı mövqeyinin daha da möhkəmlənməsinə, xalqımızın rifahına xidmət edəcək", - deyə YAP Sədrinin müavini vurğulayıb.

## Yeni Azərbaycan Partiyası 8 Noyabr - Zəfər Günü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

*Yeni Azərbaycan Partiyasının noyabrın 4-də təşkil etdiyi "Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri" mövzusunda konfransda 8 Noyabr - Zəfər Günü ilə əlaqədar siyasi partiyalara və beynəlxalq təşkilatlara müraciət qəbul edilib. AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir:*

"Azərbaycanın qalib gələrək 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş ərazilərini azad etdiyi Vətən müharibəsindən bir il ötür. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri növbəti dəfə təxribat törədərək bir neçə istiqamətdə Azərbaycanın yaşayış məntəqələrini, mülki əhalisini müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə atəşə tutdu. Ermənistan rəhbərliyinin məkrli planının - yeni torpaqlar işğal etmək məqsədinin qarşısını almaq üçün Azərbaycanın əks-həmləyə keçməkdən və düşmənə layiqli cavab verməkdən başqa seçimi qalmadı.

44 gün davam edən Vətən müharibəsi çoxəsrlik tariximizin ən parlaq səhifəsi, milli qürur, şərəf və qəhrəmanlıq salnaməsidir. Azərbaycan Ordusunun inamlı və qətiyyətli Zəfər yürüşü nəticəsində qazanılan Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünü deyil, eyni zamanda tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdi.

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə XXI əsrin müharibəsini aparan şanlı Azərbaycan Ordusu öz gücünü döyüş meydanında göstərərək 300-dən çox yaşayış məntəqəsini, həmçinin mühüm strateji yüksəklikləri işğaldan azad etməklə müasir hərb tarixində yeni səhifələrə imza atdı. Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat Azərbaycanın hərbi-siyasi qələbəsinin təsdiqi olmaqla yanaşı, daha böyük itkilərin qarşısını almış oldu. Belə ki, Ermənistan üçtərəfli Bəyanata imza atmaqla Kəlbəcər, Ağdam və Laçın rayonlarını döyüşsüz Azərbaycana qaytarmağa məcbur oldu və ölkəmiz 30 ilə yaxın davam edən işğal faktına öz hərbi-siyasi gücü ilə son qoydu. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının uzun illər ərzində kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını təmin etməklə separatizmə son qoydu. Dövlət başçısının 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə Şuşa şəhərinin azad olunduğu gün - noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təsis edilib. Bu, ən yeni tariximizin parlaq səhifəsi olan Zəfər salnaməsinin gələcək nəsillərə ötürülməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Vətən müharibəsindən sonra ötən bir ildə Azərbaycan tərəfindən atılan addımlar tarixi Qələbəmizin nəticələrinin iqtisadi, siyasi və diplomatik müstəvidə möhkəmləndirilməsini təmin edir. Artıq bütün dünya ictimaiyyətinə azad edilmiş ərazilərdə işğal dövrü ərzində törədilmiş dağıntıların miqyası, Azərbaycanın şəhər, qəsəbə və kəndlərinin, dini, mədəniyyət abidələrinin yerləbir edilməsi, Ermənistanın misli görünməmiş ekoloji cinayətləri ilə tanış olmaq imkanı yaradılmışdır. Bu gün işğaldan azad edilmiş ərazilərdə ardıcıl və sistemli abadlıq-quruculuq işləri aparılır, kənd, qəsəbə və şəhərlərimiz, tarixi, dini və mədəni abidələrimiz bərpa edilir. Həmin ərazilərdə müasir yol infrastrukturunun yaradılması, Füzuli, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının inşası və digər addımlar uzun illərdir öz evlərindən didərgin salınan, hüquqları pozulan yüz minlərlə azərbaycanlının öz doğma yurduna dönməsinin - Böyük qayıdışın qısa zamanda və ən yüksək səviyyədə həyata keçirilməsinə geniş imkanlar yaradır. Şübhəsiz ki, müasir bərpa-quruculuq konsepsiyaları əsasında reallaşdırılan tədbirlər - görülən işlər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulmasına səbəb olacaq, 30 illik hərbi-siyasi əsarətdən xilas edilmiş ərazilərimizə yeni həyat və nəfəs verəcək. Lakin Ermənistan tərəfinin işğaldan azad edilmiş ərazilərin dəqiq mina xəritələrini verməkdən yayınması bərpa-quruculuq işlərinin həyata keçirilməsi prosesini ləngitməklə yanaşı, bu gün də insan tələfatına səbəb olur. Bununla da müharibə zamanı Azərbaycanın yaşayış məntəqələrini qadağan edilmiş silahlardan da istifadə etməklə atəşə tutaraq 100-dən artıq mülki sakinin ölümünə səbəb olan Ermənistan insanlığa qarşı yeni cinayətlərin baş verməsinə zəmin yaradır.

Artıq münaqişə və müharibə tarixə çevrilib - geridə qalıb, regionda postmüharibə dövrü başlayıb. Bu mərhələdə qarşılıqlı etimadın yaradılması, sülh, təhlükəsizlik və əməkdaşlığın təmin olunması mühüm vəzifə və prioritet kimi müəyyənləşdirilib. Azərbaycan uzun illər bölgədə sabitliyə, tərəqqiyə ciddi təhdid mənbəyi olan münaqişəni həll etməklə regionda sabitliyin və iqtisadi inkişafın təmin olunması üçün geniş imkanlar yaradıb. Zəngəzur dəhlizinin açılması, nəqliyyat-kommunikasiya xətlərinin bərpası geniş formatda əməkdaşlıq şəraitinin formalaşması, Cənubi Qafqazın bütün potensialı ilə işbirliyi məkanına çevrilməsi deməkdir. Bu isə həm Azərbaycan, həm Ermənistan, həm də region ölkələri üçün geosiyasi, geoiqtisadi cəhətdən faydalı və perspektivlidir, rifah və inkişaf vəd edir.

İndi mövcud reallıqlar fonunda Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması, sərhədlərin dəqiq müəyyənləşdirilməsi, sülh şəraitində xalqların birgəyaşayışının təmin olunması mühüm çağırış kimi qarşıda duran əsas strateji vəzifələrdən biridir. Azərbaycan bu istiqamətdə öz üzərinə düşənləri yerinə yetirir, qəti və birmənalı mövqe sərgiləməklə müvafiq təkliflərlə, təşəbbüslərlə çıxış edir. Ermənistan da öz növbəsində dəqiq və konkret yanaşma ortaya qoymalı, üçtərəfli Bəyanatdan irəli gələn bütün öhdəliklərini qeyd-şərtsiz yerinə yetirməlidir.

Azərbaycan Respublikasının aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası da beynəlxalq hüququn norma və prinsipləri əsasında regionda sülh, təhlükəsizlik və əməkdaşlıq ideyalarına sadiqlik nümayiş etdirilməsinin vacibliyini qətiyyətlə bəyan edir. Hesab edirik ki, dünya ictimaiyyəti, ayrı-ayrı ölkələr, beynəlxalq təşkilatlar, siyasi partiyalar da Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirməsinə səy göstərməlidir. Ermənistan Azərbaycanın regionda dayanıqlı etimad, etibarlı təhlükəsizlik və faydalı əməkdaşlıq mühitinin yaradılması ilə bağlı çağırışlarına müsbət yanaşmalı, bəşəri dəyərlərə və beynəlxalq hüquq normalarına əsaslanan təşəbbüslərinə adekvat cavab verməlidir. Cənubi Qafqazda möhkəm sülh, barış və qarşılıqlı etimadın bərqərar edilməsi üçün bütün siyasi qüvvələri və təşkilatları birgə fəaliyyətə və səmərəli əməkdaşlığa çağırırıq".

# Qlobal Bakı Forumunun birinci panel iclası “COVID-19-dan sonra yeni dünya nizamı” mövzusuna həsr olunub






Azərbaycan paytaxtında “COVID-19-dan sonrakı dünya” mövzusunda keçirilən VIII Qlobal Bakı Forumu noyabrın 4-də açılış mərasimindən sonra işini panel iclasları ilə davam etdirib.

AZƏRTAC xəbər verir ki, Forumun birinci panel iclası “COVID-19-dan sonra yeni dünya nizamı” mövzusuna həsr olunub.

İclasda COVID-19-dan sonra siyasi landşaft, postkonflikt idarəçilik, qlobal idarəetmə, qlobal təhlükəsizlik, dəyişən dünyada Çinin rolu, “Böyük Yeddilik” və “Böyük İyirmilik” formatları, qlobal iqtisadiyyat və ticarət, təbii resurslar uğrunda mübarizə, qeyri-bərbərlik, insan haqları, ətraf mühit və sabit iqtisadi inkişaf məsələləri müzakirə edilib.

Əvvəlcə, moderator - 2008, 2009-2011-ci illərdə Belçikanın Baş naziri olmuş İv Löterm müzakirə olunan məsələlər haqqında qısa məlumat verib. O bildirib ki, iştirakçılar COVID-19-dan sonrakı yeni dünya nizamını müzakirə edəcəklər. Bu gün dünyada COVID-19-dan sonrakı vəziyyətlə bağlı iki cür fikir formalaşıb. Bir çox siyasətçilər postpandemiya dövründəki vəziyyətə nikbin yanaşsalar da, digərləri bunun əksini söyləyirlər. Təhlillər göstərir ki, pandemiya hələ də dünya iqtisadiyyatına mənfi təsirini göstərir. Yeni qlobal vəziyyət dünyada bəzi sahələrin inkişafını şərtləndirsə də, bir çox sahələrin inkişafı üçün təhdidlər yaradır.

Qeyd edilib ki, panel iclasında ABŞ iqtisadiyyatı qarşısında hələ də həllini gözləyən məsələlər, Çin iqtisadiyyatının postpandemiya dövründəki inkişafı, bu ölkədəki demoqrafik vəziyyət, Avropa İttifaqı, Əfqanıstan, Şimali Koreya, İran və digər ölkələrdə, o cümlədən həmin regionlarda baş verən siyasi proseslər, eləcə də Cənubi Qafqazda uzun illər həllini tapmamış münaqişənin başa çatması, postmüharibə dövründə Qafqazda etimad mühitinin yaradılması istiqamətində görüləcək işlər, planetar miqyasda iqlim dəyişmələri nəticəsində yaranan problemlərin aradan qaldırılması üçün birgə həll yollarının axtarılması istiqamətində Birləşmiş Millətlər Təşkilatının təsir imkanları, bu təşkilatın özünün daxilində islahatların aparılmasının zəruriliyi geniş müzakirə olunacaq.

2001-2011-ci illərdə Ərəb Liqasının Baş katibi, 1991-2001-ci illərdə Misirin xarici işlər naziri olmuş Əmr Musa çıxış edərək bu gün dünyanın ən böyük təsisatı olan BMT-nin planetar miqyasda bir çox problemlərin həllindəki rolundan danışıb. O, təəssüflə bildirib ki, pandemiya hələ başa çatmayıb. Buna görə də yeni vəziyyət bəşəriyyətin gələcək inkişafına təhdidlər yaradır. Həm pandemiya, həm də digər səbəblərdən beynəlxalq ictimaiyyətin qarşısında hələ də həll olunmamış məsələlər qalır. Bu məsələlərin həllinə BMT öz töhfəsini verməyə çalışır. Bununla belə, BMT-nin fəaliyyətində müəyyən çatışmazlıqlar da var. Lakin indi bəşəriyyət beynəlxalq sistemin yenidən qurulmasından deyil, mövcud sistemə yeniliklərin tətbiqi ilə bağlı düşünməlidir.

2016-2018-ci illərdə Türkiyənin Baş naziri, 2018-2019-cu illərdə Böyük Millət Məclisinin sədri işləmiş Binəli Yıldırım çıxışında bildirib ki, BMT-nin Təhlükəsizlik Şurasının hazırkı tərkibi dəyişilməlidir. Mövcud vəziyyət beynəlxalq ictimaiyyət tərəfindən illərlə uzun-uzadı müzakirə edilə bilməz. Çünki hazırda qarşıda duran çağırışlara hər hansı şərtləri dəyişdirmədən nail olmağa çalışılacaqsa, bu məsələlərin qəti həll yolları tapılmayacaq.

Binəli Yıdırım qeyd edib ki, Sovet İttifaqının dağılması ilə ayrı-ayrı regionlarda problemlər yaranmışdı. Əfqanıstanda, Suriyada, eləcə də bir çox ölkələrdə yaranmış siyasi problemlərin, hərbi qarşıdurmaların BMT tərəfindən vaxtında qarşısının alınmaması sonrakı dövrlərdə yeni mübahisələrin yaranmasına, yaxud da onların dərinləşərək böyük münaqişələrə çevrilməsinə səbəb olmuşdu. Digər tərəfdən, BMT tərəfindən qəbul edilən qətnamələrin yerinə yetirilməməsi və mövcud vəziyyət bu təşkilata etimadın itirilməsinə səbəb olur. İkinci Dünya müharibəsindən sonrakı vəziyyət indiki situasiyaya uyğun gəlmir. Belə ki, bu illər ərzində dünyada yeni siyasi oyunçular meydana gəlib. Hazırkı vəziyyətdə bu dövlətlər dünyadakı sülhə, təhlükəsizliyə və inkişafa öz töhfələrini verə bilərlər. Bunun üçün həmin dövlətlərin beynəlxalq məsələlərin həllindəki iştirakçılığı həll edilməlidir.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxışında bildirib ki, ötən əsrdə doxsanıncı illərin əvvəlindən, yəni müstəqilliyinin ilk illərindən başlayaraq Azərbaycan əraziləri qonşu Ermənistan tərəfindən işğala məruz qalıb. Ermənistanın anneksiya siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi 30 ilə yaxın işğal altında qalıb. BMT Ermənistanın işğal etdiyi ərazilərin qeyd-şərtsiz boşaldılması ilə əlaqədar 4 qətnamə qəbul edib. Ötən dövr ərzində Azərbaycan bu işğalın başa çatması üçün bütün danışıqlara müsbət yanaşıb və bu illər ərzində öz ərazilərinin hərbi vasitələrlə deyil, siyasi-diplomatik danışıqlar yolu ilə geri qaytarılması təşəbbüslərinə dəstəyini nümayiş etdirib. Lakin Azərbaycanın 30 ilə yaxın sadiq qaldığı siyasi-diplomatik danışıqlar, xüsusən də bu münaqişənin həlli üçün 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti səmərəsiz olub.

Ceyhun Bayramov onu da vurğulayıb ki, BMT tərəfindən qəbul olunmuş hansısa qətnamənin icrası bir neçə gün ərzində təmin edilsə də, təşkilatın Ermənistanın işğal etdiyi torpaqların qeyd-şərtsiz boşaldılması ilə bağlı qətnamələri icrasız qalıb. Bu illər ərzində BMT qətnamələrinin Ermənistan tərəfindən icra edilməməsi, yaxud bunun üçün işğalçı dövlətə heç bir təzyiqin göstərilməməsi Azərbaycan ictimaiyyətində beynəlxalq təşkilata inamı və etimadı azaldıb.

Nazir qeyd edib ki, beynəlxalq ictimaiyyət BMT-nin fəaliyyətində səmərəliliyin olmasında maraqlıdır. Buna görə də BMT çıxardığı hər bir qətnamənin icrasını təşviq etməli və həmin qətnamələrin yerinə yetirilməsinə nail olmalıdır. Xüsusən indiki pandemiya dövründə BMT vaksinlərin ölkələr arasında ədalətli paylanmasını təmin etməli, ədalət və bəşəriyyətin gələcəyi naminə bu istiqamətdə qəti mövqe nümayiş etdirməlidir.

1999-2007-ci illərdə Latviyanın Prezidenti olmuş, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxışında bildirib ki, BMT dünya ölkələrini bir araya gətirən, ümumilikdə dünyanı nizamlayan, ümumi oxşar qaydaları müəyyən edən təsisatdır. Məhz bunun üçün bu təşkilatın çıxardığı qərarların, qəbul etdiyi konvensiyaların icrasına diqqət artırılmalıdır. Vayra Vike-Freyberqa qeyd edib ki, hazırda BMT-yə üzv 200-ə yaxın ölkədən yalnız 5 ölkə Təhlükəsizlik Şurasında təmsil olunur.

Avropa İttifaqının da regional hadisələrə təsirindən danışan Vayra Vike-Freyberqa deyib ki, İkinci Dünya müharibəsindən sonra Avropanın siyasi xəritəsində xeyli dəyişiklik baş verib. Yeni üzvləri qəbul etdikdən sonra Avropa İttifaqı özü xeyli genişlənib. Bununla belə, hazırda Avropa İttifaqı daxilində eyni təşkilatda təmsil edilən dövlətlər arasında da bir-birinə qarşı ədalətsizlik mövcuddur. Mövcud vəziyyətin aradan qaldırılması üçün həm BMT, həm də Avropa İttifaqının idarəetməsində islahatlara ehtiyac var. Bunun üçün Avropa özünün müsbət tarixi ənənələrindən və ədalət prinsipindən bəhrələnməlidir.

2015-ci ilin Nobel Sülh Mükafatı Laureatı Ouided Bouchamaoni çıxışında deyib ki, mövcud dünya əvvəlki dünyadan çox fərqlidir. İnkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə yalnız xammal mənbəyi kimi baxmamalıdır. İndi həmin ölkələrdə yaşayan insanlar özlərinin təhsillərini və gələcəklərini düşünür, bunun üçün yeni tərəfdaşlar axtarırlar. İkinci Dünya müharibəsindən sonra və Sovet İttifaqının dağılması ilə bir çox ölkələr özlərinin milli iqtisadiyyatlarını qurub və inkişaflarını təmin ediblər. Yaponiya, Braziliya, Türkiyə kimi ölkələrin iqtisadi inkişafı imkan verir ki, onlar BMT çərçivəsində beynəlxalq siyasi qərarların qəbuluna və dünya nizamına öz töhfələrini versinlər.

Qadın təhsilinin vacibliyindən danışan Ouided Bouchamaoni bildirib ki, bu məsələnin inkişafı üçün səylər artırılmalı, bütün sahələrdə qadınların rolu tanınmalıdır. Belə ki, idarəetmə strukturlarında dəyişikliklər etməklə qadınların fəaliyyətinə daha çox yer ayrılmalıdır.

# Qlobal Bakı Forumu: Yeni dünya iqtisadiyyatı






Noyabrın 4-6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “COVID-19-dan sonrakı dünya” mövzusunda VIII Qlobal Bakı Forumu keçirilir. Hibrid formatda təşkil olunan beynəlxalq tədbirdə dünyanın 40-dan çox ölkəsindən 300-ə yaxın nüfuzlu qonaq iştirak edir. Onların arasında ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri, siyasətçilər, politoloqlar, ekspertlər var.

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevnelievin moderatorluğu ilə “Yeni dünya iqtisadiyyatı” mövzusunda keçirilən ikinci panel iclasında COVID-19 pandemiyasının dünya iqtisadiyyatına mənfi təsiri və onun fəsadları məsələləri müzakirə olunub.

Rosen Plevneliev vurğulayıb ki, qlobal pandemiyanın təsirlərindən qurtularaq nikbin iqtisadiyyata yaxınlaşmağın vaxtıdır. Uzunmüddətli planların işlənib hazırlanması, təsdiqlənməsi və onların əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf edilməsi çox mühüm əhəmiyyət daşıyır. Bu məsələdə Azərbaycan bizim üçün nümunədir. Gəlin, Azərbaycandan öyrənək və iqtisadiyyatımızı dirçəldək.

Rosen Plevneliev forumdakı müzakirələrin qlobal iqtisadi duruma müsbət təsir edəcəyinə ümidvar olduğunu bildirib. İqlim dəyişikliyi problemindən də danışan natiq Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, digər dövlət başçıları ilə qlobal iqlim dəyişikliyinə töhfə verməklə bağlı müəyyən razılığa gəldiyini qeyd edib.

Gələcək üçün tədbirlər görülməsinin vacibliyini diqqətə çatdıran İsrailin sabiq Baş naziri Ehud Barak vaksinasiya prosesinin diqqətdə saxlanmalı olduğunu bildirib. Deyib ki, bu, pandemiyadan çıxış yolu üçün əsas amildir.

Ehud Barak diqqətə çatdırıb ki, əsas diqqət iqlim dəyişikliyi məsələsinə yönəldilməlidir. Külli miqdarda vəsait ayırmaq lazımdır ki, vəziyyət mümkün qədər qaydasına düşsün. Süni zəkanın inkişaf etdirilməsinin məhsuldarlığın artmasına müsbət təsir edəcəyini deyən İsrailin sabiq Baş naziri bildirib ki, məhsuldarlığın artması da inflyasiyanın qarşısının alınmasına müsbət təsir göstərəcək.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov qeyd edib ki, ölkəmiz COVID-19 pandemiyası ilə mübarizədə fəallıq nümayiş etdirib və pandemiya ilə mübarizə üçün dövlət büdcəsindən ümumilikdə 2 milyard vəsait ayrılıb. “Biz pandemiya ilə mübarizədə yolun ortasındayıq. Turizm sektoruna, iqtisadiyyata, bütün sahələrə ciddi ziyan dəyib. Çətin vəziyyətdən çıxış yolunun tapılması və iqtisadiyyatın dirçəldilməsi müdaxiləsiz mümkün deyil”, - deyə Prezident Administrasiyasının şöbə müdiri qeyd edib.

Bütün qüvvələrin səfərbər edilməsinin vacibliyini bildirən Şahmar Mövsümov diqqətə çatdırıb ki, Azərbaycan ötən il torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü bərpa edib. Azərbaycanın artıq Böyük qayıdış prosesinə başladığını deyən Ş.Mövsümov işğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin ölkə iqtisadiyyatının inkişafına töhfə verəcəyini vurğulayıb.

Azərbaycanda əhalinin 40 faizdən çoxunun artıq vaksinasiya olunduğunu və bu prosesin davam etdiyini bildirən Prezidentin köməkçisi bəzi ölkələrdə bu göstəricinin 10 faiz olduğunu deyib. Bunun da səbəbinin Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, vaksinlərin ölkələr arasında bölüşdürülməsindəki ədalətsizliklə bağlı olduğunu bildirib.

Monteneqronun sabiq Baş naziri İqor Luksiç müzakirə olunan mövzulara dair fikirlərini bölüşüb, vaksinasiya prosesində ədalətin təmin olunmasının vacibliyini qeyd edib. Həmçinin dünya iqtisadiyyatının postpandemiya dövrünə hazırlanması üçün zəruri tədbirlər görülməsinin əhəmiyyətindən danışıb.

Rumıniyanın sabiq Baş naziri Petre Roman isə qlobal iqtisadiyyatın çox mürəkkəb sistem olduğunu bildirib. Qeyd edib ki, bu sistem həm daxildə, həm də xaricdəki problemləri meydana çıxarır. Böhran vəziyyətində bu özünü daha qabarıq göstərir. Biz həlledici qüvvələri meydana çıxarmalıyıq. Texnologiyaların davamlı və dayanıqlı olması mühüm şərtdir. Yəni onların mümkün ola biləcək böhranlara davam gətirə bilməsi öyrənilməlidir.

Yer kürəsinin təhlükəli məkana çevriləcəyindən narahatlığını ifadə edən Petre Roman diqqətə çatdırıb ki, enerji bazarının təkrar layihələndirilməsinə fikir verilməlidir. Mürəkkəb münasibətləri araşdırmaq mütləqdir. Bazarda olan qiymətlər bazar hədəflərinə uyğun gəlmədikdə problemlərin yaranması qaçılmazdır.

İtaliya Prezidentinin sabiq diplomatik müşaviri Antonio Zanardi Landi hazırda hərbi ittifaqların tənəzzül dövründə olduğunu deyib. NATO-nun, sadəcə, hərbi ittifaq deyil, həm də bir dəyər olduğunu diqqətə çatdıran natiq Şanxay Əməkdaşlıq Təşkilatının da öz siyasətinə dəyişikliklər etməli olduğunu qeyd edib.

Ekvadorun sabiq Prezidenti Rosalia Arteaqo Serrano postpandemiya dövründə dünya iqtisadiyyatını bərpa etmək üçün bütün ölkələrin birgə səylərinin vacibliyini diqqətə çatdırıb. O, pandemiyadan ən çox təhsil və səhiyyə sahələrinin ziyan çəkdiyini vurğulayıb. Sabiq dövlət başçısı təhsil və səhiyyə sistemlərinin təkmilləşdirilməsinin vacibliyini qeyd edib.

Panel iclası müzakirələrlə davam edib.

Qeyd edək ki, VIII Qlobal Bakı Forumu öz işini noyabrın 6-da başa çatdıracaq.

## Petre ROMAN: “Azad edilmiş ərazilərin bərpası üzrə planların tam reallaşdırılacağına əminəm”

*“Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin bərpası üzrə planlarının tam reallaşdırılacağına əminəm”.*

AZƏRTAC xəbər verir ki, bunu Rumıniyanın sabiq Baş naziri Petre Roman “COVID-19-dan sonrakı dünya” mövzusunda keçirilən VIII Qlobal Bakı Forumu çərçivəsində deyib.

İkinci Qarabağ müharibəsinin Azərbaycanın uğurlu Qələbəsi ilə nəticələnməsinə diqqət çəkən sabiq Baş nazir bildirib: “Azərbaycan həmişə düzgün və ədalətli yolla gedib. Ölkəniz BMT Təhlükəsizlik Şurasının qətnamələri və beynəlxalq hüquq çərçivəsində mübarizə aparıb”.

## Ekmeleddin İHSANOĞLU: “Azərbaycan əks-hücum əməliyyatı nəticəsində öz tarixi torpaqlarını işğaldan azad etdi”

*“Mən Qarabağ münaqişəsini hələ İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi olduğum müddətdən izləyirəm və bu problemin tarixini çox yaxşı bilirəm. Ermənistanın törətdiyi son təxribatlara cavab olaraq Azərbaycan əks-hücum əməliyyatı nəticəsində öz tarixi torpaqlarını işğaldan azad etdi”.*

AZƏRTAC xəbər verir ki, bunu İƏT-in 2004-2014-cü illərdə Baş katibi olmuş Ekmeleddin İhsanoğlu deyib.

“Bundan sonra sülh prosesi qarşıdadır. İnanırıq ki, məcburi köçkünlər və qaçqınlar, nəhayət, öz ata-baba torpaqlarına qayıdacaq və onların tapdanmış hüquqları bərpa olunacaq”, - deyə E.İhsanoğlu qeyd edib.

# *Qlobal Bakı Forumu:* Üçüncü paneldə yeni erada sülh, təhlükəsizlik və insan haqlarına dair müzakirələr aparılıb






Noyabrın 4-də VIII Qlobal Bakı Forumu çərçivəsində "Yeni erada sülh, təhlükəsizlik və insan haqları" mövzusunda üçüncü panel iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti xanım Kerri Kennedinin onlayn formatda moderatorluğu ilə keçən panel iclasında insan hüquqları, postkonflikt mərhələdə mülki şəxslərin problemlərinin həlli, onların hüquqlarının təmin edilməsindəki problemlər müzakirə edilib.

Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç qaçqınların sığınacaq aldığı ölkələrdə cəmiyyətlərə tam inteqrasiyasının önəmini qeyd edib. Bildirib ki, bu insanların işləməsi üçün şərait yaradılmalı, cəmiyyət üçün faydalı vətəndaşa çevrilməsi təmin edilməlidir. Onlar yaşadıqları ölkənin vətəndaşlarından fərqli olduqlarını hiss etməməlidirlər. O deyib: "İrq, din, milliyyət baxımından nə qədər fərqli olsaq da, hamımız insanıq. Bu insanlar həssas qrupdandırlar və onların inteqrasiyası üçün yalnız sosial-iqtisadi qərarlar kifayət deyil".

Hər hansı ölkənin daxili işinə müdaxilənin yolverilməz olduğunu söyləyən Kolinda Qrabar-Kitaroviç ümumbəşəri dəyərlərə hörmətlə yanaşmağın vacibliyini qeyd edib.

Bosniya və Herseqovinanın sabiq Prezidenti Mladen İvaniç deyib ki, münaqişələrin həlli üçün tərəflər dərin köklü kompromisə hazır olmalıdır. Birgə çıxış yollarını araşdırmalı və müzakirələr aparmalıdır. O, öz ölkəsinin təcrübəsindən danışaraq qeyd edib ki, Bosniya və Herseqovina bu məsələdə nümunə göstərilə bilər.

İsrailin sabiq xarici işlər naziri Tzipi Livni ölkələr arasında nifrətin, fikir ayrılıqlarının əməkdaşlığı çətinləşdirdiyini deyib. Qeyd edib ki, biz ilk növbədə təhlükəsizlik, daha sonra insan hüquqları barədə düşünməliyik. Müharibə şəraitində insan hüquqları haqqında söhbət edərkən təhlükəsizlik, stabillik nə qədər əldə edilir, bunu düşünməliyik. Sülh və sabitliyin bir-birinə zidd olmadığını söyləyən Tzipi Livni deyib ki, təhlükəsizlik yalnız hərb yolu ilə həll edilmir. Bu, diplomatik üsulla həll edilməlidir ki, sülh davamlı olsun.

Dünya Bankının keçmiş vitse-prezidenti Mats Karlson ölkələrin miqrantları qəbul etməsi üçün daxili sabitliyin, sağlamlığın vacibliyini vurğulayıb. Biz, ilk növbədə, öz cəmiyyətimizi böyütməli, inkişaf etdirməliyik. Bunun üçün ölkədə azad jurnalistika, media çox mühüm əhəmiyyətə malikdir. Öz cəmiyyətimizi inkişaf etdirməyə açıq deyiliksə, miqrantlara da xoş münasibət sərgiləyə bilmərik.

Dünyanın üzləşdiyi sosial-iqtisadi problemlərə də toxunan Mats Karlson zəif və inkişaf etməkdə olan dövlətlərə kömək edilməsinin vacibliyini qeyd edib.

İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi, Sülh dinlərinin həmsədri, Əl-Əzhərin Şeyxi Əhməd Əl-Tayyibin şəxsi nümayəndəsi Məhəmməd Mahmud Əbdülsalam vurğulayıb ki, insan hüquqlarının bərabər olmadığı cəmiyyətdə dayanıqlı sülhdən söhbət gedə bilməz. O bildirib ki, ədalət və sülh anlayışları bir-birindən asılıdır. Yeni öhdəliklərin götürülməsi məsələsinə toxunan Məhəmməd Mahmud Əbdülsalam qeyd edib ki, hazırkı dövrdə dünya COVID-19 pandemiyasından əziyyət çəkir. Biz stabil, ədalətli sülh barədə danışırıqsa, Afrikada əhalinin yalnız 4 faizi vaksinasiya prosesindən keçib. Siyasətçilər bu haqda düşünməlidirlər.

Məhəmməd Mahmud Əbdülsalam onu da deyib ki, BMT-nin baş katibi və üzvləri sosial konsepsiya üzərində çalışırlar. O, sülh gündəminin yaradılması üzərində işlənildiyini, bunun aztəminatlı əhalini, azsaylı xalqları əhatə edəcəyini deyib. Həmçinin bugünkü gənclərdə parlaq gələcək barədə dəyərlərin aşılanmasının əhəmiyyətindən danışıb.

UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis videomüraciətlə çıxışı zamanı Qlobal Bakı Forumunda iştirakdan qürurlandığını söyləyib. Bildirib ki, bu forum dünya üçün vacib olan məsələlərin müzakirəsinə imkan yaradır. Hər bir insanın cinsindən və irqindən asılı olmayaraq hörmətə layiq olduğunu deyən Marianna Vardinoyannis qeyd edib ki, sabitliyə, ədalətə çıxış təhsilə investisiyadan başlayır. Hər bir şəxsin təhsilə əlçatanlığı olmalıdır. O, pandemiyaya qarşı mübarizdə birgə səylərin vacibliyini vurğulayıb, vaksinasiyanın gücləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

BMT-nin Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos Bakı Qlobal Forumunda iştirak etməsinə görə məmnunluğunu ifadə edib. O deyib ki, pandemiya insanları adi həyat tərzindən məhrum edir, onların arasındakı bərabərsizliyi dərinləşdirir. Dinindən, irqindən, milliyyətindən asılı olmayaraq insan hüquqlarını müdafiəsi çox vacib məsələdir. Bu, davamlı prosesdir, dünya bir-birinə hörmətlə yanaşmalıdır.

Migel Anxel Moratinos belə bir forumun təşkilinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkür edib.

Panel iclası müzakirələrlə davam edib.

Qeyd edək ki, VIII Qlobal Bakı Forumu öz işini noyabrın 6-da başa çatdıracaq.

# Nizami Gəncəvi irsi barədə ingilis dilində nəşr edilmiş kitabların təqdimat mərasimi keçirilib







Noyabrın 3-də "Four Seasons" hotelində VIII Qlobal Bakı Forumu çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ingilis dilində nəşr etdirdiyi "Nizami Ganjavi: The Poet and the sage" (Nizami Gəncəvi: Şair və müdrik) və "Nizami Ganjavi's "Seven Beauties" and other Essays on Literature" (Nizami Gəncəvinin "Yeddi gözəl" əsəri və ədəbiyyat barədə digər esselər) kitablarının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, "Nizami Gəncəvi: Şair və müdrik" kitabının müəllifi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının keçmiş vitse-prezidenti İsmail Serageldin, "Nizami Gəncəvinin "Yeddi gözəl" əsəri və ədəbiyyat barədə digər esselər" kitabının müəllifi isə mərkəzin digər həmsədri, Latviyanın sabiq prezidenti Vayra Vike-Frayberqadır.

Təqdimat mərasimində çıxış edən Vayra Vike-Frayberqa pandemiya ilə bağlı məhdudiyyətlərə və çətinliklərə baxmayaraq, beynəlxalq səviyyəli belə bir foruma ev-sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib, Bakının hər gün sürətlə inkişaf etdiyini vurğulayıb.

İsmail Serageldin çıxışında Nizami Gəncəvi ailəsi olaraq göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib. O, nəfis tərtibatda nəşr olunmuş kitabların Nizami Gəncəvinin irsinə bir töhfə olduğunu vurğulayaraq deyib ki, Nizami Gəncəvi yaradıcılığı humanizmi, yüksək sənətkarlıq keyfiyyətləri ilə dünya ədəbiyyatına öz təsirini göstərib.

"Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas istiqamətlərindən biri də Nizami yaradıcılığı ilə bağlı beynəlxalq səviyyədə istinad oluna biləcək kitabların nəşridir. Bu gün təqdim etdiyimiz nəşrlər də bu məqsədə xidmət edir", - deyə müəllif qeyd edib.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-6-da "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu keçirilir. Sayca 8-ci olan Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirlər.

Panellər formasında təşkil olunan tədbir çərçivəsində "COVID-19-dan sonra yaranan yeni dünya nizamı", "Yeni dünya iqtisadiyyatı", "Yeni dövrdə: sülh, təhlükəsizlik və insan hüquqları", "İqlim dəyişikliyi ilə mübarizə və qlobal enerji tələbatının qarşılanması", "Səhiyyə və insanların peyvənd edilməsi", "Qida və qida təhlükəsizliyinin təşviqi", "Gənclər danışır, biz dinləyirik", "Şərq tərəfdaşlığı və onun imkanları" mövzularında, həmçinin Avropa İttifaqı, Balkan regionu və Cənubi Qafqazdakı vəziyyətə dair müzakirələr aparılır.

## *Əmr MUSA:* "Ümid edirik ki, sülh region ölkələrinin gündəliyində birnömrəli məsələ olacaq"



"Biz bu regiondakı dəyişiklikləri yaxından izləyirik. Ümid edirik ki, sülh region ölkələrinin gündəliyində birnömrəli məsələ olacaq".

AZƏRTAC xəbər verir ki, bu fikirləri VIII Qlobal Bakı Forumunda iştirak edən Ərəb Dövlətləri Liqasının sabiq Baş katibi Əmr Musa jurnalistlərə açıqlamasında deyib.

O, Cənubi Qafqaz regionunda sülhün bərqərar olacağına inandıqlarını qeyd edib. Sabiq Baş katib Azərbaycan Prezidenti İlham Əliyevin sülhlə bağlı fikirlərini diqqətlə dinlədiklərini də bildirib.

## *Vayra Vike-FREYBERQA:* "Azərbaycanın pandemiya ilə mübarizəyə verdiyi dəstək həmrəyliyin nümunəsidir"



"Azərbaycanın COVID-19-a qarşı mübarizədə az inkişaf etmiş ölkələrə maliyyə və humanitar yardım göstərməsini yüksək qiymətləndirirəm. Bu, qlobal bəla ilə mübarizədə əməkdaşlığın və həmrəyliyin göstəricisidir".

AZƏRTAC xəbər verir ki, bunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq prezidenti Vayra Vike-Freyberqa bildirib.

O deyib: "Bu gün Prezident İlham Əliyev Qlobal Bakı Forumunda çıxışı zamanı dünyada baş verən proseslərə biganə qalmamağın və beynəlxalq səylərə dəstək verilməsinin vacibliyini diqqətə çatdırdı. Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri də Azərbaycanın pandemiyaya verdiyi töhfələrin əhəmiyyətini vurğuladı. Azərbaycanın pandemiya ilə mübarizəyə verdiyi dəstək həmrəyliyin nümunəsidir".

Qlobal Bakı Forumunun ən aktual məsələləri müzakirə etməyə imkan verdiyini deyən Vayra Vike-Freyberqa tədbirin keçirilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

## *Robert SEKUTA:* "Qlobal Bakı Forumu vaksinasiya problemlərinin həllinə kömək edəcək"



"Qlobal Bakı Forumu qeyri-bərabər vaksinasiya probleminin həlli yollarının tapılmasına kömək edəcək".

Bunu "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumunun iştirakçısı olan ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekuta AZƏRTAC-a müsahibəsində deyib.

O bildirib ki, forumda sabiq prezidentlər və baş nazirlər, nüfuzlu diplomatlar, müxtəlif sahələr üzrə ekspertlər bir araya gələrək üzləşdiyimiz başlıca problemləri müzakirə edirlər. "Biz COVID-19-dan sonrakı dünya haqqında danışırıq. Bizim səhiyyə ilə bağlı problemlərimiz var, iqtisadiyyatda, neft və qazın tədarükündə bəzi qüsurlar mövcuddur. ABŞ-da vaksin kifayət qədərdir, amma Afrikada yalnız üç faiz əhali tam peyvəndlənib. Bunlar həll edilməli olan ciddi problemlərdir və bu platforma bu məsələdə həll yollarını tapmaqda kömək edəcək", - deyə sabiq səfir qeyd edib.

## *Turki Al FAYSAL:* "Prezident İlham Əliyevin uzaqgörən siyasətini və cəsarətini yüksək qiymətləndirirəm"

"Ötən il Azərbaycan Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət və nümayiş etdirdiyi cəsarət sayəsində möhtəşəm nailiyyət əldə etdi. Prezident İlham Əliyevin uzaqgörən siyasətini və cəsarətini yüksək qiymətləndirirəm".

AZƏRTAC xəbər verir ki, bunu Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysal deyib.

"Azərbaycan xalqını qazandığı Qələbə və ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrik edirəm", - deyə Turki Al Faysal bildirib.

# AZƏRTAC Pakistanın aparıcı media qurumları ilə əməkdaşlığı genişləndirəcək

AZƏRTAC Pakistanın aparıcı media qurumları ilə əməkdaşlığı genişləndirmək niyyətindədir.

Bununla bağlı məsələ AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun Azərbaycanda səfərdə olan Pakistan KİV-in rəhbərləri ilə görüşündə müzakirə olunub.

Qeyd edilib ki, dost və qardaş ölkə olan Azərbaycan və Pakistan bütün səviyyələrdə daim bir-birini dəstəkləyir. "Sizin Zəfər günü ərəfəsində Azərbaycana səfəriniz çox simvolikdir. Pakistan Vətən müharibəsi dövründə Azərbaycana çox böyük dəstək verdi. Ordumuz Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi və 30 illik işğala son qoydu. Bu illər ərzində Ermənistan həmin ərazilərdə məscidləri, evləri, bütün infrastrukturu dağıdaraq məhv edib. Siz işğaldan azad edilmiş ərazilərə səfəriniz zamanı bütün bunları öz gözlərinizlə görəcəksiniz. Həmçinin bu ərazilərdə başlanmış genişmiqyaslı quruculuq işlərinin şahidi olacaqsınız", - deyə İdarə Heyətinin sədri bildirib.

Vurğulanıb ki, müharibə günlərində Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında Pakistan mediası böyük rol oynayıb. AZƏRTAC Pakistanın bir sıra media qurumları ilə mütəmadi informasiya mübadiləsi aparır, National Herald Tribune, DND, PPİ və APP kimi informasiya agentliləri ilə sıx əlaqələrə malikdir.

Dispatch News Desk (DND) xəbər agentliyinin baş redaktoru Ağa İqrar Harun bildirib ki, təmsil etdiyi media qurumu artıq üç ildir AZƏRTAC ilə əməkdaşlıq edir,



Azərbaycanda və Pakistanda baş verən hadisələr barədə qarşılıqlı olaraq xəbərlər yayımlanır. "AZƏRTAC ilə əməkdaşlıqdan məmnunuq. Onun xəbərləri operativ və dəqiqdir. Əminəm ki, əlaqələrimiz daha da inkişaf edəcək", - deyə baş redaktor qeyd edib.

National Herald Tribune nəşrinin baş redaktoru Riaz Ahmad Malik deyib ki, uzun illərdir AZƏRTAC ilə xəbər mübadiləsi sahəsində əməkdaşlıq davam edir. O, bundan sonra da əlaqələrin möhkəmlənməsi istiqamətində birgə addımlar atmağa hazır olduqlarını bildirib.

Görüşdə qonaqlara AZƏRTAC haqqında məlumat verilib, agentliyin Dünya Xəbər Agentlikləri Konqresində (NAWC), Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatında (OANA), İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyində (UNA) fəaliyyəti barədə danışılıb. Söhbət zamanı AZƏRTAC-ın Pakistanın media qurumları ilə əlaqələrinin möhkəmləndirilməsi üçün ikitərəfli əməkdaşlıq müqavilələrinin imzalanması ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Pakistanın İslamabad Post, Express, National-Herald Tribune, Pakistan Observer nəşrlərinin, Dispatch News Desk (DND) və Global News Pakistan xəbər agentliklərinin, Pakistan Dövlət Televiziyası və HUM News televiziyasının rəhbərləri və nümayəndələri, həmçinin sosial media fəallarının Azərbaycana səfəri başlayıb. Səfər müddətində onlar Bakıda bir sıra görüşlər keçirəcək və işğaldan azad olunmuş ərazilərə gedəcəklər.

# İrina VLAX: "İnkişaf etməkdə olan münasibətlər hər iki ölkənin xeyrinədir"



Noyabrın 4-də Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizdə səfərdə olan Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun rəhbəri İrina Vlaxın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Adil Əliyev ölkəmiz üçün böyük tarixi əhəmiyyətə malik Zəfər gününün qeyd olunduğu bir vaxtda həyata keçirilən bu səfəri yüksək qiymətləndirib. Ölkələrimiz arasındakı münasibətlərə toxunan Adil Əliyev Azərbaycan və Moldova arasında əlaqələrin dinamik inkişaf etdiyini qeyd edib. O, Qaqauziyada Heydər Əliyev Fondu tərəfindən 650 yerlik məktəbin tikilməsinin iki ölkə arasında dostluq əlaqələrinin bir nümunəsi olduğunu diqqətə çatdırıb. Milli Məclis Sədrinin müavini 2020-ci ildə Moldovada keçirilən seçkiləri müşahidə etmək məqsədilə bu ölkəyə səfər edərkən parlamentdə keçirdiyi görüşləri xatırlayıb, parlamentlərarası əməkdaşlığın genişləndirilməsinin Azərbaycan-Moldova əlaqələrinin inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirib.

Adil Əliyev qonaqlara Azərbaycanın 44 günlük Vətən müharibəsində 30 il ərzində Ermənistanın işğalı altında olan ərazilərini işğaldan azad etməsi və bununla da bölgədə yaranmış yeni reallıqlar və iqtisadi imkanlar barədə də məlumat verib.

Diqqətə çatdırıb ki, ölkəmiz uzun illər münaqişənin sülh yolu ilə həllinə çalışsa da, Ermənistan danışıqlar prosesini pozaraq ardıcıl təxribatlar törədir, münaqişənin həllinin uzadılmasına çalışırdı. Nəticədə isə düşmənin sonuncu belə təxribatının qarşısı alınaraq, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusu tərəfindən əks-hücum əməliyyatlarına başlandı və 44 gün ərzində düşmən ordusu darmadağın edilərək ölkəmizin ərazi bütövlüyü bərpa edildi.

Adil Əliyev Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi Xocalı soyqırımı barədə də qonaqlara geniş məlumat verib.

Səmimi qəbula görə təşəkkürünü bildirən xanım İrina Vlax inkişaf etməkdə olan münasibətlərin hər iki ölkənin xeyrinə olacağını qeyd edərək, Azərbaycanı qazandığı tarixi Zəfərə görə təbrik edib. Qonaq həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Görüşdə iştirak edən Milli Məclisin Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sabir Hacıyev bu cür səfərlərin əhəmiyyətindən danışıb, tarixi Zəfərimizin ildönümündə dostlarımızı ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri erməni nümayəndənin əsassız ittihamlarına tutarlı cavab verib

Noyabrın 3-4-də ATƏT Parlament Assambleyasının payız sessiyası keçirilib. Sessiya öz işinə noyabrın 3-də Daimi Komitənin iclası ilə başlayıb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Daimi Komitənin iclasında Milli Məclis nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın vitse-prezidenti və Cənub Şərqi Avropa üzrə xüsusi nümayəndəsi Azay Quliyev iştirak edib.

Tədbirdə ATƏT PA-nın prezidenti, Baş katibi və xəzinədarının hesabatları təqdim edilib, təşkilatın gələcək fəaliyyəti haqda fikir mübadiləsi aparılıb. İclasın cari beynəlxalq siyasi məsələlərin müzakirəsinə həsr edilmiş hissəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri Azay Quliyev çıxış edib. O, ötən il Ermənistanla Azərbaycan arasında münaqişənin başa çatması ilə regionun bərpa, yenidənqurma və reinteqrasiya mərhələsinə qədəm qoyduğunu bildirib. Bir sıra nailiyyətlərin qazanılmasına baxmayaraq, ciddi çağırışların hələ də mövcud olmasını qeyd edib. Nümayəndə heyətinin rəhbəri diqqətə çatdırıb ki, cari ilin iyulunda Azərbaycan işğaldan azad edilmiş və münaqişədən zərər çəkmiş ərazilərdə yenidənqurma və reinteqrasiya işlərinin vahid proqram çərçivəsində aparılması ilə əlaqədar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yaradıb.

Deputat azad edilmiş bütün şəhər, qəsəbə və kəndlərin Ermənistan tərəfindən 30 illik işğal zamanı talan olunaraq dağıdıldığını diqqətə çatdırıb və hökumətin infrastruktur, bərpa və yenidənqurma işlərinə yalnız bu il ərzində 1,3 milyard ABŞ dolları yönəltdiyini bildirib. O, son 10 ay ərzində Azərbaycanın mühüm regional layihələr reallaşdırdığını vurğulayıb. Cəmi səkkiz ay ərzində işğaldan azad edilmiş Füzuli şəhərində Qarabağın dünyaya açılan hava qapısı kimi fəaliyyət göstərəcək yeni beynəlxalq hava limanının inşa edildiyi, eləcə də daha iki beynəlxalq aeroportun tikintisinin aparıldığı, həmçinin uzunluğu 800 kilometr olan avtomobil yollarının və ümumi uzunluğu 62 kilometr olan 5 tunelin inşası barədə üzv ölkələrin qurumdakı nümayəndə heyətlərinin rəhbərlərinə məlumat verib.

Azay Quliyev bu günlərdə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə Ermənistan vasitəsilə birləşdirəcək Zəngəzur dəhlizinin təməlinin qoyulmasını diqqətəlayiq hadisə kimi qeyd edib. Deputat Azərbaycan hökumətinin hazırda əsas məqsədlərindən birinin ata-baba yurdlarından didərgin düşmüş vətəndaşlarının öz yurd-yuvalarına təhlükəsiz qayıdışının təmin edilməsi olduğunu söyləyib. İşğaldan azad edilmiş ərazilərin Ermənistan tərəfindən minalanmasının bu prosesə böyük əngəl yaratdığını vurğulayıb. Bildirib ki, Ermənistanın bütün mina xəritələrini verməkdən boyun qaçırması nəticəsində 160-a yaxın günahsız şəxs, o cümlədən jurnalistlər həlak olub və ya yaralanıb.

Milli Məclisin deputatı Daimi Komitənin iclasındakı çıxışında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazidə qanunsuz erməni silahlı dəstələrinin hələ də mövcud olmasının sabitliyi təhdid altına saldığını və erməniəsilli Azərbaycan vətəndaşlarının ölkənin siyasi, sosial və iqtisadi həyatına inteqrasiya edilməsinə maneə yaratdığını vurğulayıb. O, üçtərəfli Bəyanatın 4-cü bəndinə əsasən, Ermənistanın qeyd olunan ərazidən qeyri-qanuni silahlı birləşmələrinin qalıqlarını çıxarması öhdəliyini götürdüyünü xatırladıb. Deputat bildirib ki, Azərbaycanın hazırkı postmünaqişə mərhələsində əsas prioritetlərindən biri Ermənistanla dövlət sərhədinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun delimitasiyası və demarkasiyasını həyata keçirməkdir. Azərbaycan həmçinin bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörməti əsasında, o cümlədən bu prinsiplərə əsaslanan sülh müqaviləsinin imzalanması yolu ilə Ermənistanla dövlətlərarası münasibətlərin normallaşmasına hazırdır.

Sonda Azay Quliyev həmkarlarını artıq tarixə qovuşmuş "Dağlıq Qarabağ" və ya qondarma "status" kimi anlayışlara istinad etməməyə çağırıb, eləcə də bu cəhdlərin heç bir müsbət nəticə vermədiyini və reallığı əks etdirmədiyini vurğulayıb. Deputat iclas iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan Respublikasında "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur. Azərbaycan öz suveren hüququna və beynəlxalq təcrübəyə əsaslanaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yaradıb. Deputat hər kəsi ölkəsinin bu legitim haqqına hörmət etməyə çağırıb. O, bu cür cəhdlərin Ermənistana, xüsusən də onun revanşist dairələrinə yanlış siqnal göndərdiyini, onlarda səhv ümid və gözləntilər yaratdığını, eləcə də üçtərəfli Bəyanatın imzalanması ilə regionda yaranmış kövrək sülhü təhdid altına saldığını vurğulayıb. Eyni zamanda Ermənistanı Azərbaycanın sülh təklifinə adekvat cavab verməyə, qonşuları ilə münasibətləri normallaşdırmağa çağırıb.

İclasın davamında Ermənistan nümayəndə heyətinin yeni rəhbəri Eduar Ağacanyan ölkəmizə qarşı əsassız ittihamlar səsləndirib.

Azay Quliyev təkrar söz alaraq erməni nümayəndə heyətinin rəhbərinin əsassız ittihamlarına tutarlı cavab verib. Deputat erməni həmkarını köhnəlmiş və artıq heç bir mənası olmayan narrativlərdən əl çəkməyə çağırıb, ermənilərin təbliğat məqsədilə istifadə etdiyi böhtan və yalan xarakterli çıxışlarının artıq ikrah və gülüş hissi doğurduğunu bildirib. Azay Quliyev Ermənistan nümayəndə heyətinin yeni rəhbərinin əvvəlki həmkarının səhvlərini təkrar etməməyə, konstruktiv olmağa və parlament dilini öyrənməyə səsləyib.

# Baş katib: "İƏT PA bölgədə sülhün bərqərar olması istiqamətində Azərbaycanın atdığı addımları alqışlayır"

Vətən müharibəsində Azərbaycan xalqının qazandığı möhtəşəm Qələbənin birinci ildönümü münasibətilə xarici ölkələrin dövlət rəsmilərindən, parlament təmsilçilərindən, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərindən Milli Məclisin ünvanına təbrik məktubları gəlməkdə davam edir.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Muhammed Xurayçi Niyas Milli Məclisin Sədri Sahibə Qafarovaya ünvanladığı məktubda Azərbaycan parlamentinin sədrini Ermənistanla 30 illik münaqişədə qazandığımız Qələbə münasibətilə təbrik etməkdən məmnunluq duyduğunu vurğulayıb.

Baş katib təbrik məktubunda qeyd edib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament Assambleyası artıq tarixə qovuşmuş həmin münaqişədə daim Azərbaycanın yanında olub, konfranslarında onun haqlı mövqeyini dəstəkləyən bəyanatlar verib. Vurğulayıb ki, ölkəmizin haqlı mövqeyini dəstəkləyən BMT Təhlükəsizlik Şurası da həmin münaqişə ilə bağlı qətnamələr qəbul edərək Ermənistanı özünün silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmağa çağırıb.

Muhammed Xurayçi Niyas bölgədə sülhün bərqərar olması istiqamətində Azərbaycan tərəfindən atılan addımları alqışladıqlarını bildirib.

Uca Allahdan Azərbaycanda sülhün və sabitliyin hökm sürməsini, xalqımızın bolluq və firavanlıq içində yaşamasını dilədiklərini vurğulayıb.

# Milli Məclislə UNICEF arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Noyabrın 4-də Milli Məclisdə Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev UNICEF-in Azərbaycan nümayəndəliyinin yeni rəhbəri Aleks Haykens ilə görüşüb.





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Bəxtiyar Əliyev hələ ötən əsrin 90-cı illərindən etibarən BDU-nun psixologiya kafedrasının xətti ilə UNICEF ilə əməkdaşlıq etdiklərini, birgə səylərlə Azərbaycanda məcburi köçkünlərin psixoloji reabilitasiyası proqramını hazırlayaraq həyata keçirdiklərini, yeniyetmə məcburi köçkünlərin psixoloji vəziyyəti ilə bağlı araşdırmalar apararaq tövsiyələr hazırladıqlarını bildirib. Hazırda münaqişəyə son qoyulduğunu, ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu və dağıdılmış ərazilərin ağıllı şəhər, ağıllı kənd konsepsiyası əsasında qurulduğunu deyib. 30 ilə yaxın işğal altında qalmış doğma Ağdam şəhərində Azərbaycan Prezidenti tərəfindən böyük tarixi olan 1 saylı ümumtəhsil məktəbinin təməlinin qoyulduğunu, qarşıdakı illərdə əhalinin doğma yurd yerlərinə qayıdışının və məskunlaşmasının baş tutacağını qeyd edib.

Milli Məclisin komitə sədri işğaldan azad olunmuş bölgələrdə çoxlu sayda orta və peşə təhsili məktəbləri, Qarabağ universiteti, innovasiyalar mərkəzləri yaradılacağı barədə qonağı məlumatlandırıb. Qeyd edib ki, həmin ərazilərdə elm və təhsilin yeni infrastrukturunun yaradılması həm məktəbəqədər, həm də məktəb təhsilinin yüksək səviyyədə təşkili üçün kadr hazırlanmasına da geniş imkan yaradacaq.

Bəxtiyar Əliyev Milli Məclislə UNICEF arasında geniş spektrdə əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb. Azərbaycan tərəfdən ratifikasiya edilmiş konvensiyaların milli qanunvericilikdə implementasiyası istiqamətində mühüm addımlar atıldığını, yeni qanun layihələrinin hazırlanıb qəbul olunduğunu, xüsusilə sağlamlıq imkanları məhdud şəxslərin təhsili ilə əlaqədar inklüziv təhsilin həyata keçirilməsi üçün qanunvericiliyə əhəmiyyətli dəyişikliklər edildiyini bildirib. Yeni çağırışlarla bağlı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminlik ifadə edib.

UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Haykens birgə fəaliyyət sayəsində ölkəmizdə əldə olunmuş uğurları yüksək dəyərləndirib. Bir sıra istiqamətlərdə Azərbaycanın təcrübəsinin digər ölkələrdə yayılması vacibliyindən danışıb. Münaqişənin və pandemiyanın son 2 ildə yaratdığı çətinliklərə toxunub. Postmüharibə dövründə ölkəmizdə reallaşdırmaq istədikləri layihələr barədə məlumat verib. İnklüziv təhsil, məktəbəqədər təhsil, sosial biznes modeli, uşaqların erkən inkişafı, ANAMA ilə əməkdaşlıqları və digər layihələrdən söhbət açıb.

Aleks Haykens Milli Məclisin Elm və təhsil komitəsi ilə əməkdaşlığı vacib saydıqlarını vurğulayıb.

* * *

Həmin gün Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova ilə UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Haykens arasında görüş keçirilib.

UNICEF ilə ölkəmiz arasında sıx əməkdaşlıq əlaqələrinin olduğunu vurğulayan Hicran Hüseynova vaxtilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin məhz bu qurumun tövsiyələrinə əsasən genişləndirilərək ailə və uşaq məsələlərini də əhatə etdiyini bildirib. Uzun illər rəhbərlik etdiyi həmin komitədə UNICEF-lə birgə həyata keçirdikləri layihələrdən danışıb.

Milli Məclisin komitə sədri uşaq hüquqları ilə bağlı bütün mühüm məsələlərin Azərbaycan qanunvericiliyində əhatə olunduğunu qeyd edib. Dövr dəyişdikcə meydana gələn yeni problemlərin qanunla tənzimlənməsinə parlamentdə hər zaman ciddi diqqət yetirildiyini bildirib. Uşaqlarla bağlı yeni çağırışlarla əlaqədar bir çox tövsiyələrin müəllifinin Azərbaycanın birinci xanımı, uzun illər millət vəkili olmuş Mehriban xanım Əliyevanın olduğunu vurğulayıb, onun təqdimatına əsasən qanunvericilikdə edilmiş dəyişikliklərdən danışıb. Müxtəlif ölkələrlə təcrübə mübadiləsi aparılmasının əhəmiyyətini yüksək dəyərləndirib.

Hicran Hüseynova Azərbaycanın təcrübəsini bölüşmək üçün UNICEF-in gələn ay keçirməyi planlaşdırdığı regional konfransda həmkarları ilə birgə məmnunluqla iştirak edəcəklərini bildirib. Uşaq strategiyasının hazırlanması, uşaqların erkən inkişafı ilə əlaqədar mövcud resursların düzgün koordinasiya edilməsi, uşaqların müdafiəsi, internetə çıxışa geniş imkanların olduğu ölkəmizdə uşaqların zərərli məlumatlardan qorunması və digər mühüm məsələlər barədə fikirlərini bölüşüb.

Görüşdə UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Haykens indiyə qədər olan dövrdə əməkdaşlıq əlaqələrinin nəticələrini müsbət dəyərləndirib. Eyni tempdə davam etmək üçün parlamentlə əməkdaşlığın, o cümlədən Ailə, qadın və uşaq məsələləri komitəsi ilə əməkdaşlığın davam etdirilməsi zərurətini vurğulayıb. UNICEF-in xətti ilə ölkəmizdə həyata keçirmək istədikləri layihələrdən danışıb.

Oktyabr ayında UNICEF-in Azərbaycanın Təhsil Nazirliyi və Minatəmizləmə Agentliyi olan ANAMA ilə birgə tərəfdaşlıq şəraitində ölkəmizin Qarabağ bölgəsi və ətraf ərazilərində münaqişədən zərər çəkmiş uşaqları və ailələri partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmək, məlumatlandırmaq üçün Birgə Fəaliyyət Planı imzaladıqlarını, bu sahədə tərəfdaşlığın 2022-ci ilə qədər genişləndirildiyini bildirib.

Qarşıdan gələn Zəfər günü ilə bağlı təbriklərin səsləndiyi bugünkü görüşlərdə Milli Məclis ilə UNICEF arasında birgə layihələr çərçivəsində gələcək fəaliyyət istiqamətləri müzakirə olunub.

# Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin onlayn iclası olub

Noyabrın 4-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin onlayn iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, komitənin sədri Sadiq Qurbanov iclası açaraq gündəliyi təqdim edib. Bildirib ki, komitənin müzakirəsinə Su Məcəlləsində, Gömrük Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) çıxarılıb. Sənəd "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanıb. Həmin qanun layihəsinə əsasən, dövlət rüsumunun məbləğləri və ödənilməsi qaydası ilə bağlı məsələlər "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilməlidir. Bu məqsədlə bir sıra hüquqi hərəkətlərə və xidmətlərə görə dövlət rüsumlarında dəyişikliklər müəyyənləşib.

Qanun layihəsinin müzakirələrində komitə üzvləri Nəsib Məhəməliyev, İltizam Yusifov, Naqif Həmzəyev, Fatma Yıldırım, Əliabbas Salahzadə çıxış ediblər. Onlar bütövlükdə qanun layihəsini dəstəklədiklərini bildiriblər.

Qeyd olunub ki, təkcə rüsumlarla bağlı olmayan dəyişikliklərdə həm də faydalı qazıntılardan, su ehtiyatlarından səmərəli istifadə kimi məsələlər də öz əksini tapıb.

İclasın sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Onlayn iclasda Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri Afət Həsənova və Məşhur Məmmədov da iştirak ediblər.

# Milli Məclisdə məişət zorakılığına qarşı mübarizə ilə bağlı "dəyirmi masa" keçirilib

Noyabrın 4-də Milli Məclisdə "Məişət zorakılığına qarşı mübarizə: beynəlxalq öhdəliklər və milli mexanizmlər (Türkiyə və Azərbaycan təcrübəsi)" mövzusunda "dəyirmi masa" keçirilib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirin moderatoru Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı türkiyəli qonaqların da qatıldığı tədbirin Zəfər günü ərəfəsinə təsadüf etməsini əlamətdar hadisə adlandırıb. Azərbaycan və Türkiyənin bu gün bir çox sahələrdə ortaq layihələr həyata keçirdiyini deyən Məlahət İbrahimqızı dövlət başçılarının əsasını qoyduğu bu ənənənin parlamentlər səviyyəsində də davam etdirildiyini vurğulayıb. Qadınlara qarşı zorakılığın müasir dövrün ən aktual problemlərindən biri olduğunu qeyd edən deputat tədbirin Türkiyə və Azərbaycan parlamentləri arasında məsələ ilə bağlı təcrübə mübadiləsinin aparılmasına həsr olunduğunu bildirib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda zorakılığa qarşı mübarizənin qanunvericilik bazasının yaradılması istiqamətində görülən işlərdən, bu işdə Birinci vitse-prezident xanım Mehriban Əliyevanın təşəbbüslərindən söz açıb. O, Türkiyə və Azərbaycanın oxşar ailə modellərinə diqqət çəkib, ailədaxili zorakılığın səbəblərinin ciddi araşdırılmasına ehtiyac olduğunu vurğulayıb və bugünkü tədbirin də həmin məqsədə xidmət edəcəyinə inamını bildirib.

Tədbirdə Türkiyə Böyük Millət Məclisinin Qadınlara Qarşı Şiddətin Araşdırılması Komissiyasının rəhbəri, AK Parti Mərkəzi Qərar və İdarə heyətinin üzvü Öznur Çalık qadınlara qarşı zorakılıqla bağlı təqdimatla çıxış edib.

Komissiyasının rəhbəri təqdimatında qadına qarşı zorakılıqla mübarizə sahəsində Türkiyədə görülən işlərdən, qanunvericilik bazasından, qadın iştirakçılığının artırılmasından danışıb. Öznur Çalık qadına qarşı şiddətin növlərindən, səbəblərindən, şiddətin qadınlara təsirindən, müşahidə olunan simptomlarından bəhs edib. Qadınların əsasən ailələrdə zorakılığa məruz qaldığını, şiddətin ailə fərdlərinə, xüsusən uşaqlara mənfi təsir göstərdiyini vurğulayıb. Qadına qarşı cinayətlərlə və şiddətlə mübarizənin dövlət siyasəti halına gətirməyin önəmini qabardan qonaq şiddətə məruz qalan qadınların qorunması tədbirlərinin vacibliyindən, bu sahədə dövlət qurumlarının üzərinə düşən məsuliyyətdən danışıb.

Tədbirdə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Azərbaycanda məişət zorakılığına qarşı mübarizənin hüquqi əsasları mövzusunda çıxış edib. Deputat Azərbaycanda məişət zorakılığına qarşı mübarizənin normativ-hüquqi bazasının istiqamətlərindən, gender bərabərliyi sahəsində əldə edilən müsbət nəticələrdən bəhs edib.

Ölkəmizdə qadın və uşaq hüquqlarının qorunmasının dövlət siyasətinin prioritetlərindən olduğunu deyən Əminə Ağazadə aparılan institusional islahatlar, qadınların cəmiyyətin bütün sahələrində fəallığının artırılması üçün görülən işlər barədə məlumat verib.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquq departamentinin müdiri Taliyə İbrahimova isə "Qadınlara qarşı zorakılıq insan hüquqları kontekstində" mövzusu ətrafında danışıb. Bu sahədə Azərbaycandakı ümumi vəziyyətin təsvirini verən Taliyə İbrahimova məişət zəminində törədilən cinayətlərin strukturu, müraciətlərin araşdırılması, zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmini, tibbi, hüquqi və sosial yardımların göstərilməsi, həmçinin Azərbaycan Respublikasında Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planının istiqamətləri barədə tədbir iştirakçılarına məlumat verib.

"Dəyirmi masa"da TBMM-in Səhiyyə, ailə, əmək və sosial işlər Komissiyasının üzvü Tuba Vural Çokal, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, komitənin üzvü Tamam Cəfərova çıxış ediblər, gender bərabərliyi, qadın hüquqlarının müdafiəsi, məişət zorakılığı ilə mübarizə barədə fikirlərini bildiriblər.

Yekunda məişət zorakılığına qarşı mübarizə üzrə Azərbaycan və Türkiyə arasında təcrübə mübadiləsinin genişləndirilməsinin, parlament səylərinin birləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, deputatlar Məzahir Əfəndiyev, Nigar Arpadarai, Sevil Mikayılova, Könül Nurullayeva, Jalə Əhmədova, Fatma Yıldırım, Afət Həsənova, Bəhruz Məhərrəmov, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və digər rəsmi şəxslər iştirak ediblər.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Tariximizin böyük qüruru



Xalqımızın başı üstündə son iki yüz ildə qara buludlar dolanmışdır. Bu müddət ərzində vətənimizə hərisliklə baxanlar ermənilərdən bir vasitə kimi istifadə edərək, öz çirkin niyyətlərini həyata keçirmək, sərvətlərimizə sahib olmaq üçün müxtəlif yollara əl atmışlar. Sovet rejimi laxlamağa başlayandan - 1987-ci ildən isə Azərbaycanı tamamilə ələ keçirmək üçün yeni planlar quruldu. Erməniləri yenə bir alət olaraq hərəkətə gətirdilər.

XX əsrin sonlarına yaxın Ermənistan adlandırılan ərazidə əsrlər boyu yaşayan azərbaycanlılara təzyiqlər başladı. Xeyli insan vəhşicəsinə öldürüldü. Qalanlar kütləvi şəkildə, son nəfərə qədər öz ata-baba torpaqlarından sıxışdırılıb çıxarıldı. Bakıda qanlı Yanvar faciəsi baş verdi. Xalq böyük bir faciə, psixoloji gərginlik içərisində yaşamağa məcbur oldu. Min illər boyu yaşadığı vətən torpaqlarının yenidən itirilməsi təhlükəsi yarandı. Azğınlaşmış məkrli qonşular fürsətdən istifadə edərək torpaqlarımızı zəbt etmək üçün tarixdə görünməmiş vasitələrə əl atdılar. Qadınlardan, körpələrdən, yaşlı insanlardan ibarət minlərlə insanı əsir götürdülər, başlarına görünməmiş müsibətlər açdılar, işgəncələr verdilər.

Ötən əsrin doxsanıncı illərində Yer üzü özünün etinasızlıq, Azərbaycana qarşı ögeylik dövrünü yaşayırdı. Kimlərsə müsəlman, kimlərsə türklər yaşayan ölkə kimi burada baş verənlərə əhəmiyyət vermirdi. Böyük güclər öz planlarını həyata keçirmək üçün yeni ssenarilər düşünürdülər. Vətənimiz tarixi bir faciənin uçurumu qarşısında idi. Minlərlə fədakar, vətənpərvər oğullar döyüşlərə atılır, bu uçuruma düşməyimizin qarşısını almaq üçün özlərini qurban verirdilər. Yaşından, peşəsindən, vəzifəsindən asılı olmayaraq hər kəs nəsə etmək istəyirdi. Amma yağı düşmən çox arxalı idi. Ümidlə baxdığımız güc mərkəzləri, beynəlxalq təşkilatlar Azərbaycanda baş verənləri seyr edir, üzdə erməniləri tənqid edir, arxada isə onlara kömək göstərirdilər. Mənasız müzakirələr aparılır, görüşlər təşkil edilir, qurumlar yaradılır və bununla vaxt uzatmağa çalışırdılar. Azərbaycan xalqını öz faciəsi ilə barışdırmaq ümidi ilə hər dəfə bir yeni bəhanə axtarırdılar.

1991-ci ildə Azərbaycanın dövlət xadimlərinin bir hissəsi Qarakənd üzərində vertolyotda məhv edildi. 1992-ci ildə tarixin dəhşətli bir hadisəsi - Xocalı qətliamı baş verdi. Xəstə insanları yataqda, anaları körpələrinin gözü qarşısında güllələdilər. Şaxtalı, qarlı havada ayaqyalın, yüngül paltarda qaçan insanların dalınca düşüb öldürdülər, əsir götürdülər. Ətraf kəndlər içərisində böyük qorxu yaratmaq məqsədilə meyitlərin belə başına min oyun açdılar - onları bir daha güllələdilər, başlarını əzdilər, dərilərini soydular... Amma dəhşət nə qədər çox olsa da, düşmən arzusuna çata bilmədi. Xalqımızın iradəsi, milli ruhu buna imkan vermədi.

Xalqımıza bu amansız mübarizədə inam verən insan görkəmli dövlət xadimi Heydər Əliyev idi. Təəssüf ki, həmin dövrlər onun özünə qarşı da mənfur planlar qurulurdu. Bu planlar xalqımıza qarşı qurulan işğalçı siyasətlərin tərkib hissələrindən biri idi. Onun 1990-cı il yanvar hadisələri zamanı Moskvada, Azərbaycan nümayəndəliyində xalqın dəyərli övladlarını başına yığaraq bütün dünya ictimaiyyətinə səslənməsi düşməni narahat etdi. Bununla da ona qarşı olan təzyiqlər daha da artdı. Bütün məkrli planlara baxmayaraq, böyük siyasətçi Azərbaycana qayıda bildi. Amma Moskvanın qorxusundan ovaxtkı rəhbərlik ona paytaxtda məskunlaşaraq düşmənlə mübarizə aparmasına, xalqına kömək etməsinə imkan vermədi. Heydər Əliyev doğulduğu torpağa, Naxçıvana getməyə məcbur oldu.

Dahi Heydər Əliyevin ən böyük üstünlüklərindən biri bu idi ki, o, dünyada gedən proseslərin mahiyyətini çox gözəl bilirdi. Siyasi axının hansı istiqamətdə, hansı güclə getdiyini hər kəsdən yaxşı hiss edirdi. Hansı vacib işlərin görülməsinə nə qədər ehtiyac olduğunu bilirdi. Amma bir müddət ona öz xalqını müdafiə etmək üçün imkan verilmədi.

1993-cü ilin may-iyun aylarında Azərbaycanda ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Düşmən Azərbaycanın parçalanması üçün böyük bir oyun oynayırdı, məkrli ssenarisini həyata keçirirdi. 1993-cü il iyun ayının 9-da Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya gəldi, Ali Sovetin Sədri seçildi. Heydər Əliyev gəlişi ilə xilaskarlıq missiyasını uğurla yerinə yetirdi, Azərbaycan məkrli düşmənlərin caynağından qurtuldu. Onlar başa düşdülər ki, artıq Azərbaycana təzyiq edib onun istədikləri kimi yönləndirə bilməyəcəklər. Çünki qarşılarında böyük, qüdrətli, vətənpərvər siyasətçi Heydər Əliyev dayanmışdı. Məhz bundan sonra xalqımızın ölkənin sabahına inamı bərpa olundu.

Ulu Öndər əmin-amanlıq yaratdı, insanlar özlərini rahat, təhlükəsiz hiss etməyə başladılar. Xarici ölkələrlə, güc mərkəzləri ilə əlaqələr yaradıldı. Ulu Öndər əlində xəritə tarixi həqiqətləri dünya birliyinə çatdırdı. Ölkənin özünü toparlaması, ayağa qalxması üçün zəruri olan iqtisadi resurslarımız hərəkətə gətirildi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan neft sazişi imzalandı. Azərbaycan Ordusu yenidən quruldu. Bununla da tarixi zəfərə gələn yolla bir qədər də inamla irəliləməyə başladıq.

2003-cü ildə xalqımız Heydər Əliyev məktəbini keçmiş İlham Əliyevi özünə rəhbər seçdi. Heydər Əliyevin layiqli siyasi davamçısı olan İlham Əliyev ölkənin taleyi üçün hansı işin harada yarımçıq qaldığını, dostumuzun, düşmənimizin kim olduğunu çox yaxşı bilirdi. Onun hakimiyyəti dövründə Heydər Əliyevin özülünü qoyduğu işlər bəhrə verməyə başladı. Neft sahəsi ölkəyə böyük gəlirlər gətirməyə başladı.

Neftdən gələn gəlirlər ölkənin inkişafı ilə yanaşı, hərbi potensialımızın güclənməsinə yönəldildi. Dost ölkələrlə əlaqələrimizə xüsusi diqqət yetirildi. Düşmən mövqeyində olanları neytrallaşdırmaq sahəsində uğurlu tədbirlər görüldü. Ölkəmiz ətrafında qurulan informasiya blokadaları dağıdıldı. Ölkədə milli həmrəylik gücləndi, insanlar İlham Əliyevin ətrafında daha sıx səfərbər oldular.

30 ilə yaxın bir dövrdə baş verənlər göstərdi ki, bir sıra dövlətlər, beynəlxalq təşkilatlar üzdə beynəlxalq prinsiplərə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıdıqları halda arxada əleyhimizə iş aparırlar. Onlar hər vəchlə vaxtı uzadaraq Azərbaycan xalqını məğlubiyyətlə barışdırmağa çalışırdılar. Prezident, Ali Baş Komandan İlham Əliyev belə çirkin - ikili siyasəti tənqid edir, onları haqqın, ədalətin, beynəlxalq qanunların yanında olmağa çağırırdı.

Düşmənin Qarabağdakı siyasi şoularına təmkinlə dözən rəhbərimiz arxada ciddi şəkildə taleyüklü müharibə üçün lazımi hazırlıqlar gördü. Azğınlaşmış düşmənsə torpaqlarımızı işğal edəcəyi barədə sərsəmləməyə başlamışdı. Bizi Bakıya qədər gələcəkləri ilə hədələyirdilər. 2020-ci ilin iyul ayında düşmən dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törətdi, hərbçilərimiz, general Polad Həşimov şəhid oldu.

Sentyabrın 27-də düşmən bir daha təxribat törədəndə Ali Baş Komandanımız əks-hücum əmrini verdi. Bu günü gözləyən müzəffər ordumuz döyüşlərə başladı. Təkcə ordumuz yox, bütün ölkə bu istiqamətdə səfərbər oldu. Arxa cəbhədə də hər kəs əlindən gələni etməyə başladı. Xüsusilə döyüş bölgələrinə yaxın olan əhali ordumuza hər cür kömək etmək üçün fədakarlıq göstərdi.

Müharibənin 44 gündə möhtəşəm qələbəmizlə başa çatmasında xalqımızın öz rəhbərinə inamı, sevgisi böyük rol oynadı. Prezident İlham Əliyevin müharibə dövründə xarici jurnalistlərə verdiyi müsahibələr böyük uğur qazanmağımızda əvəzsiz rol oynadı. Bu müsahibələr İlham Əliyevi həm də dünya ictimaiyyətinə, güc mərkəzlərinə daha yaxşı tanıtdı. Prezident İlham Əliyevin rəşadətli bir sərkərdə kimi savaşa başçılıq etməsi göz qabağında idi. Müharibənin dayandırılmasını tələb edənlər qarşısında nümayiş etdirdiyi böyük iradə, beynəlxalq təşkilatlarda əleyhimizə qərarlar qəbul edilməsinin, düşmənə silah daşınmasının qarşısının alınması üçün göstərdiyi fəaliyyət dövlətimizin başçısının nüfuzunu daha da artırdı. Onun bu fəaliyyəti ordumuzu daha da ruhlandırdı, daha möhtəşəm qələbələrə köklədi. Demək olar ki, hər gün yeni-yeni ərazilər düşməndən azad edilirdi. Ali Baş Komandan hər gün bu barədə öz xalqına sevinclə məlumat verirdi. Şuşa böyük rəşadətlə alındıqda isə Ali Baş Komandan Ulu Öndərimizin məzarı üzərinə gedib raport verdi, xalqımızın sevincini ona da çatdırdı.

Bu qələbə təkcə torpaqlarımızı bizə qaytarmadı. Həm də xalqımızı bütün dünyaya yenidən tanıtdı. Hər kəs xalqımızın öz torpaqları yolunda böyük məhəbbətlə vuruşduğunun şahidi oldu. Şuşanın alınması hərb tarixində misli görünməmiş bir hadisə oldu.

Xalqımız öz torpaqlarını azad etdi. İki yüz ildə ilk dəfə itirilmiş torpaqlarımızı böyük qəhrəmanlıqla geri aldı. Bu zəfər bayramı tarixi inkişafımızda, yüksəlişimizdə yeni mərhələnin uğurlu başlanğıcı oldu.

***Habil QURBANOV,***
***AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmlər doktoru, professor***

# Böyük Qələbənin qızıl amnistiyası

## İlham Əliyevin bu təşəbbüsü 15 mindən çox insana şamil olunacaq

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı bu addımları ilə törətdiyi əməldən səmimi peşmançılıq hissi keçirən günahkar şəxslərin islah olunaraq düz yola qayıtması, onların cəzaçəkmə müəssisəsindən çıxdıqdan sonra layiqli vətəndaş kimi azad cəmiyyətə qovuşması, bir daha cinayət əməli törətməməsi üçün lazımi tədbirlər görür, minlərlə məhkuma yenidən azadlıq bəxş edir.

Əfv sərəncamlarının verilməsi dövlətin üzərinə qoyulmuş bir vəzifə deyil. Bu, dövlətin humanist, insan hüquqlarına hörmət siyasətinin təzahürüdür.

Təbii ki, cinayət cəzasız qalmamalıdır. Hər bir cinayətin cəzası olmalıdır. Cəza hüququnun reallaşdırılmasında belə ədalətə söykənmək Heydər Əliyev humanizm siyasətinin əsas qayələrindən biridir. Bu siyasətin nəticəsi olaraq Ulu Öndər tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb. Bunun nəticəsində 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad ediliblər. Həmçinin 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan edilib. Amnistiya aktları törətdiyi cinayət əməlindən səmimi peşmançılıq hissi keçirən 78 mindən çox insana şamil edilib, 21 min 325 nəfər cəzasının çəkilməmiş hissəsindən azad olunub.

Ulu Öndərin humanizm siyasətinin daha bir göstəricisi olaraq Azərbaycanda 1993-cü ildən ölüm hökmünün icrası dayandırılıb. Faktiki olaraq bu cəzanın icrasına moratorium qoyulub, sonrakı illərdə tamamilə ləğv olunması istiqamətində bir sıra addımlar atılıb. 1998-ci ildə isə Heydər Əliyev humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü tamamilə ləğv edilib.

Dahi şəxsiyyətin möhkəm təməllər üzərində əsasını qoyduğu siyasətin varisliyini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyətini təmin edib.

Prezident İlham Əliyev tərəfindən və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan əfv və amnistiya aktları bu günə qədər neçə-neçə ailəyə sevinc bəxş edib. Dövlət başçısının 18 ildə əfvlə bağlı imzaladığı sərəncamlar Azərbaycanda insan hüquqlarının etibarlı təminatına və demokratikləşməyə xidmət edən strateji siyasi kursun layiqincə davam etdirildiyini göstərir.

Son 18 ildə Prezident İlham Əliyev 35 əfv sərəncamı imzalayıb. Milli həmrəyliyə istiqamətlənmiş bu humanist addımlar ümumilikdə indiyədək 10 minə yaxın şəxsi əhatə edib. 2003-2021-ci illərdə Azərbaycanda həm də 4 dəfə amnistiya elan edilib. Yeni ümumilikdə müstəqillik dövründə Azərbaycanda 11 aministiya aktı, 67 əfv sərəncamı imzalanıb.

### Azərbaycan tarixinin ən böyük amnistiya aktı

Mütəmadi olaraq əfv sərəncamlarının imzalanması, amnistiya aktlarının qəbul olunması dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir. Əfv olunan vətəndaşlar dövlətin onlara olan inam və etibarını daim hiss edirlər, bu isə onları layiqli vətəndaş olmağa həvəsləndirir.

Eyni zamanda onlar minlərlə insanı əhatə edən əfv sərəncamlarına və amnistiya aktlarına, humanist addımlara görə İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildirirlər. Azərbaycan ictimaiyyətinin nümayəndələri humanizm nümunəsi olan bu addımları olduqca yüksək qiymətləndirir.

Ölkəmizdə amnistiya aktlarının məhz Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən hazırlanıb Milli Məclisə təqdim edilməsi xalqımız və cəmiyyətimiz tərəfindən alqışlanan dəyərli ənənəyə çevrilib. Onun amnistiya təşəbbüsləri ölkəmizdə hüquq siyasətinin liberallaşdırılmasına, məhkumların sayının azaldılmasına gətirib çıxaran vacib amilə çevrilib. Belə təşəbbüslər həmçinin ölkəmizdə ictimaiyyətin xoş ovqatının daha da yüksəlməsinə böyük töhfəsini verir.

Vətən müharibəsində qazanılmış tarixi zəfərin birinci ildönümü ilə bağlı bu qələbənin memarı olan Ali Baş Komandan İlham Əliyevin Milli Məclisə təqdim etdiyi yeni amnistiya aktı isə Azərbaycan tarixinin ən böyük əfv sənədidir.

Bu aktın ümumilikdə 15 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 3 mindən çox şəxsin azad ediləcəyi, habelə 3 minədək şəxsin cəzalarının çəkilməmiş hissəsinin azaldılacağı proqnozlaşdırılır.

Sənəd artıq Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə edilərək plenar iclasa tövsiyə olunub. "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsi ənənəvi olaraq preambula və 4 hissədən ibarətdir. Preambulada çox ciddi arqumentlər səslənir və amnistiyanın zərurəti vurğulanır. Sənəddə amnistiya tətbiq edilən şəxslərin dairəsi, aktın hüquqi qüvvəsi və tətbiqi qaydaları öz əksini tapıb.

Qeyd edək ki, parlament tərəfindən sonuncu amnistiya 2016-cı ildə qəbul olunub. Amma bu amnistiyanı şərtləndirən ən vacib məqam onun Zəfər Gününə - 8 Noyabr tarixinə həsr olunmasıdır. Amnistiyanın preambulasında da qeyd olunduğu kimi, Vətən müharibəsindəki qələbə Azərbaycan xalqının özünə inamını, güvənini daha da artırıb, Azərbaycan dövlətçiliyini daha da gücləndirib. Belə bir mərhələdə amnistiyanın elan olunması Ulu Öndər Heydər Əliyevdən başlayaraq ölkəmizdə həyata keçirilən humanizm siyasətinin yenə də davam etdiyinin göstəricisidir. Bu amnistiya isə Azərbaycan cəmiyyətinin insan hüquqlarına, haqqa-ədalətə inamını daha da möhkəmləndirəcək.

### Yeni amnistiya kimlərə şamil olunacaq?

Zəfər Günü münasibətilə hazırlanan amnistiya aktı şamil edilməsi gözlənilən şəxslərin sayına, cinayətlərin və cəzaların əhatə dairəsinə görə tariximizin ən böyük amnistiyası olacaq. Bunu aktın şamil olunacağı şəxslərin əhatə dairəsinə nəzər yetirdikdə aydın şəkildə görmək olar.

Böyük amnistiyanın əhatə dairəsi:

** Vətən müharibəsində və Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə, habelə bu müharibədə və döyüş əməliyyatlarında həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;*

** Vətən müharibəsində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə Azərbaycanın orden və medalları ilə təltif olunmuş şəxslər;*

** Xocalı soyqırımında əlil olmuş şəxslər, həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, 1948-1953-cü və 1988-1992-ci illərdə etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunan şəxslər;*

** 1988-1993-cü illərdə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı nəticəsində öz doğma torpaqlarından məcburi köçkün düşən şəxslər, 1990-cı il 20 Yanvar faciəsində əlil olmuş şəxslər və ya şəhid olan şəxslərin yaxın qohumları;*

** Azərbaycan Respublikasının, habelə keçmiş SSRİ-nin Silahlı Qüvvələri tərkibində beynəlmiləl borcunu yerinə yetirmiş və ya sülhməramlı əməliyyatlarda iştirak etmiş şəxslər, həmçinin həmin vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;*

** İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə iştirak etmiş, eləcə də həmin dövrdə keçmiş SSRİ-nin Silahlı Qüvvələrində və arxa cəbhədə xidmət etmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada bunlara bərabər tutulan şəxslər, həmçinin bu döyüşlərdə həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, habelə keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuş şəxslər;*

** Keçmiş SSRİ dövründə siyasi repressiyaya məruz qalmış, sonradan səlahiyyətli orqanların qərarları ilə bəraət almış şəxslər və onların yaxın qohumları;*

** Çernobıl qəzasının aradan qaldırılmasında iştirak etmiş və onlara himayəçilik edən şəxslərə (himayəçilik qanunvericilik nəzərdə tutulmuş qaydada müəyyən olunmuşdursa);*

** Qadınlar;*

** Cinayət törədərkən 18 yaşına çatmayan şəxslərə;*

** Bu qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatmış şəxslər;*

** Bu qərar qüvvəyə mindiyi günədək 1-ci və 2-ci dərəcə əlilliyi olan şəxslər;*

** Bu qərar qüvvəyə mindiyi günədək, o cümlədən Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı Ermənistanın hərbi təxribatı nəticəsində əlil olmuş şəxslər və ya şəxslərin yaxın qohumları;*

Həmçinin cərimə, ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama və digər azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslərin cəzadan azad edilməsi nəzərdə tutulur.

Amnistiya aktı əsasında əsas və əlavə cəzanı çəkməkdən azad edilən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluğun götürülməsi gözlənilir.

Mərhəmət, geniş qəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı ən ali keyfiyyətlər kimi qiymətləndirilib və əfv etmək böyük, müdrik insanlara, dövlət xadimlərinə xas olan yüksək keyfiyyətdir. İlham Əliyev də əfv etməyi, bağışlamağı bacaran həmin aqil dövlət adamlarındandır. Bu humanist siyasəti isə xalq yüksək qiymətləndirir və bu da əhalinin ölkə rəhbərliyinə olan etimadını daha da artırır.

Atılan addımların qısa təhlili Azərbaycan dövlətinin siyasətində insan amilinə verilən dəyəri nümayiş etdirməklə yanaşı, hüquqi islahatların da zamanın tələbinə uyğun olaraq təkmilləşdirildiyini təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qəhrəmanlıq salnaməsi dastan boylarında

Baş verən mühüm hadisələr bir müddət keçəndən sonra ya poetik, ya da nəsr yolu ilə ədəbiyyat nümunəsinə, kitaba çevrilir. Bunun bariz nümunəsi ötən il sentyabrın 27-də başlayıb, noyabrın 10-da Zəfər qələbəsi ilə başa satan 44 günlük Vətən müharibəsidir. Zəfər qələbəsinin qüruru, sevinci, şəhidlərimizin qəhrəmanlığı, qazilərimizin döyüşkənliyi, əsgər və zabitlərimizin şücaəti, xalqımızın birliyi, həmrəyliyi yazıçılarımızın, şairlərimizin indi qələminə mövzu olub.




Bu mövzuya həsr edilmiş ən gözəl nümunələrdən biri də bu günlərdə Əməkdar jurnalist Mətanət Məmmədovanın müəllifliyi ilə Naxçıvanda, "Əcəmi" nəşriyyatında çapdan çıxmış 472 səhifəlik "Qarabağ dastanı" kitabıdır. Bundan əvvəl də bu mövzuda bir neçə toplunun müəllifi olan M.Məmmədovanın yeni kitabında İkinci Qarabağ savaşını əhatə edən 44 günlük Vətən müharibəsindən bəhs edilir. Kitabda Ali Baş Komandan İlham Əliyevin müharibə dövründə müsahibələri, görüşləri, həyata keçirdiyi tədbirlər, ölkə Prezidentinin torpaqlarımız yağı düşməndən azad edildikcə xalqa müraciətlərinin hər birinin əsasında müəllifin yaratdığı "Qarabağ dastanı"nın boyları öz əksini tapıb.

Yeni nəşrdə 1990-cı illərin əvvəllərində erməni terrorçu dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən faciələr, nankor ermənilərin qızışdırılıb ortaya salınması ilə sərhəd bölgələrimizdə yaradılan iğtişaşlar, onların Azərbaycan torpaqlarından pay verilməsinə şirnikləndirilməsi, bütün bu hadisələrin fonunda xalqımızın Birinci Qarabağ müharibəsi dövründə öz əzəli torpaqlarını itirməsi, çoxsaylı şəhidlər verməsi gündəmə gətirilir. Həmçinin İkinci Qarabağ müharibəsində baş verən bütün hadisələr Birinci Qarabağ müharibəsi dövrü ilə müqayisə olunaraq dastanın boylarında şərh olunur. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bütöv Azərbaycan uğrunda dövlət başçısı İlham Əliyevin uzun illər ərzində apardığı siyasətə, torpaqlarımızın işğaldan azad olunması üçün həyata keçirdiyi genişmiqyaslı, dünya səviyyəli tədbirlərə nəzər salınır, bunların fonunda beynəlxalq təşkilatların tarixi ədalətə ədalətsizliklə yanaşmaları diqqətə çatdırılır. Kitabda dövlət-xalq birliyindən, ötən 17 ildə ölkə gənclərinin mənəvi tərbiyəsindən, vətənpərvərlik ruhunda böyüməsindən, torpaqlarımızın ruh yüksəkliyi ilə erməni işğalından azad olunmasından, 44 günlük savaşın dünyanı heyrətə gətirməsindən, qardaş Türkiyənin xalqımıza dəstəyindən geniş bəhs olunur.

Qəhrəmanlıq mövzusunda yazılmış əsərdə müəllif publisistik dillə, yazıçı peşəkarlığı ilə şifahi xalq ədəbiyyatının məqsədəmüvafiq folklor janrına müraciət edib. Müəllif İkinci Qarabağ müharibəsində şəhid olan 2907, itkin düşən 7 igidin adını nəzmə çəkərək bayatılarda yaşatmağa çalışıb. Azərbaycanın qədim tarixi, gəncliyə nümunə olan qəhrəmanları, əzəli torpaqları, Vətənə məhəbbət, sədaqət hissi, torpağa, yurda vurğunluq, vətənpərvərlik, kədər, bu kədərin yaratdığı qürur duyğuları bayatıların leytmotivini təşkil edir.

Kitabı vərəqlədikcə aydın olur ki, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu ermənilərin özləri barədə uydurduğu "qəhrəman xalq" mifini darmadağın edib, "dənizdən-dənizə" fikrinin xam xəyal olduğunu sübutlayıb, qədim Azərbaycan torpaqlarının hissə-hissə ermənilərə bəxşiş olunan ərazilərini yerinə qoyub, adı, soyadı və ünvanı dəyişdirilmiş kəndlərimizin, rayonlarımızın, bölgələrimizin kimə məxsusluğunu və əzəli adını bərpa edib.

Başda Ali Baş Komandan olmaqla əsgər və zabitlərimiz xalqımızın mənəviyyatını, ləyaqətini, şərəfini və namusunu qorudu, şərəfləndirdi. İmperiya qüvvələrinin xəyanəti nəticəsində pozulmuş dövlət sərhədlərini yerbəyer etdi. Xocalı soyqırımına bənzər qırğınlar, kütləvi qətliamlar törətmək istəyənlər, tarixi Azərbaycan torpaqlarının, cənnətməkan Qarabağın və ətraf rayonların işğalına yönəlmiş qüvvələr tamamilə məhv edildi, külə döndərildi... "Qarabağ dastanı"ndan da göründüyü kimi, Zəfər qələbəsi ilə Azərbaycan xalqının dövlətçilik tarixinə yeni reallıqlar gətirildi. Bu reallıqların yaradıcısı Azərbaycan xalqının birliyi, Müzəffər Ordumuz və Ali Baş Komandan, Prezident İlham Əliyevdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

◆ Zəfərin izi ilə

# Şuşanın könüllü həkimləri

Şuşada fəaliyyət göstərən stomatoloqların hərbçilərimizin müalicəsini pulsuz etdiklərini hələ Bakıda ikən öyrənmişdik. Ona görə Şuşa səfərində planlarımızdan biri də stomatoloqlarla görüşüb işləri barədə reportaj hazırlamaq idi. Onların Yuxarı Gövhər ağa məscidinin yaxınlığında yaratdıqları stomatoloji tibb məntəqəsini tapmaq çətin olmadı. Sadəcə həkimlər yerlərində deyildilər. Qapıya yazıb vurduqları telefon nömrəsinə zəng etdik, məlum oldu ki, əsgərlərdən birinin dişini müalicə etmək üçün hərbi hissəyə gediblər.







## Müasir stomatoloji kabinet, dərmanların pulsuz satıldığı aptek...

Həkimlərlə bir gün sonra görüşə bildik. Onlardan Elgiz Zeynalov Azərbaycan Tibb Universitetinin məzunudur, əslən Ağdam rayonundandır. Öyrənirik ki, stomatoloji tibb məntəqəsində eyni vaxtda hətta üç nəfərə xidmət göstərmək mümkündür. Burada quraşdırılmış tibbi avadanlıqlar - stomatoloji kürsü, rentgen aparatı və s. ən müasir standartlara uyğundur. Sterilizasiya aparatı isə cərrahidir, yəni burada sterilizə olunan alətlərlə ən ağır əməliyyatları da etmək olar. Stomatoloji kabinetdə aptek də yaradılıb və hərbçilər üçün dərmanlar pulsuzdur. Burada ilkin zəruri olan istənilən dərman vasitəsini tapmaq mümkündür.

Fəaliyyətləri barədə məlumat verən Elgiz həkim dedi ki, hərbçilərə pulsuz stomatoloji və digər tibbi xidmətlərin göstərilməsi təşəbbüsü Azərbaycan Könüllü Həkimlər Assosiasiyasına məxsusdur. 44 günlük müharibə zamanı bu təşkilatı yaradan Azərbaycan Tibb Universitetinin Ağız, üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşı Oqtay Mehdiyev həmkarlarına yaralı hərbçilərimizə tibbi yardımın göstərilməsinə dəstək vermələri üçün çağırış edib. Əvvəlcə təşkilatın sıralarında stomatoloqlar birləşiblər, sonra digər sahələrin həkimləri də onlara qoşulublar. Tezliklə təşkilatın sıraları xeyli genişlənib, döyüş bölgəsinə könüllü getmək istəyən həkimlərin sayı 300-ü ötüb. Onlar öz təşəbbüsləri ilə dərman və tibbi avadanlıqlar üçün cəbhə bölgəsində 3 yerdə anbar yaradıblar. Həkimlər növbəlilik prinsipi ilə könüllü olaraq cəbhəyə gedərək yaralı hərbçilərin müalicəsində yaxından iştirak ediblər.

Elgiz Zeynalovun sözlərinə görə, Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının xətti ilə döyüşlər zamanı ilk olaraq Füzuli hospitalında yaralı hərbçilərimizə tibbi yardım göstərib. Müharibənin demək olar ki, son gününə qədər döyüş bölgəsində olub, ilkin tibbi yardımların göstərilməsində fəal iştirak edib.

## "Müharibə bitsə də, ordumuzun, hərbçilərimizin yanındayıq"

Müharibə başa çatandan sonra da Azərbaycan Könüllü Həkimlər Assosiasiyası fəaliyyətini davam etdirir və həkimlər növbə ilə işğaldan azad olunmuş bölgələrimizdə hərbçilərimizə pulsuz tibbi xidmət göstərirlər. Hadrutda, Zəngilanda, Qubadlıda və Şuşada tibb məntəqələri və xüsusilə stomatoloji xidmət məntəqələri yaradılıb.



Şuşaya Elgiz Zeynalov birinci dəfə idi ki, gəlmişdi. Onun sözlərinə görə, təşkilatın xətti ilə könüllü stomatoloq kimi Şuşaya getmək təklif olunanda sevincinin həddi-hüdudu olmayıb. "Həkim kimi bura gəlmək çoxdankı arzum idi. Şuşa haqqında çox eşitmişdim, oxumuşdum. Doğrudan da, gələndə gördüm ki, Şuşa tamamilə başqa bir dünyadır, burada insan sözlə deyilməsi çətin olan hisslər yaşayır. Şuşa tarixən milli mədəniyyətimizin əsas ünvanlarından biri olub. Şuşa Vətən müharibəsində həm də ordumuzun qəhrəmanlıq dastanı yazdığı bir şəhərdir", - deyə o bildirir. Onu da əlavə edir ki, əgər qismət olarsa, gələcəkdə həkim kimi Şuşada daimi işləyə bilər.

Digər həkim Zöhrab Seyidəliyev isə Xaçmaz rayonundan gəlmişdi. ATU-da Elgiz Zeynalovla birlikdə təhsil alıb, qrup yoldaşı olublar. Əsas iş yeri Xaçmaz Rayon Mərkəzi Xəstəxanasıdır. Bu, onun könüllü stomatoloq kimi Şuşaya ikinci gəlişi idi. Bundan əvvəl Zəngilan və Qubadlıda fəaliyyət göstərib. Zöhrab Seyidəliyevin sözlərinə görə, ilk səfərindən Şuşaya bağlanıb və şəhəri qoruyan hərbçilərimizin sağlamlığının keşiyində durmaq bir həkim kimi onun üçün fəxrdir: "Müharibə bitsə də, biz həkimlər ordumuzun, hərbçilərimizin yanındayıq. Təşkilatın sıralarına qoşulan həkimlərin sayı durmadan artır. Onların sağlamlığının keşiyində dayanmaq bizim həm də mənəvi borcumuzdur".

## Vətənpərvərlik örnəyi

Həkimlər Şuşada növbəlilik prinsipi əsasında bir həftə fəaliyyət göstərirlər. Növbəti həftə onları həmkarları əvəz edir. Beləcə, Şuşada hərbçilərə stomatoloji xidmət davam edir. Digər sahənin həkimlərinə gəldikdə Zöhrab Seyidbəyli dedi ki, onlar yalnız şənbə və bazar günləri gəlib hərbi hissədə hərbçiləri müayinə edir, əgər ehtiyac olarsa, müalicə yazırlar. Şuşaya Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının xətti ilə gələn həkimlərin demək olar ki, hamısı öz sahələrinin peşəkarlarıdır və bir qismi Türkiyənin tanınmış tibb mərkəzlərində çalışıblar.

Stomatoloji kabinetin qeydiyyat dəftərinə nəzər salırıq. Məlum olur ki, həkimlər indiyədək Şuşada 3116 nəfərə stomatoloji xidmət göstəriblər. Əgər hansısa hərbçinin hərbi hissəni tərk etmək imkanı yoxdursa, həkimlər özləri dərhal o hissəyə gedirlər. Məntəqədə olan hərbçilər də onlar üçün belə təmənnasız və yüksək tibbi xidmətin təşkilinin qürurverici olduğunu dedilər.

Həkimlərə uğurlar arzulayıb yüksək təəssüratlarla tibb məntəqəsindən ayrıldıq. Bəli, bu həkimlər təmənnasız şəkildə hərbçilərimizin sağlamlığının keşiyində dayanmaqla, öz sahələrində vətənpərvərliyin nümunəsini yaradırlar. Onların hər birinin Vətən müharibəsində qələbənin əldə olunmasında, bu gün isə işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa proseslərində payı var.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*

# Zəfər yarmarkasının birlik simfoniyası










Dənizkənarı bulvarda Zəfər yarmarkasındayıq. Addım-addım buraları dolaşdıqca, çadırdan çadıra adlayıb, qurulan pavilyonları gəzdikcə ruhumuz müqəddəs zəfərimizin təntənəsinə qovuşur və xəyalımızda qələbənin ən uca zirvəsinə qanadlanırıq.

Açıq səma altında sıralanan hərbi maşınlar, sərgilənən silah və sursat, hətta açıq əsgər yeməkxanası belə təşkilatçıların ən incə, ən xırda detalları nəzərə aldıqlarını təsdiqləyir və Zəfər yarmarkasının adından daha möhtəşəm düşünüldüyünü bütün varlığımızla dərk edirik.

Zəfər yarmarkasının ümumi mənzərəsi vahid ideya kimi qələbəmizi tərənnüm edir. Müasir döyüş maşınları, həmçinin Azərbaycanın hərbi sənayesinin istehsal etdiyi silahlar 30 illik işğala 44 gündə xitam verən möhtəşəm Zəfərə nur saçır, əzəmətli gücün illər ərzində "Dəmir yumruğ"a çevrildiyini sərgiləyir.

Yarmarkada sərgilənən nə varsa, hamısı bir-birinə zəncir kimi sıx bağlıdır və gördüklərimiz, eşitdiklərimiz, hətta tamını daddıqlarımız ruhumuzda ecazkar Zəfər simfoniyası kimi səslənir.

Noyabrın 9-dək davam edəcək yarmarkanın mövzusu belədir: "Qarabağ qəhrəmanlarının izi ilə". Müxtəlif şirkətlərin hazırladıqları zəfər simvolikasına aid müxtəlif suvenirlərin, kitabların və digər məhsulların satıldığı yarmarkada Vətən müharibəsi ilə bağlı silah, geyim və texnikaların nümayişi üçün zona, eləcə də hərbi oyun meydançaları quraşdırılmışdır. Burada hər bir ziyarətçi özü üçün zövqünə və yaşına uyğun maraqlı məqamlar kəşf edə bilər. Hərbi vətənpərvərlik yarışları və uşaqlar üçün əyləncəli tədbirlərin hərəsinin öz auditoriyası, öz tamaşaçısı var. Hər gün tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə konsert proqramları isə hamı tərəfindən maraqla izlənilir.

Axırıncı dəfə Dənizkənarı bulvarda orkestrin ifasında nəsə dinlədiyiniz yadınıza gəlirmi? Tədbirin ilk günündə burda olsaydınız Cəmşid Naxçıvanski adına Hərbi Liseyin orkestrinin ifasında hərbi marşlar və vətənpərvərlik mahnılarının paytaxt səmasında necə dalğalandığının şahidi ola bilərdiniz.

Yarmarkaya giriş pulsuzdur. Lakin siz burda satışa çıxarılan məhsullardan almaqla daha nəcib bir xeyriyyə aksiyasına qoşulmaq şansı qazanırsınız. Ona görə ki, yarmarkadan əldə olunacaq vəsait qazilərə və şəhid ailələrinə dəstək məqsədi ilə "YAŞAT" Fonduna ianə ediləcək. Sizin aldığınız suvenir, ya da kiçik hədiyyə bir qazinin yarasına məlhəm olacaq, bir şəhid ailəsinə dəstək verəcək.

Ümumiyyətlə, yarmarkada nə nümayiş edilirsə, qələbə ilə sıx bağlı olduğu üçün insanları da bir-birinə yaxınlaşdırır. Bu baxımdan tədbir çərçivəsində həyata keçirilən "Əsgərə məktub" layihəsi ziyarətçilər tərəfindən xüsusi maraq və rəğbətlə qarşılanır.

Sonda qeyd edək ki, yarmarka "YAŞAT" Fondu, Müdafiə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Dənizkənarı Bulvar İdarəsi və Azərbaycan Peyntbol Federasiyasının təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (Formula 1 Azərbaycan), "ABAD" Publik Hüquqi Şəxs, Azərbaycan Dövlət Reklam Agentliyi, "Azərişıq" ASC, 156 - Evakuasiya Xidməti, "NIGROUP" MMC, Bakı Strafor Kəsim Mərkəzi, "ASAN Könüllüləri" təşkilatının dəstəyi ilə təşkil olunmuşdur.

***Bahadır İMANQULİYEV,***
***"Azərbaycan"***











*Foto İlham BABAYEVİNDİR*

## ZƏFƏR gündəliyi

### 5 noyabr 2020-ci il



Noyabrın 5-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖



Səhər saatlarınadək Goranboy və Tərtər rayonlarının yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən fasilələrlə atəşə tutulur.

Səhər saat 07:50-də Ağcabədi rayonunun Qiyaməddinli kəndinə düşmən tərəfindən 4 ədəd mərmi atılır.

❖ ❖ ❖

Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulur. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar var.

Atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılır, artilleriya qurğuları tam sıradan çıxarılır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan atəşə tutur.



❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri döyüş meydanında silah-sursatını, texnikasını qoyub qaçır. Müdafiə Nazirliyi qənimət olaraq ələ keçirilən hərbi texnikaların görüntüsünü yayır.

❖ ❖ ❖

Saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.

❖ ❖ ❖



Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulur.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılır.

❖ ❖ ❖

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində brifinq keçirərək cəbhədəki son vəziyyətlə bağlı məlumat verir.

Qeyd edilir ki, Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumları, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınır. Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görür. Azərbaycan Müdafiə Nazirliyi Ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırır. Bütün videotəsvirlərdə aydın şəkildə görünür ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmur, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir: "Hazırda qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsinin nəşri olan “Vətən və iman” kitabının təqdimatı keçirilib






Noyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəşri olan “Vətən və iman” kitabının təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə “Qurani-Kərim”dən ayələr oxunub.

Tədbirdə çıxış edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, bu mübarək günlərdə Azərbaycan xalqı öz dövlətçilik tarixinin şanlı məqamını - Vətən müharibəsində Zəfərinin birinci ildönümünü qeyd edir. Xalqımız 2020-ci ildə 44 gün ərzində dünya tarixi salnaməsinə daxil olacaq haqq mübarizəsi həyata keçirərək 30 il davam etmiş işğala son qoydu, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Bu münasibətlə Azərbaycan xalqını, rəşadətli Azərbaycan Ordusunu və xüsusilə Qarabağ Zəfərinin müəllifi Müzəffər Azərbaycan Prezidenti İlham Əliyevi ürəkdən təbrik edirik. Vətən müharibəsində Qələbəmizin qüvvətverici amilləri - dövlət-xalq birliyi, dövlət rəhbərinin ətrafında sıx birləşmək, cəmiyyət daxilində milli və dini-mənəvi vəhdət, Vətənin mənafeləri naminə sarsılmaz birlik oldu. Azad Qarabağda Azərbaycanın üçrəngli dövlət bayrağının dalğalanması və azan səsinin ucalması bizlər üçün böyük nemətdir. Uca Allahın köməyi, müdrik dövlət rəhbərimiz Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın misilsiz səyləri sayəsində Azərbaycan dövlətçiliyinin Zəfəri bu gün azad Qarabağda bayram namazları, Novruz tonqalları və “Xarıbülbül” festivalları, abadlaşan kənd və şəhərlərimiz, Şuşada əsası qoyulmuş yeni, möhtəşəm məscid kompleksi, bərpa və yenidən qurulan məscid və məbədlər, Füzuli Beynəlxalq Hava Limanı və Şuşaya aparan “Zəfər” yolu ilə davam edir.

Şeyxülislam Allahşükür Paşazadə qeyd edib ki, Azərbaycan xalqı şanlı Zəfəri böyük qurbanlar bahasına əldə edib. Qazandığımız Qələbədə hər bir azərbaycanlının payı vardır. Bu mübarizədə canlarından keçmiş minlərlə şəhidimizin bizlərin üzərində haqqı var. Allah-təala onlara rəhmət eləsin! Sağlamlığını itirmiş qəhrəman qazilərimizə Uca Allah şəfaət bəxş etsin. Vətən müharibəsində xalqımız - bütün etnik qrupların və dinlərin nümayəndələri sarsılmaz birlik nümayiş etdirib Zəfərə yetişdilər. Azərbaycandakı dini konfessiyalar ölkəmizin haqq işi uğrunda cəbhədə bir yerdə, çiyin-çiyinə vuruşdular, dünyaya haqq səsimizi birgə ucaltdıq. Şəhid övladlarımızı bir yerdə Vətən torpağına tapşırdıq. Bu, Azərbaycan reallığı, multikultural dəyərlərimizin təntənəsidir. Minnətdarıq ki, Prezidentimiz dindarların Vətən müharibəsindəki qələbədə rolunu xüsusi qeyd edir. Vətən müharibəsi dövründə Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan din xadimləri Zəfərin qazanılması, dövlətimizin haqq işinin qələbəsi naminə zəhmətlər çəkib, mənəvi cəbhədə rəşadətlər göstərib, qəhrəman şəhidlərimizin şəhidlik məqamına layiq şəkildə yüksək səviyyədə dəfn ayinlərinin və anım mərasimlərinin həyata keçirilməsində gecəli-gündüzlü xalqa xidmətdə olub, orduya dəstəklərini əsirgəməyiblər. Bu məqamda hər zaman Azərbaycan həqiqətlərini dünya çapında müdafiə edən, dünyaya haqq səsimizin ucaldılmasında birlik nümayiş etdirən, bu gün Fəxri xiyabanda uyuyan mərhum pravoslav qardaşımız Arxiyepiskop Aleksandr həzrətlərini rəhmətlə yad etmək istərdim.

“Qafqaz Müsəlmanları İdarəsi Vətən müharibəsi dövründə öz geniş beynəlxalq əlaqələrindən istifadə edərək Ermənistanın işğalçılıq siyasətini və insanlığa qarşı hərbi cinayətlərini faktlarla ifşa edərək, erməni ekstremistləri tərəfindən dinc əhalimizə qarşı törədilən terror, işğal olunmuş ərazilərimizdə yüzlərlə məscid, məbəd və kilsələrin, minlərlə məzarlıqların dağıdılması, ümumislam əhəmiyyətli irs nümunələrinin mənşəyinin saxtalaşdırılması və dini məbədlərin erməniləşdirilməsi, əsarətdə qalan məscidlərimizdə İslamda haram buyurulan heyvanların saxlanılması kimi vandal həqarət əməlləri barədə dünyanın bütün nüfuzlu dini mərkəz və məqamlarını, dövlət rəhbərlərini, beynəlxalq təşkilatları çoxsaylı məktub və bəyanatları, keçirdiyi konfranslar vasitəsilə ətraflı məlumatlandırıb. Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalarla bərabər bu istiqamətdə çoxşaxəli fəaliyyətinin bütün istiqamətləri, o cümlədən erməni kilsəsinin dini-ideoloji müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyalarının qarşısının alınması yönündə apardığı miqyaslı mübarizə barədə Azərbaycan xalqı və dünya ictimaiyyəti bütün həqiqətləri bilməlidir. Biz Uca Yaradan qarşısında borcumuzu, Vətən qarşısında xidmətimizi layiqli şəkildə həyata keçirməyimizdən qürur duyuruq. Bu gün diqqətinizə təqdim etdiyimiz “Vətən və iman” adlı nəşr Birinci və İkinci Qarabağ müharibələri dövründə Azərbaycanın din xadimlərinin Vətən torpağı uğrunda imanlı mübarizəsinə dair indiyədək heç yerdə dərc olunmamış məlumatları ilk dəfə geniş oxucu kütləsinin diqqətinə təqdim edir. Müstəqil Azərbaycan dövlətçiliyi tarixinin mühüm və şərəfli mərhələsinə işıq salmaq məramı daşıyan bu tarixi-sənədli nəşrin ərsəyə gəlməsində böyük zəhməti olan tanınmış tədqiqatçı Araz Qurbanova və əməyi keçən bütün şəxslərə, idarəmizin kollektivinə dərin minnətdarlığımı bildirirəm. Kitabın əhəmiyyətini nəzərə alaraq dünya çapında daha çox insanın diqqətinə çatdırılması məramı ilə onun ingilis dilinə tərcüməsi üzərində hazırda iş gedir. Vətəni sevən imanlı insanların şücaət və saleh əməllərinə, Azərbaycan multikulturalizminin örnək nümunələrinə dair bu dəyərli nəşrdə əksini tapan həqiqətlər elm və təhsil müəssisələrində öyrənilməli, tədris olunmalı, məscidlərimizdə, din xadimlərimizin moizələrində təbliğ və təşviq olunmalıdır. İnşallah, gələcək nəsillər şərəfli tariximizin iman və Vətən sevgisi nümunələri ilə zəngin səhifələrindən ilham alarlar”, - deyə QMİ sədri əlavə edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, bir neçə gündən sonra Zəfər bayramımızı qeyd edəcəyik. “Vətən və iman” kitabı Vətən müharibəsi ilə bağlı məqamları özündə ehtiva edir. Bu müharibədə bütün xalqımız birgə iştirak edib. Hər bir ailə Qələbəmizə öz töhfəsini verib. Bu kitabda Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması uğurunda gedən mübarizədə din xadimlərinin bir neçə istiqamətdə fəaliyyətindən bəhs edilib.

“Azərbaycan 44 günlük Vətən savaşında informasiya cəbhəsində də düşmən üzərində Qələbə çaldı. Qafqaz Müsəlmanları İdarəsi də bu mübarizədə yaxından iştirak edib. Bu kitab ideoloji mübarizə baxımından çox əhəmiyyətlidir. Döyüşlər gedən günlərdə erməni təbliğatı Azərbaycan əleyhinə güclü iş aparırdı. Bu məqsədlə beynəlxalq aləmdə geniş qaralama kampaniyası təşkil edilmişdi. Lakin Azərbaycan Prezidentinin apardığı düzgün informasiya siyasəti nəticəsində mənfur düşmən bu arzusuna da çata bilmədi. 44 günlük müharibə dövrünün hər bir günündə dövlətimizin başçısı dünyaya həqiqətləri çatdırırdı”, - deyə komitə sədri əlavə edib.

Kitabın Azərbaycan həqiqətlərinin dünyaya tanıdılması işində əhəmiyyətindən bəhs edib Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli bildirib ki, “Vətən və iman” nəşri bu baxımdan xüsusi rola malik olacaq. “Qələbəmizdə bütün xalqımızın rolu var. Bu işdə Qafqaz Müsəlmanları İdarəsi və onun sədri Şeyxülislam Allahşükür Paşazadənin rolu xüsusi qeyd edilməlidir. İmanı olmayanın Vətəni olmur. Bu baxımdan kitabın adı da çox düzgün seçilib. Bu kitabda məntiqi ardıcıllıq, fəlsəfi baxış var. Çar Rusiyası dövründə bütün mənəviyyatımıza, dinimizə qarşı böyük hücumlar var idi. Lakin xalqımız mətin dayandı, öz milli kimliyini qoruyub saxladı”, - deyə Fəzail İbrahimli qeyd edib. Bildirilib ki, Şeyxülislam Allahşükür Paşazadə görkəmli din xadimi kimi Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması, dini-tarixi abidələrinin bərpası, ənənəvi adətlərimizin yeni formada inkişafı naminə irəli sürülən bir çox layihələrin müəllifidir. Dağılmaq təhlükəsi ilə üz-üzə olan yüzlərlə dini abidəmiz məhz Allahşükür Paşazadənin şeyxülislamlığı dövründə bərpa olunaraq dindarların istifadəsinə verilib, dindarların etiqad azadlığı və ibadət hüququ bərpa olunub. Şeyxülislam Ümummilli Lider Heydər Əliyevin ideyalarından bəhrələnərək, hər zaman xalqının ağır günlərində onun yanında olmaqla, bütün həyatını qəddarlıqlara, zülmə qarşı mübarizəyə, ədalətin bərqərar olmasına, sülhün zəfər çalmasına həsr edən şəxsiyyətlərdəndir. Dünyada sülhün bərqərar olması, xalqların mehriban, əməkdaşlıq şəraitində yaşamasının təbliği istiqamətində həyata keçirdiyi tədbirlər Allahşükür Paşazadənin çoxşaxəli fəaliyyətinin tərkib hissəsidir. Şeyxülislamın bu fəaliyyəti dünyanın müxtəlif ölkələri, beynəlxalq təşkilatları tərəfindən də daim yüksək qiymətləndirilir və dəyərləndirilir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin sektor müdiri Müzəffər Talıblı deyib ki, bu kitab tariximizin yaxın keçmişini - 30 illik dövrünü əhatə edir. Bu dövr Azərbaycanda çox mürəkkəb proseslərin baş verdiyi, eyni zamanda, müstəqillik qazandığımız dövrdür. 1990-cı illərdə Azərbaycanda mürəkkəb, xaosla dolu proseslər baş verirdi. Bu dövrdə Şeyxülislam Allahşükür Paşazadənin əlləri xalqımızın qanına batmış sovet imperiyası rəhbərliyinə kəskin etirazı heç zaman yaddan çıxmayacaq.

1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə həyatın iflic olan sahələrini yenidən dirçəltməyə və milli-mənəvi həmrəyliyi, ictimai-siyasi sabitliyi bərpa etməyə başladı. Prezident İlham Əliyev 2003-cü ildə Prezident seçildikdə bu özül üzərində yeni inkişaf strategiyaları ortaya qoyub. Nəticədə gərgin tarixi şəraitdə möhtəşəm Qələbə qazandıq. Düşmən və onun arxasındakı güclər Azərbaycandakı mənəvi həmrəyliyi, etnik dini vəhdəti, dövlət-iqtidar-xalq birliyini pozmaq üçün məkrli təxribatlar, təbliğatlar həyata keçirirdi və bu gün də keçirir.

Vətən müharibəsində orduda dini mənsubiyyətindən asılı olmayaraq, bütün gənclər, vətəndaşlar ölümə getdilər. Müharibə dövründə Prezident İlham Əliyevin təkbaşına dünya auditoriyası qarşısında çıxışı həqiqətləri bir daha ortaya çıxardı. Dindarların da bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xidmətləri danılmazdır.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları, dini konfessiyaların rəhbərləri və digərləri də kitabın əhəmiyyəti ilə bağlı ətraflı danışıblar.

# Könüllülük fəaliyyəti keçən gənclərə sertifikatlar təqdim olunub







Noyabrın 4-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Zəfər günü ilə əlaqədar könüllülük fəaliyyətini başa vurmuş gənclərlə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə komitə sədri ordumuzun 44 günlük müharibədə göstərdiyi qəhrəmanlıqdan, Azərbaycanın dünya miqyasındakı yerindən və tarixi Zəfərimizdən danışaraq deyib: “Bu günlərdə qeyd etdiyimiz Zəfər günü müasir Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Biz bu Qələbə nəticəsində 30 ilə yaxın ermənilərin işğalı altında olmuş ərazilərimizi azad etdik. Bununla yanaşı, dünya miqyasında Azərbaycanın Qələbəsi bu gün də müzakirə olunur, araşdırılır. Prezident İlham Əliyevin apardığı uğurlu və düşünülmüş siyasət Azərbaycanı dünyanın sayılıb-seçilən, hörmət edilən ölkələrindən birinə çevirdi. Həmçinin beynəlxalq qurumların 30 ilə yaxın müddətdə edə bilmədiyini Azərbaycan Ordusu 44 gündə etdi”.

Bahar Muradova deyib ki, könüllülük Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyət hesab olunur.

Sonra fəaliyyətini başa vurmuş gənclərə könüllülük fəaliyyəti keçmələrinə dair sertifikatlar təqdim olunub.

Sonda Bahar Muradova sualları cavablandırıb.

# İtaliya senatorları Zəfər günü münasibətilə azərbaycanlı həmkarlarına təbrik məktubu ünvanlayıblar

Azərbaycan xalqının Vətən müharibəsində qazandığı tarixi Qələbənin birinci ildönümündə Zəfər günü münasibətilə İtaliya senatorları Stefano Luçidi və Canluka Ferrara Milli Məclisin Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimliyə təbrik məktubları ünvanlayıblar. Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İtaliya Senatında Xarici işlər və mühacirət komissiyasının sədri, senator Stefano Luçidi başçılıq etdiyi İtaliya-Azərbaycan parlamentlərarası Dostluq Qrupunun adından Azər Kərimliyə ünvanlandığı məktubda Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələrinə müvafiq olan suverenliyinin və ərazi bütövlüyünün bərpasının birinci ildönümü münasibətilə azərbaycanlı həmkarlarını ürəkdən təbrik edib.

Təbrikində Stefano Luçidi vurğulayıb ki, 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi və ardınca 9-10 noyabr tarixlərdə üçtərəfli Bəyanatın imzalanması ilə Azərbaycan tarixində yeni mərhələ başlandı. Senator möhtəşəm Zəfər günü münasibətilə ən xoş və səmimi salamlarını yetirib, ölkəmizə sülh, sabitlik və firavanlıq arzulayıb.

* * *

İtaliya Senatında hakim “5 Ulduz Hərəkatı” Partiyasının vitse-prezidenti, senator Canluka Ferrara həmkarı Azər Kərimliyə göndərdiyi məktubda Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası münasibətilə səmimi təbriklərini çatdırıb. BMT Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul etdiyi müvafiq qətnamələrlə ölkəmizin ərazi bütövlüyünün dəstəkləndiyini qeyd edib.

Senator Canluka Ferrara vurğulayıb ki, ona işğaldan azad edilmiş ərazilərə səfər etmək və bu torpaqların azadlığı uğrunda mübarizə aparmış insanların xatirəsinə ehtiramını bildirmək kimi unikal fürsət nəsib olub.

Təbrik məktubunda bölgədəki əhəmiyyətli irəliləyişi alqışlayan italyan senator ümidvar olduğunu bildirib ki, müharibə və münaqişə keçmişdə qalıb, nəhayət, uzunmüddətli sülhə nail olunub. Azərbaycanın lider olduğu, fundamental rol oynadığı regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın və rifahın təmin edilməsi üçün barışıq son dərəcə mühüm əhəmiyyətə malikdir.

# Milli Oftalmologiya Mərkəzinin Dəmiryol Səyyar Klinikasının keçirdiyi aksiyada 100-ə yaxın vətəndaş müayinə edilib



Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Dəmiryol Səyyar Klinikası Astara şəhərində aksiya keçirib

Mərkəzin Elmi-məlumat, tədris və təşkilati-metodik bölməsindən AZƏRTAC-a verilən məlumata görə, aksiyada 100-ə yaxın vətəndaş müayinə olunub və 9 əməliyyat həyata keçirilib. Aksiya çərçivəsində Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və qazilər müayinə edilib ehtiyacı olan pasiyentlərə cərrahiyyə əməliyyatı icra olunub.

# “Məşğulluq marafonu”nda fəal iştirak edən işəgötürənlərə təşəkkürnamələr təqdim olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyində şəhid ailələri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədi daşıyan “Məşğulluq marafonu”nda fəal iştirak edən işəgötürənlərlə görüş keçirilib.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə agentliyin sədri Mustafa Abbasbəyli çıxış edərək bildirib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ötən il Vətən müharibəsində möhtəşəm Zəfərə nail oldu. 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımız azad edildi. Tarixi Zəfərin qəhrəmanlarının - 44 günlük Vətən müharibəsində şanlı tarix yazan şəhidlərimizin ailə üzvlərinin, qazilərimizin sosial dəstəklə təminatı üçün çevik və genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd olunub ki, 31 mindən çox vətəndaşı əhatə edən tədbirlər çərçivəsində həmin kateqoriyalara aid 5420 şəxs də özünüməşğulluq proqramına cəlb edilib, 2250 şəxs isə münasib işlərlə təmin edilib.

Bu ilin iyununda “Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” devizi altında nazirlik tərəfindən başlanılan “Məşğulluq marafonu”da şəhid ailələrinin üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna dəstək məqsədi daşıyıb.

Ötən dövrdə 570 işəgötürən (299-u dövlət, 271-i özəl müəssisə) milli həmrəylik və sosial məsuliyyət mövqeyindən çıxış edərək “Məşğulluq marafonu”na qoşulub. Onlar tərəfindən marafona 3314 vakansiya təqdim edilib ki, həmin vakansiyalar üzrə 162-si şəhid ailəsi üzvü və 874-ü qazi olmaqla 1036 nəfər işlə təmin olunub. Hazırda da vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

Şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğuna dəstək marafonu bu istiqamətdə birgə səylərin gücləndirilməsinə hədəflənib. Məqsəd həmin kateqoriyadan olan vətəndaşların məşğulluq imkanlarının artırılması üçün aparılan işlərdə işəgötürənlərin korporativ sosial məsuliyyət və milli həmrəylik prinsipindən çıxış etməklə daha fəal iştirakına nail olunmasıdır.

Görüşdə “Məşğulluq marafonu”nda fəal iştirak edərək Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğunun təminatına, bununla onların rifahı naminə aparılan dövlət siyasətinə sosial məsuliyyət və həmrəylik prinsipi ilə yaxından dəstək olduqlarına görə işəgötürənlərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəkkürnamələri təqdim edilib.

# Startap layihələri innovativ gələcəyin təməlidir

Hər hansı ideyanın reallaşdırılmasına və ya daha əvvəldən mövcud olan ideyanın təkmilləşdirilməsinə yönələn, bəzən də onu ehtiyac halına gətirən inkişafa meyilli təşəbbüslərlə zəngin olan startap layihələri innovativ gələcəyin təməlidir.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Müəllimlər İnstitutunda İnnovasiya laboratoriyasının təşkilatçılığı ilə “Startap layihələri innovativ gələcəyin təməlidir” mövzusunda keçirilən maarifləndirici seminarda bu barədə danışılıb, tələbələrin yeni layihələrinin təqdimatı olub.

Seminarda çıxış edən laboratoriyanın mütəxəssisi Səminə Rüstəmova startap layihələrinin müasir dövrümüzdə mahiyyəti və əhəmiyyətindən, bu layihələrin elmin, iqtisadiyyatın inkişafındakı rolundan bəhs edib, tələbələrin startapla bağlı layihələrin, təqdimatların təşkilində fəal olmalarının zəruriliyini vurğulayıb.

Sonra institutun Təbiət və incəsənət fakültəsinin IV kurs tələbəsi Rüfət Hacıyevin təqdimatında startap layihələri, onların necə tərtib olunması, təqdimatların hazırlanması istiqamətində maarifləndirici məlumat dinlənilib və startapçı tələbələr Bəhriyyə Əhmədova, Aysun Nağdəliyeva, Gülcan Əlizadə, Abutalıb Ağa Kəngərli öz layihələrini təqdim ediblər.

Seminarda tələbələri maraqlandıran suallar cavablandırılıb.



# Mərkəzi Bank tərəfindən Zəfər gününə həsr olunan xatirə pul nişanları tədavülə buraxılmışdır





































**Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə aparılmış 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun tarixi Zəfərinin ildönümü ərəfəsində Mərkəzi Bank tərəfindən bu tarixi hadisəyə, eləcə də işğaldan azad edilmiş şəhər və rayonlara həsr olunan xatirə pul nişanları tədavülə buraxılmışdır.**

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun apardığı 44 günlük Vətən müharibəsi zəfərlə başa çatdı. Azərbaycanın tarixi torpaqları olan Qarabağın erməni işğalından azad edilməsi uğrunda 2020-ci ildə aparılmış Vətən müharibəsindəki qələbəmiz milli tariximizin ən parlaq səhifəsi kimi yaddaşlara yazıldı. Azərbaycan xalqının sarsılmaz iradəsi, milli ordumuzun böyük şücaəti və “dəmir yumruq” otuz ilə yaxın təcavüzkar erməni faşistləri tərəfindən işğal və talan edilən Vətən torpaqlarının düşmən tapdağından azad edilməsini təmin etdi.

Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan bu qələbənin əldə olunmasının əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi nəhəng dövlət və ordu quruculuğu, müdrik xarici və daxili siyasət, böyük xalqımızın yorulmaz əməyi və Azərbaycan əsgərinin qəhrəmanlığı dayanır.




Ölkədə uğurla həyata keçirilən siyasi kurs, dövlətimizin beynəlxalq mövqeyinin və nüfuzunun yüksəlməsi, onun iqtisadi və maliyyə potensialının güclənməsi və ən başlıcası, Prezident - Xalq birliyi bu qələbənin əldə edilməsində həlledici rol oynadı.

Çağdaş tariximizin ən şanlı səhifələrindən biri kimi yaddaşlardan silinməyəcək bu Zəfər tarixini əbədiləşdirmək üçün Azərbaycan Mərkəzi Bankı tərəfindən 500 manat nominallı “ZƏFƏR” xatirə banknotu, qızıl və gümüşdən hazırlanmış “Zəfər” xatirə sikkəsi, eləcə də Şuşa şəhərinə, Cəbrayıl, Qubadlı, Ağdam, Zəngilan, Füzuli, Laçın, Kəlbəcər, Xocavənd rayonlarına və Suqovuşan qəsəbəsinə həsr olunan gümüş xatirə sikkələri 5 noyabr 2021-ci il tarixdən tədavülə buraxılmışdır.

Xatirə banknotu üzərində əsas dizayn elementləri kimi ölkəmizin tarixi-mədəni irs nümunəsi olan Molla Pənah Vaqifin məqbərəsi, qədim memarlıq nümunəsi olan Xudafərin körpüsünün, Əsgəran qalasının təsvirləri, eləcə də möhtərəm Prezidentin “Qarabağ Azərbaycandır!” ifadəsi, “8 Noyabr Zəfər Günü” sözləri, qələbəmizin simvoluna çevrilmiş Xarıbülbül, şəhid və qazi qanının təcəssümü olan qırmızı lalələr, yenilməz Azərbaycan əsgərlərinin, üçrəngli bayrağımızın təsvirləri əks olunmuşdur.

Hər birinin çəkisi bir troy unsiya olan xatirə sikkələrinin üzərində hər bir rayonun tarixi-mədəni irs nümunəsi olan abidələr, flora və fauna inciləri, Zəfər tariximiz olan “8 Noyabr” sözləri təsvir edilmişdir.

Bu xatirə pul nişanları müzəffər ordumuzun Qarabağın azadlığı uğrunda zəfərlə başa vurduğu Vətən müharibəsinin yaddaşlara həkk olunmasına, düşmən tapdağından azad edilmiş şəhər və rayonlarımızın tarixi-mədəni irsinin beynəlxalq ictimaiyyətə çatdırılmasına xidmət edir.

## ADA Universiteti Fondu, “PAŞA Bank” və “Delta Qrup C.O.” MMC tərəfindən qazi ailələrinə dəstək



**Noyabrın 3-4-də ADA Universiteti Fondunun (ADAF) təşkilatçılığı, ölkənin aparıcı korporativ bankı “PAŞA Bank”ın və yerli qida sənayesinin öncül şirkətlərindən olan “Delta Qrup C.O.” MMC-nin baş sponsorluğu və ADA Könüllülər Hərəkatının dəstəyi ilə xeyriyyə kampaniyası təşkil edilib.**

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, İkinci Qarabağ müharibəsi zamanı ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda yaralanan qazilərə dəstək məqsədilə keçirilən kampaniya “Bir gün deyil, hər gün həmrəy olaq. Tarix yazaq!” şüarı ilə həyata keçirilib.

Azərbaycan tarixinin ən əlamətdar günlərindən biri olan 8 Noyabr - Zəfər Günü ərəfəsində ADA könüllülərindən və əməkdaşlarından ibarət komanda Bakı və Sumqayıt şəhərlərinin, eləcə də Abşeron rayonunun müxtəlif ərazilərində məskunlaşan qaziləri ziyarət ediblər. Ümumilikdə 20 qazi ailəsinə baş çəkilib və onlara ərzaq məhsullarından ibarət bağlamalar təqdim edilib.

Xatırladaq ki, ADAF və “PAŞA Bank” sözügedən kampaniyanın icrasına ötən ildən başlayıb. ADA könüllülərindən ibarət tələbələr Novruz bayramı ərəfəsində Bakı və Sumqayıtdakı qazi ailələrini ziyarət ediblər.



## Alban-Udi Xristian Dini İcmasının üzvləri Xocavənddə alban məbədlərini ziyarət ediblər

**Erməni işğalından azad edilən Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən qədim alban məbədləri uzun illərdən sonra əsl sahibləri olan udilər tərəfindən ziyarət edilib.**

AZƏRTAC xəbər verir ki, Alban-Udi Xristian Dini İcmasının üzvləri noyabrın 4-də əvvəlcə ata-babalarından miras qalan Ağxaç kilsəsində olublar. Onlar burada dini ayin icra edərək, şamlar yandırıb, dualar oxuyublar.

İcmanın sədri Robert Mobili açıqlamasında bildirib ki, bu kilsə qədim alban mədəniyyətinə məxsus tikilidir: “Hadrut qəsəbəsində iki qədim alban məbədi var. Bunlardan biri Çinarlı kəndində yerləşən Ağxaç kilsəsidir, X əsrə aiddir. Digəri isə Müqəddəs Məryəm Ana kilsəsidir. O kilsə isə XII əsrdən qalan alban mədəniyyətinin yadigarıdır. İşğal ərəfəsində ermənilər kilsədə saxtakarlıq etməklə bəzi dəyişikliklərlə buranı özününküləşdirməyə çalışıblar. Erməni dilində yazılar yazıblar, altar hissəni dəyişiblər. Lakin nə etsələr də, daşlar üzərindəki tarixi dəyişə bilməzlər. Artıq tarixi ədalət bərpa olunub. 30 il müddətində torpaqlarımız erməni işğalında olduğu kimi, dini məbədlərimiz də əsirlikdə idi. Lakin müzəffər Ordumuzun gücü sayəsində artıq kilsələrimiz də azadlıqdadır”.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərdə geniş bərpa-quruculuq işlərinin aparıldığını söyləyən R.Mobili əmin olduğunu vurğulayıb ki, bütün tarixi-mədəni, dini abidələrimiz, o cümlədən məbədlərimiz tezliklə bərpa ediləcək.





Sonra icma üzvləri Müqəddəs Məryəm Ana kilsəsinə gəlib, burada da dini ayin icra ediblər.

Daha sonra Alban-Udi Xristian Dini İcmasının üzvləri Hünərli kəndində yerləşən alban məbədinə baş çəkiblər.

Ermənilər tərəfindən yararsız hala salınan dini məbədlə tanışlıq zamanı bildirilib ki, Ermənistan qədim alban məbədlərini özünküləşdirmək üçün məbədlərin üzərində erməni dilində yazılar yazmışlar. Lakin istəklərinə nail ola bilməmişlər. Ona görə də alban məbədləri işğal dövründə baxımsız qalmışdır. Bu məbədlərin baxımsız vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Düşmənin dini inanclara münasibəti göz önündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi. Onlardan cəmi ikisi qalıb, onlar da yarıdağılmış vəziyyətdədir. Həmin məscidlərdən də müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsələrini də pis günə qoyublar. Hünərli kəndindəki qədim alban məbədi buna bir nümunədir.

Vurğulanıb ki, Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur. Yararsız vəziyyətdə olan qədim alban kilsələri Azərbaycan dövləti tərəfindən yenidən bərpa ediləcək.

## Ağcabədidə düşmənin artilleriya atəşi nəticəsində dəymiş ziyan aradan qaldırılır

**2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Ağcabədi rayonunda 8 ev və 2 qeyri-yaşayış obyekti dağılıb, 500-dən çox tikiliyə ziyan dəyib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısının tapşırığına əsasən qısa zaman ərzində görülmüş işlər nəticəsində 513 tikilinin təmir-bərpası, 8 ev və 1 sahibkarlıq obyektinin tikintisi yekunlaşdırılaraq sahiblərinə təhvil verilib. Hazırda 1 qeyri-yaşayış obyektinin inşası və 5 tikilinin təmir-bərpa işləri davam edir. Ən qısa zamanda Ağcabədi rayonunda işlərin tam yekunlaşdırılması nəzərdə tutulur.

Rayon sakinləri düşmən təxribatları zamanı dəymiş ziyanın aradan qaldırılması istiqamətində görülən işləri yüksək qiymətləndirərək dövlət başçısına minnətdarlıqlarını bildirirlər. Erməni hərbçilərinin yaşayış məntəqələrini atəşə tutması nəticəsində evi dağılmış Hindarx qəsəbə sakini Emin Abduləliyev deyib: “Vətən müharibəsi zamanı düşmənin artilleriya atəşi nəticəsində bizim evimiz tamamilə dağılmışdı. Evdəki əşyalarımız da məhv olmuşdu. Dövlətimizdən çox razıyıq. Ailəmiz üçün əvvəlkindən də yaraşıqlı, hər cür şəraiti olan beşotaqlı yeni ev tikilib. Bundan başqa, evdəki məişət əşyalarına dəymiş ziyanla bağlı altı min manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 manat vəsait ödənilib. Prezidentimizə minnətdarlığımı bildirirəm”.

Qaraxanlı kənd sakini Elvin Quliyev isə deyib: “Vətən müharibəsi zamanı bizim kəndimiz də düşmənin artilleriya atəşinə məruz qalırdı. Həmin dövrdə bizim evimizin qarşısına top mərmisi düşmüşdü. Nəticədə evimizin damı, üç otaq, qapı və pəncərələr, döşəmə və tavanı yararsız vəziyyətdə qalmışdı. Müharibədən sonra komissiya evimizə baxış keçirdi və əsaslı təmir-bərpa işləri aparıldı. Görülən işlərdən çox razıyam”.

Vətən müharibəsi dövründə düşmənin artilleriya atəşi nəticəsində Mütəllim Əliyevə məxsus mağaza da tamamilə dağılmışdı. Artıq dövlətimizin qayğısı ilə bu mağaza da yenidən tikilərək sahibinə təhvil verilib. Tikinti işlərinin yüksək keyfiyyətlə aparıldığını deyən M.Əliyev göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində 11 şəhər və rayon ərazisində 13 mindən çox tikiliyə ziyan dəyib. Ziyan dəymiş tikililərin tikintisi və təmir-bərpa işləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nəzarəti altında həyata keçirilir. Artıq onlardan 12 mindən çox yaşayış və qeyri-yaşayış obyekti üzrə tikinti və təmir-bərpa işləri yekunlaşdırılıb.

Elm xadimləri

# Əqlin müdrik çağı

## Professor Kamran İmanovun portret cizgiləri



2020-ci il, Azərbaycanın 44 günlük Vətən müharibəsi və parlaq Qələbə! Ürəyimizi yerindən oynadan bu xəbərdən uşaq kimi sevindik. Sevincdən gözyaşı tökdük - ta "qaçqın-köçkün" deyildik! Bu ağır daş düşmüşdü ətəyimizdən!
Gözümüz hər yerdə bu Qələbədə haqqı olanları gəzdi, bu Zəfərdə payı olanları axtardı! Bütöv xalqı gördük qarşımızda - sarmaşıq kimi "Dəmir yumruğ"a sarılıb müqəddəs savaşdan qalib çıxan qeyrətli xalqı!..

### İntellektual insan hər bir silahdan güclüdür

O da yumruq kimi birləşən bu xalqın övladıdır. O, silaha yox, uzun illərdir gecə-gündüz kitablara sarılıb ermənilərlə döyüşürdü. Başını aşağı salıb sakitcə öz işini görən bu adam erməni yalanlarını, saxtakarlıqlarını, erməni oğurluqlarını bircə-bircə üzə çıxarır, ən mötəbər tədbirlərdə, ən ali kürsülərdə səsimiz çatmayan yerlərə çatdırırdı. Daşdan keçən faktları, dəlilləri sillə kimi bu mənfurların "üzünə çırpır", erməniləri elə ermənilərin öz etirafları ilə rəzil edir, susdururdu...

Onun Qarabağla bağlı təsirli, cəlbedici nitqləri, ölkəmizdə ənənəvi olaraq keçirilən "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" adlı beynəlxalq konfrans və seminarları demək olar ki, bütün elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Və hər dəfə də çıxışlarını dinləyəndə qürur duyuruq ki, xalqımızın belə dəyərli alimi, ziyalısı, vətəndaşı var. İntellektual insan hər bir silahdan güclüdür deyirlər. Savadlı adam ən dəhşətli silahı da susdurmağa qadirdir. Əslində, onun təşəbbüsü ilə təşkil edilən tədbirlər daha çox elə mənfur düşmənlərimizin ağzını yummağa yönəlmişdi. Əcnəbi alimlərin də qatıldığı həmin beynəlxalq toplantılarda bu mövzuda təqdim edilən yeni, maraqlı araşdırmalar tariximizə, mədəni irsimizə əl uzadan ermənilərin gülünc uydurmalarını ifşa edir, böyük marağa səbəb olurdu...

### Dəyərlərə sədaqət insan şəxsiyyətinin bütövlüyünü təsdiq edir

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İmanov. Ali dəyərlər onun bioqrafiyasından qırmızı xətlə keçir. Dəyərlərə sadiq insan isə şəxsiyyətinin bütövlüyünü təsdiq edən, onun üçün hətta həyat normasına çevrilən meyardır. O, ölkəsi, dövləti, xalqı üçün xüsusi önəm daşıyan bu dəyərləri kompleks halında öz şəxsiyyətində əks etdirir. Ömrü boyu hər addımında xalqının köklü mənafelərini nəzərə alıb. Müxtəlif mədəniyyətləri, sivilizasiyaları dərindən öyrənərək onu öz xalqının tarixi, mədəniyyəti, sivilizasiyası ilə müqayisədə dəyərləndirib. Bu yanaşma digər xalqların mədəniyyətinə hörmətlə bərabər, öz xalqının ləyaqətini də bütövlükdə təqdim etməyə imkan verir. Azərbaycanın keçdiyi tarixi yol, onun mədəniyyəti, bugünkü inkişafı, parlaq uğurları, sabahkı perspektivləri Kamran İmanov üçün hər şeydən üstündür. O, illərdir dünyaya yalan toxumu səpən, ictimai rəyi çaşdıran, Azərbaycan tarixinin təhrif edilməsinə, onun ərazilərinin, mədəniyyətinin, xalqının əmlakının oğurlanmasına, bir çox nəsillərin intellektual, yaradıcı əməyinin bəhrəsinin mənimsənilməsinə haqq qazandıran, özündən mifologiyalar üzərində heç vaxt olmayan tarix "quraşdıran" erməni "alim"lərinin saxtakarlıqlarına biganə qala bilməzdi. Kamran müəllim ermənisayağı həqiqətləri dünyaya qəbul etdirməyə çalışan bu "alim"lərə qarşı sistemli mübarizəsini bir an da olsun dayandırmayıb: *"Ermənilər mif yaradıcılığına çox meyillidir. Bu, doğrudan da, "milli istedad"dır. İstər "Böyük Ermənistan", yaxud "böyük erməni mədəniyyəti", istərsə də sivilizasiyanın erməni ilk ocağı haqqında miflər, "erməni genosidi"... Bu mifləri dağıtmalıyıq"...*

### Miflər dağıldı

Erməni uydurmaları son nəticədə elə ermənilərin öz başlarında çatladı, onları alçaltdı, inkişaf perspektivlərini əlindən aldı. Bu gün bütün dünya Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində qazanılan, Azərbaycanın hər bir vətəndaşına qürur bəxş edən, xalqımızın ləyaqət hissini özünə qaytaran tarixi Qələbəsinin nəticələrini heyrətlə izləyir...

Professor Kamran İmanov erməni plagiatçılığını ifşa edən fundamental tədqiqat əsərlərinin müəllifidir. Bu əsərlərin hər biri bir həyəcan təbilidir. Elə təkcə "Erməni (yad) el (li) nağılları" kitabını iki yüz illik erməni əqli oğurluqlarının antologiyası hesab etmək olar. Kitabda xalqımızın folklor nümunələrini mənimsəyən ermənilərin absurd əməlləri tarixi və elmi dəlillərlə alt-üst edilir. Üstəlik, alim erməniləri öz etirafları ilə, necə deyərlər, öz "dilindən tutub" fakt qarşısında qoyur. Və bu müdriklik önündə heç bir arqument tapa biməyən ermənilər, Kamran müəllimin sözləri ilə desək, yalnız müəllifi söyməklə özlərinə təsəlli tapırlar...

"Gəldim, gördüm... mənimsədim, yaxud "Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi haqqında" və "Cəfəngiyyat teatrı" adlı iki fəsildən ibarət "Erməni (yad) el (li) nağılları" kitabı rus, ingilis, rumın və fransız dillərində kütləvi tirajla çap olunan kimi böyük rezonans yaratdı. Bu əsəri haqlı olaraq "əqli mülkiyyət qarətçilərini ifşa edən əsər" adlandırırlar.

"Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin sahibləri haqqında", "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri" kitabları da alimin bu sahədə yorulmaz, ardıcıl fəaliyyətinin bəhrəsidir. Amma o, böyük təvazökarlıqla *"Söhbət təkcə mənim kitabımdan getmir. Elmi dəlillər əsasında "Azərbaycan mədəni ənənələrini özününküləşdirən erməni ənənəsi"ni ifşa edən hər bir kitab vacibdir, bundan da vacibi mədəni irsimizin təbliği və dünyaya yayılmasıdır"* deyir.

Prezident İlham Əliyevin *"Bilməyənlər üçün deyə bilərəm ki, Hayastan əslində Ermənistan deməkdir. Bilmirəm, nəyə görə ingilis dilində, rus dilində Hayastana Armenia deyirlər, çünki ermənilər özlərini hay adlandırırlar, öz ölkəsini Armenia yox, Hayastan adlandırırlar. Bu, tarixçilərin işidir. Mən bunun səbəbini bilirəm, amma yəqin ki, gərək Azərbaycan tarixçiləri də daha dolğun tədqiqatlar aparsınlar"* fikrinə istinad edən alim diqqəti erməni saxtakarlıqlarına qarşı mübarizəmizin davam etməsinə yönəldir.

Onun kitablara sevgisi yurduna sevgisi qədər böyükdür. Uşaqlıqdan gələn bu sevgi heç tükənməyib. Bir dəfə müsahibə üçün qapısını açıb onu qalaq-qalaq kitabların arasında görəndə heç təəccüblənməmişdim. Otaqda kitabdan başqa gözümə heç nə dəyməmişdi. Torpaq suyu canına çəkən kimi o da kitabları ruhuna çəkir, bədii, tarixi-sənədli, elmi ədəbiyyat əlindən düşmür. Kitaba sevgisi ilə bağlı fikri də maraqlıdır: *"Bəzilərinin kitab sevgisi digərlərinin pul sevgisi ilə eynidir. Həm də hər iki halda bu, sərhədi olmayan bir bağlılıqdır".*

Kamran müəllimin kitabla bağlı bir jestini də unutmamışam: övladları ailə quranda kitabxanasının böyük hissəsini onların arasında bölüşdürüb...

### Təhsil, elm və idarəçilik

Kamran İmanovun fəaliyyətində bu üç istiqamət paralellik təşkil edir. Hər üçündə uğurla çalışmaq, hədəfləri bir araya gətirib vahid məcraya yönəltmək, üstəlik, müvəffəqiyyət qazanmaq çətin olsa da, o, bunu bacarıb: elmi, idarəçilik, peşəkarlıq üslubuna xas sistemli yanaşma, dürüstlük, zamanın tələblərinə adekvat məqsədlər, səriştəlilik, məsuliyyət və tələbkarlığa əsaslanan icra intizamı ilə...

O, Bakıda hüquqşünas və həkim ailəsində anadan olub. Amma düşünülmüş hərəkətlərin dəqiq ardıcıllığını tələb edən bu peşələrin heç birini seçmir, riyaziyyatı seçir. Bakının nümunəvi məktəblərindən birində - Nəsimi rayonundakı 1 saylı orta məktəbdə və o vaxt daha geniş siyasi-coğrafi məkanda məşhur olan Azərbaycan Neft və Kimya İnstitutunda təhsil alır. İnstitutda qalır, baş laborant kimi əmək fəaliyyətinə başlayır. Aspiranturanı uğurla bitirir, müdafiə edir, sektor müdiri, baş elmi işçi, baş müəllim vəzifələrində çalışır. Gənc alimin idarəetmə məsələlərində riyazi təhlildən istifadə etməklə qeyri-adi düşüncə tərzi və bacarığı nəzərdən qaçmır. Və 31 yaşlı Kamran İmanov Azərbaycan Dövlət Universitetinin nəzdində Təhsil Nazirliyinin Elmi-Tədqiqat Hesablama Mərkəzinin direktoru vəzifəsinə təyin edilir. Artıq zəhmətlə keçdiyi cığırlar geniş yollara qovuşmaqda idi və o, uğur nərdivanını elə uğurla da qalxırdı. İndiki Memarlıq və İnşaat Universitetinin elmi işlər üzrə prorektoru, sonra birinci prorektoru kimi də etimadı doğruldur. Təhsil sahəsində böyük təcrübəsi, təşkilatçılıq bacarığı, məsuliyyət və təvazökarlığı onun Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına dəvət edilməsi ilə nəticələnir. Əvvəlcə sədrin birinci müavini, test sistemi üzrə layihənin elmi rəhbəri olur, sonra üç il komissiyaya rəhbərlik edir.

Məsul vəzifələrdə işləməklə yanaşı, Gənclərin problemlərinin tədqiqi və modelləşdirmə üzrə mərkəzin rəhbəri, Gənc Alimlər Şurasının sədri, Respublika Rektorlar şurasının elmi katibi və digər vəzifələrin də öhdəsindən layiqincə gəlir. Paralel olaraq elmdə də uğurlarını davam etdirir, doktorluq dissertasiyası müdafiə edir, professor elmi adı alır.

İndi Memarlıq və İnşaat Universitetinin professorudur. Türkiyənin ali təhsil müəssisələrində mühazirələr oxumaq üçün gələn dəvətlərə də yox demir. Yeni nəsil alimlərin yetişdirilməsində əməyini əsirgəmir...

### Ümumdünya Əqli Mülkiyyət Təşkilatının böyük dostu

Kamran müəllim Müəllif Hüquqları Agentliyinə rəhbərliyə də elmdən gəlib. Özünə xas enerji və çevikliklə müstəqilliyini yenicə bərpa edən ölkəmizdə mülkiyyət hüquqlarının müdafiəsi, yaradıcı şəxslərin müəllif hüquqlarının qorunması sahəsində prioritetləri müəyyən edir. Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə təsdiq edilmiş Müəllif Hüquqları Agentliyi haqqında Əsasnamə bu sahədə əsas rupor olur.

Azərbaycanın əqli mülkiyyət sistemi professor Kamran İmanovun rəhbərliyi ilə diqqətçəkən nailiyyətlərə imza atdı. Səmərəli fəaliyyət bu institutun cəmiyyətdə, beynəlxalq səviyyədə tanınmasında, ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasında mühüm rol oynadı. Azərbaycan Ümumdünya Əqli Mülkiyyət Təşkilatı çərçivəsində mühüm müqavilə, konvensiya və sazişlərə qoşuldu, hazırda əsas beynəlxalq sazişlərin üzvüdür. Kamran İmanov nəinki ölkəmizdə, dünyada bu sistemin peşəkarlarından sayılır, onun fəaliyyətini əcnəbi alimlər, beynəlxalq ekspertlər yüksək qiymətləndirir. "Kamran İmanov "ÜƏMT-nin dostudur" - bu fikri beynəlxalq seminarlardan birində ölkəmizdə qonaq olan ÜƏMT-nin Baş direktoru Frensis Qarri demişdi. Bəli, çoxşaxəli maraq dairəsi, əqli mülkiyyət sahəsində biliklərə əsaslanan geniş dünyagörüşü Kamran İmanova qurumun əməkdaşları arasında böyük hörmət qazandırıb. Frensis Qarrinin son illərdə iki dəfə Azərbaycana rəsmi səfərə gəlməsi də bu nüfuzdan xəbər verir.

ÜƏMT Baş Assambleyasının sessiyalarında Kamran müəllimə qurumun əqli mülkiyyətin müxtəlif sahələrində siyasətinin beynəlxalq miqyasda həyata keçirilməsinə cavabdeh olan ən mühüm assambleyalarının rəhbəri vəzifəsi etibar edilib. O, 2019-cu ildə Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern İttifaqı Assambleyasının sədri, daha əvvəl sədr müavini, bu il isə "ÜƏMT-nin Müəllif Hüquqlarına dair Müqaviləsi" Assambleyasının sədri vəzifəsinə seçilib. Əqli mülkiyyət sahəsində beynəlxalq səviyyədə tanınmış ekspert, ÜƏMT-nin bir sıra sənəd layihələrinin hazırlanmasına dəstək, Müəllif Hüquqları Müqaviləsi Assambleyasının vitse-prezidenti vəzifəsində işlədiyi müddətdə kompromis və konsensusa nail olmağı bacaran mahir məruzəçi və moderatorluq, bir sıra elmi-metodiki vəsaitlərin müəllifi, peşəkarlıq, idarəçilik, şəxsi nümunə... Bern İttifaqı Assambleyasının sədri vəzifəsinə seçilməsinin səbəbi məhz onun bu keyfiyyətləridir. Professor Kamran İmanovun ÜƏMT-nin komitələrində, hər il keçirilən Baş Assambleyalarında əqli mülkiyyət gündəminin ən aktual məsələləri barədə rus, ingilis və fransız dillərində çıxışları da diqqətdən yayınmır...

Daha bir mühüm uğur isə ÜƏMT Katibliyinə Azərbaycan nümayəndəsinin təyin edilməsidir. Bu uğura da Prezident İlham Əliyevin ölkə vətəndaşlarının beynəlxalq təşkilatların strukturlarında iştirakının təmin edilməsi ilə bağlı tapşırıqlarını rəhbər tutan Kamran İmanov nail olub.

O, dövlət başçısının həyata keçirdiyi dərin institusional və iqtisadi islahatlar çərçivəsində yaradılan Əqli Mülkiyyət Agentliyinə bacarıqla rəhbərlik edir. Bu sahədə Kamran İmanovun bilavasitə iştirakı ilə əqli mülkiyyət institutunun mahiyyətini və məqsədini ifadə edən idarəetmə modeli formalaşıb. Bu modelin səciyyəvi xüsusiyyəti Ümummilli Lider Heydər Əliyevin yaratdığı əqli mülkiyyət sistemi konsepsiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.

Alim riyazi iqtisadiyyat, idarəetmə qərarlarının qəbulu, informasiya texnologiyaları və əqli mülkiyyət (IT-IP), xalqımızın mədəni irsinin qorunması, əqli mülkiyyət hüquqlarıının rəqəmsal şəbəkələrdə, elektron ticarətdə idarə olunması haqqında iki yüzdən çox elmi məqalənin, on kitabın müəllifidir. O, ÜƏMT Akademiyasının "Əqli mülkiyyət hüquqları" və ABŞ Konqresinin Müəllif Hüquqları Bürosunun "İnformasiya texnologiyaları və əqli mülkiyyətin əlaqəsi" istiqamətində diplomlarına layiq görülüb.

### Bütün statuslarında uğurlu insan

Professor Kamran İmanov fəaliyyət göstərdiyi hər yerdə silinməz iz qoyub. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi olduğu qısa vaxtda da öz sözünü deyib. İçərişəhərin tarixinin tədqiqi, bərpası, rekonstruksiyası, qorunması üzrə Baş Planın hazırlanmasına uğurla rəhbərlik edib. Xalqımızın qeyri-maddi mədəni irsinin hüquqi qorunması və mühafizəsi daim alimin diqqətində olub. Müəllifi olduğu və rəhbərlik etdiyi İşçi qrupun hazırladığı və 2003-cü ildə qəbul edilən "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" qanun bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Heç bir xidmət, heç bir zəhmət mükafatsız qalmır. Onun ömrünü və fəaliyyətini dəyərli təltiflər müşayiət edir. O, çox sayda dövlət mükafatlarına və fəxri adlara layiq görülüb. 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Şöhrət" ordeni, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley medalı alimin şərəflə daşıdığı və qürur duyduğu təltiflərdir. Prezident İlham Əliyevin 4 noyabr 2021-ci il tarixli sərəncamı ilə Kamran İmanov dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi dövlət başçısının onun əməyinə verdiyi yüksək qiymətdir.

Dövlət xadimi və alim, məmur və vətəndaş, alicənab insan və ziyalı, gözəl ailə başçısı və valideyn, dost və həmkar... Kamran müəllim bu statusların hər birində uğurlu insan olduğunu çoxdan təsdiq edib. Ömrü boyu bu statuslara yalnız şərəf gətirən əməllərə imza atıb. Özünə xalqımızın öyünə biləcəyi, qürur duyacağı insanlar sırasında yer qazandırıb.

Əqli mülkiyyətimizin rəhbəri bu gün əqlin müdrik çağını daxili rahatlıqla yaşayır. Və... 75 yaşa "ömrün qızıl payızı" da deyirlər. Onun bu qızılı payızdan sonra gələn və ömrünə parlaq qar dənəcikləri kimi min bir naxış vuracaq müdrik, bəmbəyaz qışı da çox aydın görünür. Yol şəffaf olanda bu başından o biri başını görmək çətin olmur...

***Firuzə NADİR,***
***Əməkdar jurnalist***

# Vətən müharibəsi şəhidlərinin xatirəsi ehtiramla yad edilir

Vətən müharibəsinin hər günü Azərbaycan xalqının tarixinə şanlı zəfər kimi yazılmışdır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əsgərləri, bu millətin qəhrəman övladları 30 ilə yaxın davam etmiş işğala son qoymuşlar. Onlar öz qanları, canları ilə yeni tarix yazmışlar. İndi Azərbaycan xalqı Zəfər gününə hazırlaşır, bu şanlı tarixi bizə yaşadanlara dərin hörmət və ehtiram nümayiş etdirir.

Gəncədə də Vətən müharibəsi şəhidlərinin anım mərasimləri təşkil edilir. Mərasimlərdə şəhər rəhbərliyi, millət vəkilləri, hüquq-mühafizə orqanlarının, habelə idarə, müəssisə və təşkilatların, şəhər ictimaiyyətinin nümayəndələri iştirak edirlər. Şəhid ailələri ilə birlikdə Vətən uğrunda canından keçən igidlərimizin məzarları ziyarət olunur, onların ruhuna dərin ehtiram bildirilir.

Bundan əlavə, Vətən müharibəsi şəhidlərinin il mərasimlərinin təşkili üçün hər ailəyə maddi yardım göstərilir. Eləcə də aidiyyəti qurumların rəhbərləri tərəfindən şəhid ailələri ziyarət olunur, onları narahat edən problemlər aradan qaldırılır.



Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Gəncə şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə abidə kompleksi inşa olunur. Abidə kompleksinin Zəfər günü ərəfəsində təhvil verilməsi nəzərdə tutulur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İqlim təhdidi




## Qlobal bəlaya qarşı dünya hələ də birləşmir



Şotlandiyanın Qlazqo şəhərində keçirilən COP-26 İqlim sammiti başa çatıb. Dünya liderləri bu dəfə də öz üzərlərinə atmosferə tullantılarla bağlı yüksək öhdəliklər götürməyiblər. Bunsuz isə alimlər artıq cari əsrdə bəşəriyyətə və planetimizə iqlim fəlakəti proqnozlaşdırırlar. Ekspertlərin fikrincə, sammitdə bir çox ümidverici bəyanatlar səslənsə də, nə sözdə, nə də əməldə birlik alınmayıb.

Dünyanın praktiki olaraq bütün ölkələri 2015-ci ildə COP-21-də Paris Sazişi imzalandığı andan bəri ilk dəfə Böyük Britaniyadakı BMT konfransında işlərin necə getdiyi, habelə bəşəriyyətin qlobal istiləşmənin qarşısını almaq vəzifəsinin öhdəsindən gəlib-gəlməyəcəyini yoxlamağa toplaşmışdılar. Lakin hələ sammit ərəfəsində alimlər buna skeptik yanaşırdı.

Nəticədə bəziləri metan tullantılarını azaltmağı vəd etmiş, digərləri növbəti dəfə gələcəkdə meşələri qırmayacağı öhdəliyi götürmüş, qalanları isə ümumiyyətlə, Qlazqoya gəlməmiş və yeni heç nə vəd etməmişlər.

### Sammitin müəyyən uğurları

Payına planetdəki meşələrin 85 faizi düşən 110 ölkə müvafiq bəyannamə imzalamış və 2030-cu il üçün meşə örtüyünün azaldılması prosesini dayandırmaq, sonradan isə onun bərpasına başlamaq öhdəliyi götürmüşdür. Bu vədə Çin, Rusiya və Braziliya da qoşulmuşdur. Sənəd həm də özündə maliyyə öhdəlikləri ehtiva edir. Son 10 il ərzində torpaqdan istifadə ilə bağlı destruktiv üsullara, əkin sahələrinin qorunması və bərpası, habelə kənd təsərrüfatında dayanıqlı üsullara keçməyə təxminən 40 dəfə çox vəsait sərf edilmişdir. Birgə kapitalı 8,7 trilyon dollar olan 30-dan çox maliyyə idarəsinin imzaladığı öhdəlikdə həmçinin yaranmış vəziyyətin dəyişdirilməsi nəzərdə tutulub.

Qlazqo COP-26 İqlim sammitində qəbul olunmuş qətnaməyə əsasən 40-dan çox ölkə ən çirkli yanacaq mənbəyi olan kömür enerjisindən istifadə etməyəcəklərinə razılıq vermişlər. Bu, planetdə temperaturun yüksəlməsinin 1,5 dərəcədən çox artmaması üçün vacibdir. Kömürdən istifadə edən əsas ölkələr, o cümlədən Kanada, Polşa, Ukrayna, Vyetnam və Çili tədricən bundan imtina edəcəklər, özü də daha iri iqtisadiyyatlar bunu 2030-cu illərdə, daha kiçikləri isə 2040-cı illərdə həyata keçirəcək. Lakin kömürdən asılı olan dünyanın ən iri iqtisadiyyatlarının bəziləri, məsələn, Avstraliya, ABŞ, Çin və Hindistan saziş şərtlərini qəbul etməyib. Bundan əlavə, ekspertlər bildirirlər ki, kömür istehsalının dayandırılması üçün müəyyən olunmuş son tarixlər "çox gecdir".

Ümumilikdə müəyyən müddət ərzində 190 ölkə və təşkilat planetimizdə atmosferin ən iri çirkləndiricisi və qlobal istiləşmənin əsas amili olan kömürdən istifadə etməmək qərarına gəlib. Qətnaməyə imza atanlar həm beynəlxalq, həm də daxili bazarda kömürdən alınan elektrik enerjisi istehsalatına heç bir sərmayə qoymayacaqlarını vəd ediblər.

### Yaşıl inqilab labüddür

BMT-nin Baş katibi bildirib ki, COP-26-da bəyan olunan templərlə Paris Sazişinin hədəflərinə çatmaq "çox çətin olacaq". Parisdə dünyanın praktiki olaraq bütün ölkələri planetdə temperaturun yüksəlməsini 2 dərəcə çərçivəsində, idealda isə 1,5 dərəcəyə də yol verməmək barədə razılıq əldə etmişdilər. Qlazqoda sammit zamanı BMT meteoroloqları xəbər veriblər ki, planet çox sürətlə istiləşir və cari 2021-ci il 170 illik müşahidələr tarixində 7 ən isti illərdən biri olacaq. Özü də 7 ilin hamısı 2014-cü ildən bəri qeydə alınmış, ümumilikdə isə son 22 il tarix boyu ən isti illər olmuşdur. Burada ancaq bir il istisna təşkil edir.

Alimlər və ekspertlər yekdil qənaətə gəlmişlər ki, yaşıl inqilab olmadan iqlimin dəyişməsi planetdə kütləvi miqrasiya və yoxsulluq təhlükəsi yaradır. Belə ki, kataklizmlər çoxalır, enerjiyə isə tələbat artır. Bütün dünya alimlərin bu qənaəti ilə razıdır ki, istiləşmə insan fəaliyyəti nəticəsində baş verir və ancaq insan onun qarşısını ala bilər. Hələlik Qlazqoda bu barədə razılaşma əldə etmək mümkün olmayıb. İkigünlük sammit başa çatıb. Konfrans və danışıqlar isə hələ on gündən çox davam edəcək.

Ekspertlər hesab edirlər ki, COVID-19 problemi və dünyanı bürümüş enerji böhranından əlavə, Qlazqo sammiti qlobal istiləşməyə qarşı ümumdünya yürüşü ilə bağlı iki səbəbdən uğursuzluğa düçar olub.

### Birinci səbəb - etimadsızlıq

Əvvəla, zəngin ölkələr tullantıların azaldılması ilə bağlı itkilərin kompensasiyası üçün inkişafda olan iqtisadiyyatlara hər biri ildə 100 milyard dollar ayırmaq barədə üzərlərinə götürdükləri vədləri yerinə yetirməyiblər. Bundan narazı qalanlar indi daha çox vəsait tələb edirlər. Məsələn, Hindistan lideri Narendra Modi sammitdə 1 trilyon dollar barədə söhbət açıb. Bundan sonra Yaponiya 10 milyard dollar, Böyük Britaniya və İtaliya isə bundan da az vəsait ayırıblar.

Geridə qalan ölkələr zənginləri vaxtilə atmosferi zəhərləməkdə və bunun hesabına varlanmaqda ittiham edirlər. 150 il ərzində atmosferdə yığılmış karbon qazı indi istiləşmə yaradır, sənayeləşmə mərhələsini hazırda yaşayanlar isə buna görə hesab ödəməlidirlər.

"Bu danışıqların ən ciddi problemi inkişaf etmiş və inkişaf edən ölkələr arasında etimadın olmamasıdır", - deyə BMT-nin Baş katibi Antoniu Quterreş bildirib.

İnkişaf edən dünyanın lideri, ÇXR sədri Si Cinpin ümumiyyətlə sammitə gəlməmişdir. Bundan əlavə, hazırda planetdə atmosferə atılan tullantıların ən iri mənbəyi (tarixi olaraq atmosferin ən iri çirkləndiricisi ABŞ idi) Pekin öz üzərinə yüksəlmiş öhdəliklər götürməmişdir.

### Uğursuzluğun ikinci səbəbi - ABŞ

İnkişafda olan dünya ilə konsensus alınmadığı halda Qərb liderliyi öz üzərinə götürməli idi. Lakin burada da müsbət nəticə alınmayıb. ABŞ Prezidenti Co Bayden lider rolunda iştirak etmək istəyib. O, Amerikanı Paris Sazişinə qaytarsa da, iki il ərzində cəmiyyəti və siyasətçiləri tullantıların azaldılması ilə bağlı konkret, yaxud yüksəlmiş öhdəliklər götürməyə inandıra bilməyib. Bundan əlavə, sammit ərəfəsində ABŞ ötən illə müqayisədə 20 faiz çox kömür yandırıb. Bu artım 2014-cü ildən başlayıb və ABŞ-da istixana qazlarının tullantılarının 8 faizlik artımına səbəb olacaq. Məhz buna görə C.Bayden daha kasıb ölkələri ümumi iş üçün daha çox vəsait ayırmağa inandıra bilməyib. Ancaq demokratik düşərgədən olan müttəfiqlər ABŞ-ı qismən dəstəkləyiblər. Hindistan 2070-ci il üçün tullantıları sıfırlamağı vəd edib, Braziliya isə metan tullantılarının və meşələrin qırılmasının azaldılması öhdəliyini götürüb.

Eyni zamanda Co Bayden Rusiya Prezidenti Vladimir Putini sammitə gəlməməkdə və iqlimin dəyişməsi ilə bağlı susmaqda ittiham edib. Halbuki RF lideri sammit iştirakçılarına videomüraciət ünvanlayıb. Bundan əlavə, Amerika lideri Rusiyanı OPEC ölkələri ilə birgə neft hasilatı həcmlərinin artırılmasından imtinada və neftin qiymətlərini artırmaqda suçlayıb.

Ev sahibi - Böyük Britaniya hökumətinin başçısı Boris Conson isə Vladimir Putinin və Si Cinpinin Qlazqoya iqlim sammitinə gəlməməsi qərarlarına hörmətlə yanaşdığını bildirib.

2015-ci ildə Paris Sazişini imzalayan 197 ölkə üzərlərinə götürdükləri öhdəliklərə yenidən baxmaq üçün 5 ildənbir görüşür. Növbəti görüş 2025-ci ilə planlaşdırılıb. Lakin BMT-nin Baş katibi Antoniu Quterreş bunu 5 ildənbir yox, hər il etmək barədə dünyanı inandırmaq ümidlərindən əl çəkmir.

Şotlandiyanın Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəfləri Konfransının 26-cı sessiyasında (COP-26) Azərbaycan Respublikası iqlim dəyişmələrinə təsirlərin azaldılması və iqlim dəyişmələrinə uyğunlaşma üzrə beynəlxalq səyləri dəstəkləyərək "Meşə və Torpaqdan İstifadəyə dair Qlazqo Liderlər Bəyannaməsi", "Yaşıl Şəbəkə Təşəbbüsü - Bir Günəş, Bir Dünya, Bir Şəbəkə", "İqlim Dəyişmələrinə Uyğunlaşma və Dayanıqlıq üçün Ambisiyaların Artırılması", "Qlobal Okean Alyansı", "Qlazqo Nailiyyətləri", "100 faiz Sıfır Emissiyalı Avtomobillərə Keçidin Sürətləndirilməsi", "Beynəlxalq Miqyasda Ədalətli Keçid", "Kömürdən Təmiz Enerjiyə Qlobal Keçid" kimi bir sıra təşəbbüslərə qoşulub. Bundan əlavə, Azərbaycan qlobal səylərə öz töhfəsini vermək məqsədilə yeni hədəflə çıxış edərək 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40 faizədək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılmasını bəyan edib. Eyni zamanda "ağıllı şəhər"/"ağıllı kənd" konsepsiyasının reallaşması və bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması planları haqqında danışılıb.

Ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını, 2000-ci ildə isə konvensiyanın Kioto protokolunu ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub və 2016-cı ilin oktyabrında Paris Sazişini ratifikasiya edib. Azərbaycan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədində baza ili (1990) ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdü, hazırda isə bu öhdəlik 40 faizə çatdırılıb. İstilik effekti yaradan qazların qlobal emissiyalarında ən çox payı olan 5 ölkə bunlardır: Çin (28 faiz), ABŞ (15 faiz), Hindistan (7 faiz), Rusiya (5 faiz), Yaponiya (4 faiz). Dünya üzrə ümumi emissiyalarda Azərbaycanın payı 0,15 faiz təşkil edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

**Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət**

| Ümumi | | Bu gün 04.11.2021 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 539710 | Yeni yoluxanların sayı | 2706 |
| Ümumi sağalanların sayı | 501508 | Yeni sağalanların sayı | 1937 |
| Aktiv xəstə sayı | 31020 | Bugünkü test sayı | 15350 |
| Ümumi test sayı | 5243038 | Bugünkü ölüm sayı | 29 |
| Ümumi ölüm sayı | 7182 | | |

Koronavirus İnformasiya Portalı koronavirusinfoaz KoronaVirus İnformasiya portalı KoronaVirus info

**Azərbaycan Respublikasının ərazisində COVID-19 əleyhinə aparılan vaksinasiya ilə bağlı son vəziyyət**

| Ümumi | | 04.11.2021 | |
|---|---|---|---|
| Vurulan vaksinlərin ümumi sayı | 9798866 | Gün ərzində vurulan vaksinlərin sayı | 45041 |
| 1-ci doza vaksinlərin sayı | 4980307 | 1-ci doza vaksinlərin sayı | 6583 |
| 2-ci doza vaksinlərin sayı | 4406811 | 2-ci doza vaksinlərin sayı | 9746 |
| "Buster" doza vaksinlərin sayı | 411748 | "Buster" doza vaksinlərin sayı | 28712 |

Koronavirus İnformasiya Portalı koronavirusinfoaz KoronaVirus İnformasiya portalı KoronaVirus info

# Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib





Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, müqəddəs torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri davam edir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, Vətən Müharibəsi Qəhrəmanları - şəhid baş gizir Allahyarov Şahin Hüseynbala oğlu və kiçik gizir Novruzov Amin Tacəddin oğlunun boya-başa çatdıqları rayonlarda keçirilmiş anım mərasimlərində DSX-nin rəsmiləri, rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları şəhidlərin məzarlarını ziyarət edib, üzərlərinə gül çələngi qoyublar.

Anım tədbirinə qatılanlar Vətən müharibəsinin ilk günlərindən ön cəbhəyə yollanan Şahin Allahyarovun Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərdiyi, Hadrut qəsəbəsinin azad olunmasında xüsusi ilə fərqləndiyi, Şuşa şəhərinin azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olduğu diqqətə çatdırılıb.

Baş gizir Şahin Allahyarovun döyüş şücaətinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyi, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamı ilə ona ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adının verildiyi, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunduğu vurğulanıb.

Şəhid kiçik gizir Amin Novruzovun anım mərasimində onun Vətən müharibəsində Füzuli, Cəbrayıl uğrunda gedən döyüşlərdə xüsusi fədakarlıq göstərdiyi, Cəbrayıl-Zəngilan istiqamətində İran İslam Respublikası ilə dövlət sərhədinin azad edilməsində, Zəngilan rayonunda Ermənistanla sərhəddə yerləşən strateji əhəmiyyətli yüksəkliklərin düşməndən təmizlənməsi döyüşlərində şücaətlə vuruşduğu qeyd olunub. Düşmənin əks-hücumunun qarşısını alarkən ağır güllə yarası alan Aminin "...düşünməyin ki, mən ölümdən qorxuram. Yox, əgər sağ qalsam, yenidən bu Vətən üçün döyüşməyə gələcəyəm. Yox, əgər şəhid olsam, Vətən sağ olsun" deyərək əbədiyyətə qovuşduğu vurğulanıb.

Kiçik gizir Novruzov Amin Tacəddin oğluna döyüş əməliyyatlarında göstərdiyi şəxsi qəhrəmanlığa görə ölümündən sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adının verildiyi, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunduğu vurğulanıb.

Vətənimizin bütövlüyü uğrunda fədakarlıqla döyüşmüş, uca şəhidlik məqamına qovuşmuş qəhrəmanlarımızın əziz xatirələrinin hər zaman ehtiramla anılacağı, onların qoyduğu qəhrəmanlıq mirasının gələcək nəsillər tərəfindən Vətənə sevginin və sədaqətin ən ali təzahürü olaraq daim uca tutulacağı qeyd edilib.

Tədbirlərdə şəhidlərin ailə üzvləri dövlətimiz tərəfindən Vətən uğrunda canından keçmiş qəhrəmanların xatirələrinin əbədiləşdirilməsi, ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

# "Azercell"in müştəri xidmətləri artıq "İnstaqram"ın şəxsi mesaj bölümündə!




Müştərilərini hər zaman diqqət mərkəzində saxlayan "Azercell Telekom" MMC rəqəmsal kanallar vasitəsilə göstərdiyi xidmətlərin çeşidini genişləndirir.

Abunəçilərinin müraciətlərini daha da operativ şəkildə cavablandırmağı hədəfləyən "Azercell" artıq "İnstaqram" sosial şəbəkəsinin şəxsi mesajlaşma bölməsi vasitəsilə də müştərilərinə xidmət göstərir. Qeyd edək ki, şirkət iki il öncə "Feysbuk" platformasında da bu funksiyanı işə salıb.

Statistika sübut edir ki, sosial şəbəkələr "Azercell" müştəri xidmətlərinin mühüm tərkib hissəsinə çevrilməkdədir. Bu ilin əvvəlindən indiyədək təkcə "Feysbuk"da "Azercell" təmsilçiləri 213 mindən çox abunəçinin müraciətini cavablandırıblar. "İnstaqram"da isə bu rəqəm 70 minə yaxınlaşır. Digər populyar şəbəkə - "Tviter"də bu il ərzində şirkətin müştəri xidmətlərinə sorğu göndərənlərin sayı 3500-ə yaxındır. "Azercell"in nümayəndələri şirkətin rəsmi "Yutub" kanalında da 300-ə yaxın müraciəti qəbul ediblər. Linkedin üzərindən isə bu müddət ərzində 126 "Azercell" abunəçisinin sorğusu daxil olub.

"Azercell"in "Feysbuk", "İnstaqram", "Tviter", "Linkedin" və "Yutub" rəsmi səhifələri daxil olmaqla sosial şəbəkələrdə toplam 784,678 istifadəçisi var. Xatırladaq ki, məhz "Azercell" 2012-ci ildə "Tviter" platformasının, 2013-cü ildə "Feysbuk" sosial şəbəkəsinin təsdiqlənmiş (verified) statusunu qazanan ilk mobil operator olub. Fəaliyyətini uğurla davam etdirən lider mobil operator 2019-cu ildə "İnstaqram"ın bütün verifikasiya meyarlarına cavab verərək səhifənin təsdiq nişanını alıb.

Bu səhfələrdən istifadə edən "Azercell" abunəçilərinə 24/7 rejimində yüksək keyfiyyətli xidmət təqdim olunur. Eyni zamanda sosial şəbəkə hesablarında "Azercell"in tətbiq etdiyi yeniliklər, tarif və kampaniyalar, keçirilən sosial layihələr və xidmətlər haqqında ən son xəbərlər paylaşılır.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi ilə əlaqədar işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412530-29-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.11.2021-ci il saat 16:00-dək qəbul olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı açıq tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsas vəsaitlərin və nağd pulun sığortalanması üzrə açıq tender keçirir.

Tender proseduru 22 dekabr 2021-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

İddiaçının tələb olunan kapitalı Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 mart 2020-ci il tarixli 08/2 nömrəli qərarına uyğun olaraq qeyri-həyat sığortası fəaliyyəti üzrə sığortaçılar üçün tələb olunan 5 000 000 (beş milyon) manatdan az olmamalıdır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın, o cümlədən nağd pulun yanğından və digər risklərdən sığortalanmasına, nağd pulun daşınması üzrə risklərdən sığortalanmasına dair verilmiş razılığın surəti;*
- *tenderin Əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat. Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 08 fevral 2022-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 21 dekabr 2021-ci il saat 17:30-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 13 dekabr 2021-ci il saat 17:30-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2022-ci il tarixdən başlanılır.**
**Sığorta xidmətinin göstərilməsi müddəti: 1 (bir) il.**

Qiymətləndirmə meyarları: qiymət, təklif olunan xidmətlər toplusu üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsindən tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxslər:
Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax.tel: 428), elektron poçt ünvanı: **elvin_shirdanov@cbar.az**
Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax.tel: 599), elektron poçt ünvanı: **ceyhun_samandov@cbar.az.**

***Tender komissiyası***

# «QARABAĞ» ZƏFƏRİ

## Ağdam klubu əzmkar qələbə ilə UEFA Konfrans Liqasında növbəti mərhələyə yüksələrək tarixi nəticəyə imzasını atdı



**UEFA Konfrans Liqası**

*H qrupu, 4-cü tur*

**"Kayrat" (Qazaxıstan) - "Qarabağ" (Azərbaycan) - 1:2**

**Qollar:** Vadji, 58 (0:1), Kante, 68 (1:1), Zubir, 62 (1:2)
**Baş hakim:** Dumitri Muntean (Moldova)

**Almatı. Mərkəzi Arena**





Dünən UEFA Konfrans Liqasının qrup mərhələsində 4-cü turun qarşılaşmaları keçirilib. Turnirdəki yeganə təmsilçimiz "Qarabağ" Qazaxıstanda "Kayrat"ın qonağı olub.

İki həftə öncə Bakıda keçirilən matçda 2:1 hesablı əzmkar qələbə qazanan Ağdam təmsilçisi səfərdən də yaxşı nəticə ilə qayıdaraq pley-offa vəsiqəni də təmin edə bilərdi. Qarşılaşmaya meydan sahibləri daha istəkli başladılar. Aydındır ki, "Qarabağ"ın hazırkı heyəti daha çox hücum, qısa ötürmələrə uyğun futbol oynamağa imkan verir. Lakin Almatıda havanın -15 dərəcə şaxtalı olması, yağan qar səbəbindən meydançanın qazonunun vəziyyəti ağdamlılara alışdığımız oyunu nümayiş etdirməyə imkan vermədi. Komandamız matçın ilk dəqiqələrindən müdafiə olunacağını göstərərək "Kayrat"a hücumda daha çox oynamağa imkan verdi. Elə matça da meydan sahibləri daha istəkli başladılar. İlk dəqiqələrdən sağ cinahdan hücumlar təşkil edərək uzun ötürmələrə üstünlük verərək, oyunu meydançanın "Qarabağ"a aid hissəsində qurmağa başladılar.

Ağdam klubu isə topu rəqibə verərək müdafiə olunmaqla, yaranan ani əks-hücumlarda qol epizodları yaratmağa çalışdı.

Matçın 20-ci dəqiqəsindən sonra yaranan əks-hücumlarda komandamız meydançanın rəqibə aid hissəsində çoxala bilmədiyinə görə bir neçə fürsətdən istifadə edə bilmədi. "Kayrat"ın hücum xəttində oynayan Vaqner Lav isə yaranan boş zonalardan faydalanaraq ağdamlıların qapısı qarşısında bir neçə təhlükəli epizodlar yaratdı. Lakin qapı dirəyi komandamızı qoldan xilas etdi.

İlk hissədə demək olar ki, futbolçular Qurban Qurbanovun arzuladığı oyun planını meydançada tətbiq edə bilmədilər. Meydan sahibləri isə itirilən hər topu tez zamanda qazanmağı bacararaq "Qarabağ"lı həmkarlarını topun dalınca daha çox qaçmağa məcbur etdilər.

Fasilədən sonra "Kayrat"ın komanda olaraq hücuma çıxmasından sonra müdafiənin mərkəzində yaranan boşluqdan komandamız faydalandı. Belə ki, yaranan əks-hücum zamanı müdafiə xəttinin arxasına atılan topdan sonra İbrahima Vadji görüşdə hesabı açdı.

Ümumiyyətlə, matçın gedişatında komandalar müdafiənin arxasına atılan toplarla daha çox boş zonalarda qol epizodları yaratmağı hədəfləyirdilər. Bu vaxt isə gah müdafiəçilər mövqe seçimlərində səhvə yol verdilər, gah da qapıçılar bu yanlışlığı sığortalamaq üçün daha çox irəli çıxmaq məcburiyyətində qaldılar. Belə epizodlardan birində "Qarabağ"ın müdafiəçisi Medinanın sayıqlığı itirməsi qapımızda qolla nəticələndi.

Buraxılan qoldan sonra növbəti dəfə hücuma atılan meydan sahibləri yenə müdafiə xəttinin arxasına atılan ötürmədən sonra qapılarında daha bir qol gördülər. Bu dəfə Zubir vurduğu qolla "Qarabağ"ı hesabda irəli çıxardı-1:2

Görüşün qalan dəqiqələrində hər iki tərəfin səylərinə baxmayaraq, başqa qol olmadı və Ağdamın "Qarabağ"ı Almatıda qalib gələrək qrupda xallarının sayını 10-a yüksəltdi və bununla da pley-off mərhələsinə vəsiqəni vaxtından əvvəl təmin etdi.

Ağdam təmsilçisi həm də qrupdakı qələbə, xal və qol sayında da rekord əldə edib. Belə ki, indiyədək heç bir Azərbaycan klubu əsas mərhələdə bu qədər matçda rəqibini məğlub etməyib. Bu, Azərbaycan klubları üçün mütləq rekorddur. Hər iki göstəricidə əvvəlki rekord 2016-2017-ci il mövsümünə təsadüf edib. Həmin vaxt Avropa Liqasında 2 qələbə qazanan ağdamlılar qrupu 7 xalla tamamlayıblar.

"Qarabağ" qrupdakı məhsuldarlıq rekordunu da təkrarlayıb. 2019-2020-ci il mövsümündə Avropa Liqasının qrupunda 8 qol vuran Qurban Qurbanovun komandası yenə 8 dəfə rəqib qapılarına yol tapıb. Amma mütləq rekord üçün qarşıda daha iki görüş var.

Təbriklər, "Qarabağ"!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması istiqamətində zəruri tədbirlər davam etdirilir

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər qaçaqmalçılıq fəaliyyətləri ilə mübarizə sahəsində zəruri tədbirləri davam etdirir.





DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, oktyabrın 29-da saat 11:10 radələrində Xidmətin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozaraq, Azərbaycan Respublikasından İran İslam Respublikasına qanunsuz yolla keçməyə cəhd edən bir nəfər Azərbaycan vətəndaşı - 1994-cü il təvəllüdlü Rüstəmov İsrayıl Ənvər oğlu sərhəd pozucusu qismində saxlanılıb.

Həmin gün saat 21:30 radələrində DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad rayonunun Sərxanlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində sahibsiz halda aşkarlanmış bağlamaya baxış zamanı içərisində 12 kiloqram 635 qram çəkidə narkotik vasitəyə bənzər maddə aşkarlanaraq götürülüb

Oktyabrın 30-da saat 11:15 radələrində Xidmətin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində iki nəfər naməlum şəxsin Azərbaycandan İran istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkarlanıb. Sərhəd zastavası dərhal "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayan sərhəd pozucuları havaya xəbərdarlıq atəşindən sonra saxlanılıblar. Həmin şəxslərin Azərbaycan Respublikası vətəndaşları - Xaçmaz rayon sakini, 1997-ci il təvəllüdlü Fərmanlı Mehman İlqar oğlu və Bakı şəhər sakini, 1989-cu il təvəllüdlü Sadıqov Tərlan Heybət oğlu olmaları müəyyənləşdirilib.

Həmin gün DSX-nin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin Qazax rayonunun İkinci Şıxlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Gürcüstandan Azərbaycana Kür çayında çəlləyin içərisində ötürülmüş qaçaqmal predmeti olan 20 qutu (339 blok) "Demi Wolf" markalı pirotexniki vasitə aşkarlanaraq götürülüb.

Faktlarla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Roman Abdulla oğlu Məmmədovun adına verilmiş AA 0005115 seriyalı 2254 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "Bakı 10 №-li Yol İstismarı" MMC-nin direktoru Mübariz Paşayevə qardaşı

**ƏMİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5590
Sifariş 2171
Qiyməti 40 qəpik